khazar-view.com

iyun - 2011

297

KHAZAR VIEW

# XƏZƏR XƏBƏR

ELMİ-KÜTLƏVİ, ƏDƏBİ-PUBLİSİSTİK TOPLU



## Beynəlxalq Simpozium

# AZƏRBAYCAN Dünya Ədəbiyyatında

ISSN 2218 - 2772

AYLIQ DƏRGİ







# BEYNƏLXALQ SİMPOZİUM













# AZƏRBAYCAN DÜNYA ƏDƏBİYYATINDA







Mayın 27-də Xəzər Universitetinin təşkilatçılığı ilə universitetin "Dünya" konfrans mərkəzində Azərbaycan Respublikasının müstəqilliyinin və Xəzər Universitetinin yaranmasının 20 illiyinə həsr olunmuş "Azərbaycan dünya ədəbiyyatında" mövzusunda beynəlxalq simpozium öz işinə başladı. Simpoziumda Azərbaycan, Türkiyə, Şimali Kipr Türk Cümhuriyyəti, Rusiya, Türkmənistan, Gürcüstan, İrak, İran, Rumıniya, Serbiya, Polşa, İsrail, Misir və Hindistanın müxtəlif elm və təhsil müəssisələrini təmsil edən yüzədək alim və tədqiqatçı iştirak edirdi. Simpoziumun məqsədi qədim dövrlərdən etibarən dünya ədəbiyyatında Azərbaycan tarixi, musiqisi, mədəniyyəti, folkloru və ümumiyyətlə, Azərbaycan haqqında yazılmış şeir, nəsr, dram əsərlərini, memuarları və səyahətnamələri üzə çıxarmaq, alimlərin diqqətini onların sistemli şəkildə tədqiqatına yönəltməkdir.

Simpozium Üzeyir Hacıbəyovun "Koroğlu" operasından uvertura ilə açıldı və Azərbaycan haqqında film nümayiş etdirildi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı giriş nitqi söyləyərək, iştirakçıları salamladı, simpoziumun təşkili, məqsəd və vəzifələri haqqında ətraflı məlumat verdi.

Açılış mərasimində həmçinin Xəzər Universitetinin rektoru Con Rayder, Ege Universiteti (Türkiyə) Türk ləhcələri bölümünün müdiri Yavuz Akpınar, AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Rafael Hüseynov, Rusiya Elmlər Akademiyası Umumi Tarix İnstitutunun elmi işçisi Salavat İsxakov, Varşava Universitetinin (Polşa) professoru Danuta Çmielovska, iş və fikir adamı Əli Polad (Türkiyə) çıxış etdilər.

Açılış mərasimi Xəzər Universitetinin mahnı və rəqs ansamblının konsert proqramı ilə başa çatdı.

Sonra simpozium "Dil və ədəbiyyat" və "Tarix, din və mədəniyyət" bölmələrində işini davam etdirdi.

*(ardı səh.10-da)*














Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının rəhbərliyi ilə neçə aydan bəri Xəzər Universitetinin 20 illiyi münasibətilə hazırlanan layihə mayın 28-də gerçəkləşdi: böyük bəstəkar Fikrət Əmirovun "Sevil" operası universitet tələbələrinin ifasında universitetin "Dünya" konsert salonunda ilk dəfə tamaşaçılara təqdim olundu. Tamaşaçılar isə Xəzər Universitetinin təşkilatçılığı ilə keçirilmiş "Azərbaycan dünya ədəbiyyatında" mövzusunda beynəlxalq simpoziumun iştirakçıları olan Azərbaycan və 14 xarici ölkənin tanınmış alim və tədqiqatçıları, həmçinin digər qonaqlar və Xəzər Universitetinin əməkdaşları idi.

Tamaşanın bədii rəhbəri və konsertmeysteri Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqova, quruluşçu rejissoru Elman Rəfiyev, quruluşçu rəssamı Mir Rafiq Əbdürrəhimov, kompüter tərtibatçısı Yəmən Haşımova, vokal müəllimi Fərid Əliyev, xormeycteri Mehriban Ramazanova və məsləhətçisi Azərbaycan Respublikasının əməkdar artisti professor Hüseyn Əliyevdir.

Rolları ifa edirdilər: Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin məzunu Bahar Fərzullayeva – Sevil; Humanitar və sosial elmlər fakültəsinin 4-cü kurs tələbəsi Elvin Əliyev – Balaş; Xəzər Universitetinin müəllimi Çinarə Şirinova – Dilbər; İqtisadiyyat və menecment fakültəsinin 1-ci kurs tələbəsi Anna Məlikova – Gülüş; Təhsil fakültəsinin 1-ci kurs tələbəsi Elçin Feyzullayev – Atakişi, Humanitar və sosial elmlər fakültəsinin 3-cü kurs tələbəsi Mürsəl Zamanov – Babakişi; həmin fakültənin 4-cü kurs tələbəsi Nicat İlyasov – Əbdüləlibəy; Hüquq fakültəsinin 4-cü kurs tələbəsi Vüqar Arzumanlı – Məmmədəlibəy; Humanitar və sosial elmlər fakültəsinin 3-cü kurs tələbəsi Pinar Ələkbərova – Tafta; Murad Məlikov – Gündüz; Xəzər Universitetinin tələbələrindən ibarət vokal qrupu – Xalq.

"Sevil" operasının Xəzər Universitetində tamaşaya hazırlanmasında böyük əmək sərf etmiş müəllim və tələbələrimizə yeni-yeni uğurlar arzulayırıq.











# "XƏZƏR": VIII OLİMPİADA









İyunun 1-də Xəzər Universitetinin "Dünya" konsert salonunda universitetin ənənəvi olaraq keçirdiyi, bu il sayca VIII olan Olimpiadanın nəticələrinə həsr edilmiş mərasim keçirildi. Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə rəsmi hissə başlandı. Mərasimin aparıcısı salona toplaşanları salamlayaraq, Olimpiadanın yekunları haqqında məruzə etmək üçün sözü Təşkilat Komitəsinin sədri, İctimai Əlaqələr və Media üzrə Direktor Əlövsət Əmirbəyliyə verdi. Ə. Əmirbəyli VIII Respublika Olimpadası haqqında geniş məlumat verərək, Bakıdan və Azərbaycanın digər bölgələrindən gələn qalibləri təbrik etdi.

(ardı səh.12-də)








XƏZƏR UNİVERSİTETİ
VIII
RESPUBLİKA
OLİMPİADASI
TƏQDİMAT MƏRASİMİ
Bakı 2011











# "TÜRK DÜNYASI ARXEOLOGİYASI"

MİRAS



"Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi (İB) və Xəzər Universitetinin təşkilatçılığı ilə mayın 19-da universitetdə "Türk dünyası arxeologiyası" mövzusunda elmi-praktik konfrans keçirilmişdir. "Miras" İB-nin sədr müavini Arzu Soltan Birliyin fəaliyyəti və Ağsu şəhərində aparılan arxeoloji tədqiqatlar barədə danışmışdır.

Konfransda AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı, professor Qafar Cəbiyevin "Azərbaycanda arxeoloji tədqiqatların ən yeni nəticələri", AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin şöbə müdiri, tarix elmləri namizədi Fariz Xəlillinin "Ağsuda arxeoloji tədqiqatlar XVIII əsr türk tarixinin öyrənilməsində yeni mərhələdir", Kazan Federal Universiteti Arxeologiya Muzeyinin əməkdaşı Alsu Nuratdinovanın "Tatarların arxeoloji irsi" mövzusunda məruzələri dinlənilmiş, müzakirələr aparılmışdır.

Tədbirdə Ağsu arxeoloji təqqiqatları haqqında film nümayiş etdirilmişdir.



# FİBS DİREKTORU İLƏ GÖRÜŞ

Mayın 24-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Almaniyadakı Təhsil və Sosial-İqtisadi Tədqiqatlar İnstitutunun (FIBS) direktoru Dr. Dohmeni qəbul etmişdir. Dr. Dohmen Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən ali təhsilin maliyyələşdirilməsi üzrə ekspert kimi Azərbaycana dəvət olunmuşdur. Görüşdə ali təhsilin maliyyələşdirilməsinin müxtəlif modelləri müzakirə edilmişdir.

# "ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN MƏŞĞƏLƏLƏRİ



Mayın 24-də və 26-da Xəzər Universitetinin ənənəvi "Elm və Sənət Məclisi"nin 47-ci və 48-ci məşğələləri keçirildi. Məşğələləri giriş sözü ilə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, Rusiya Elmlər Akademiyasından dəvət olunmuş professor Salavat İsxakovu məclis iştirakçılarına təqdim etdi. Salavat İsxakov mayın 24-də "Rusiya imperiyasının süqutu və müsəlmanlar (1905-1917-ci illər)", mayın 26-da isə "Azərbaycan mühacirəti: yeni sənədlər və materiallar (1920-1939-cu illər)" mövzularında məruzələrlə çıxış etdi.

ardı səh.10-da

# İÇİNDƏKİLƏR


| | |
|---|---|
| Universitet xəbərləri | 3 |
| *S.Babayeva.* "Böyük iradə sahibi olmalısan ki, xırda və böyük maneələr səni yolundan çəkindirə bilməsin" | 20 |
| *Camal Mustafayev.* Ruhun özünüdərketmək qayəsi | 22 |
| *Ellen Barry.* 'Frozen conflict' between Azerbaijan and Armenia begins to boil | 24 |
| *Hamlet İsaxanlı.* Keçmişin fəlsəfəsi və ya tarix necə yazılır? | 26 |
| Mədəniyyət | 32 |
| "Дунья" единственная в Азербаджане школа, имеющая статус IB" | 34 |
| *Xəlil Məcidoğlu.* Həyat lövhələri | 40 |
| *Anar Gəraylı.* Qaçaq İsaxanın alim nəvəsi | 46 |
| *Xəyalə Muradlı.* "Sevgi hər şeyi üstələdi..." | 52 |
| *Babək Cahandarov.* Ünsiyyət, yoxsa tələ? | 54 |
| *Xaqan Balayev.* Cənublu şair və yazıçıların Azərbaycan ədəbi mühitinə inteqrasiyası | 56 |
| William Lee Adams. Forget fame! Eurovision crowns no names from Azerbaijan | 62 |
| *Лейла Джамильзаде.* Поэты воспевают такую любовь... | 64 |
| Təbabət | 66 |
| Mozaika | 68 |
| İdman | 70 |
| "Dünya" məktəbi | 74 |



Xəzər Xəbər

1995-ci ilin
yanvarından çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV

Rəssam:
Mir Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Yəmən HAŞIMOVA

Foto:
MEDİA MƏRKƏZİ

*Ünvanımız:*
*Bakı, Məhsəti küçəsi 11,*
*("Neftçilər" metrosunun yanı)*
*Faks: 498-93-79*
*Telefon: 421-79-16*
*421-10-93*
*E-mail: xazarxabar@khazar.org*
*Şəhadətnamə: 376*
*İndeks: 67178*
*Sifariş: 190*
*Tiraj: 3000*

## BEYNƏLXALQ SİMPOZİUM: "AZƏRBAYCAN DÜNYA ƏDƏBİYYATINDA"

*(əvvəli səh.3-də)*

Mayın 28-də də keçirilmiş bölmə iclaslarından sonra günün sonunda simpoziumun bağlanış mərasimi oldu. Universitetin Mərmər salonunda keçirilən tədbirdə Azərbaycan və xarici ölkələrin tanınmış alim və tədqiqatçıları, qonaqlar və universitet əməkdaşları iştirak edirdilər.

Mərasimi Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, iki gün ərzində keçirilən simpoziumun ilkin nəticələrindən və əhəmiyyətindən danışdı, layihənin davamı olaraq Azərbaycanla əlaqədar dünya elm və mədəniyyətində mövcud materialların daha geniş miqyasda öyrənilməsi və toplanmasını təmin edə biləcək digər beynəlxalq tədbirlərin keçirilməsi lüzumunu qeyd etdi.

AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi Solmaz Rüstəmova - Tohidi, Ege Universitetinin (Türkiyə) Türk ləhcələri bölümünün müdiri Yavuz Akpınar və Aydın Universitetinin (Türkiyə) professoru Kamil Vəli Nərimanoğlu bölmələrdə oxunmuş məruzələr və keçirilmiş müzakirələrin nəticələri haqqında məlumat verdilər, simpoziumla əlaqədar müsbət mülahizələrini və təkliflərini bildirdilər.

Mərasimdə Xəzər Universitetinin rektoru Con Rayder çıxış edərək, simpoziumun və ümumiyyətlə belə beynəlxalq elmi tədbirlərin böyük əhəmiyyətindən danışdı. Universitetin Təhsil fakültəsinin dekanı Elza Səmədova çıxışında simpoziumun keçirilməsinə maddi və mənəvi yardım göstərmiş bütün insanlara minnətdarlıq bildirdi.

İştirakçılara sertifikatlar verilməsi ilə simpozium başa çatdı. Sertifikatları Hamlet İsaxanlı, Solmaz Rüstəmova - Tohidi, Con Rayder, Yavuz Akpınar və Balıkesir Universitetinin (Türkiyə) dosenti Sebahattin Şimşir təqdim etdilər.

Həmin gün axşam Xəzər Universitetinin "Dünya" konsert salonunda simpozium iştirakçıları universitet tələbələrinin ifasında Fikrət Əmirovun "Sevil" operasının premyerasına baxdılar.

## "ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN MƏŞĞƏLƏLƏRİ

*(əvvəli səh.8-də)*

Müzakirələrdə İradə Bağırova (AMEA-nın Tarix İnstitutu), Esmiralda Həsənova (AMEA-nın Şərqşünaslıq İnstitutu), Şirməmməd Hüseynov (BDU-nun professoru),Tələt Nəcəfəliyev (AMEA-nın Tarix İnstitutu), Güllü Yoloğlu (AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu), Nigar Əsgərova (AMEA-nın Fəlsəfə İnstitutu), Hamlet İsaxanlı, Fərda Əsədov (AMEA-nın Şərqşünaslıq İnstitutu), Solmaz Rüstəmova - Tohidi (AMEA-nın Şərqşünaslıq İnstitutu), Nəsiman Yaqublu (BDU-nun professoru), Ramiz Abutalıbov, Süleyman Əliyarlı (BDU-nun professoru), Bəhlul İbrahimli (AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu), Məryəm Seyidəliyeva ( AMEA-nın Tarix İnstitutu), Eldar İsmayılov (BDU-nun professoru) iştirak etdilər. Sonda Hamlet İsaxanlı rusiyalı alimə təşəkkürünü bildirdi. Xatirə şəkilləri çəkildi.

Khazar VIEW

It has been publishing since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nuraddin RZAYEV
Jamil HASANLI
Nizami JAFAROV
Afgan ABDULLAYEV

Design by:
Mir Rafig ABDULRAHIMOV

Computer graphics:
Yemen HASHIMOVA

Photo:
MEDIA CENTRE

*Address:*
*11 Mahsati str., Baku,*
*(near the "Neftchilar" metro)*
*Fax: 498-93-79*
*Phone: 421-79-16*
*421-10-93*
*E-mail: xazarxabar@khazar.org*

*Certificate: 376*
*Index: 67178*
*Order: 190*
*Copies: 3000*

# XƏZƏR UNİVERSİTETİNİN TƏSİSÇİSİ, DİREKTORLAR VƏ QƏYYUMLAR ŞURASININ SƏDRİ PROFESSOR HAMLET İSAXANLININ BEYNƏLXALQ SİMPOZİUMUN AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞI

Xanımlar və bəylər, hörmətli qonaqlar, əziz dostlar!

1918-20-ci illərdə mövcud olan, fəaliyyət göstərən Azərbaycan Demokratik Respublikasının ad gününə və Xəzər Universitetinin 20 illiyinə həsr olunmuş "Azərbaycan dünya ədəbiyyatında" adlı konfransa xoş gəlmisiniz!

Xəzər Universitetinə - Bakıya və Azərbaycana xoş gəlmisiniz!

Azərbaycan, Azərbaycan xalqı, Azərbaycan mədəniyyəti deyəndə, bu barədə hər kəsdə təsəvvür olsa da, bəzən terminlərin dəqiqləşdirilməsinə müəyyən ehtiyac yaranır, çünki bəzən bəzi sözlərin, kəlmələrin ikimənalı, ikitərəfli oxunuşu ola bilir.

Azərbaycan adı tarixən, əsasən, bugünkü İranın şimal-qərbində yerləşən ərazilərə deyilib. Amma 19-cu əsrin əvvəllərində Rusiya - İran savaşlarının nəticəsində Qafqazda yaşayan türklər, onların yaşadıqları Qafqaz Azərbaycan xanlıqları Rusiyanın idarəsi altına keçdi, digər Azərbaycan türkləri İran idarəsində qaldı. Və o zamandan sonra Azərbaycan kəlməsi həm də get-gedə, yavaş-yavaş bu gün yaşadığımız Azərbaycan Respublikasının ərazisinə, xalqına aid edildi, adına daxil oldu. Hər iki tərəf eyni xalq olduğu üçün, eyni dildə danışdığı üçün, eyni mədəniyyətin məhsulu olduğu üçün Azərbaycan kəlməsi bu mənada bir az daha böyüdü, ərazi mənada daha da böyüdü. 1918-ci ildə isə, Birinci Dünya müharibəsinin sonu və Rusiyada olan inqilab nəticəsində, yeni Demokratik Cümhuriyyət əmələ gələndə, onun adı rəsmi olaraq Azərbaycan Demokratik Cümhuriyyəti oldu. Yəni rəsmi olaraq Azərbaycan sözü bu dəfə 20-ci əsrdə, müasir dünyada artıq dövlət adı kimi, siyasi termin kimi tarixə daxil oldu. Bu, ərazi baxımından izahatdır.

Xalq baxımından, hər yerdə olduğu kimi, Azərbaycan xalqı deyəndə iki yanaşma mövcuddur. Birində Azərbaycan adlanan dövlətin vətəndaşları olan azərbaycanlılar nəzərdə tutulur, yəni burada türkcə, kürdcə, ləzgi, talış, rus, gürcü, erməni dillərində, yaxud hər hansı bir digər dildə danışmasından asılı olmayaraq, Azərbaycan vətəndaşı olan hər kəsi azərbaycanlı adlandırmaq olar. Yəni vətəndaşlıq prinsipi əsas götürülür, bu halda heç bir etnik sərhəd yoxdur, amma ərazi sərhədi var, vahid ərazi (Azərbaycan Respublikası) içində formalaşan vətəndaşlıq prinsipinə söykənilir.

Azərbaycan xalqı deyəndə digər bir yanaşma da mövcuddur ki, bu zaman harada – Azərbaycan Respublikasında, İranda, Gürcüstanda, Rusiyada, Türkiyədə, İraqda və yaxud dünyanın hər hansı bir digər yerində yaşamasından asılı olmayaraq Azərbaycan türkcəsində danışan insanlar nəzərdə tutulur. Bu halda artıq etnik bir sərhəd var, amma coğrafi sərhəd yoxdur. Və bu ikinci yanaşma halında Azərbaycan xalqının tarixi, ədəbiyyatı, mədəniyyəti deyəndə artıq biz, məsələn, Sivas tərəflərdə hökmranlıq etmiş Qazi Bürhanəddini Azərbaycan tarixinin, Azərbaycan mədəniyyətinin, ədəbiyyatının obyekti kimi öyrənməli oluruq, yaxud Ağqoyunlu, Qaraqoyunlu dövlətləri, Uzun Həsən və Bağdadda yaşayan, orda dünyasını dəyişən Füzuli, Hələb tərəflərdə fəaliyyət göstərən Nəsimi, İran vətəndaşları olmuş Səttarxan, Seyid Məhəmməd Xiyabani, Məhəmməd Şəhriyar artıq bizim üçün Azərbaycan xalqının, Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, tarixinin ünsürü olurlar.



Bu konfransımızın mənası nədir? Nə istəmişik "Azərbaycan dünya ədəbiyyatında" deyəndə? Təbii ki, hər bir xalq özünü öyrənir; biz də Azərbaycan xalqı olaraq öz tariximizi, mədəniyyətimizi, ədəbiyyatımızı, milli-mənəvi, maddi dəyərlərimizi öyrənirik. Amma bütün dünya bizi necə görür? Bu bizim üçün həddindən artıq vacibdir, çünki özümüzün özümüzə baxmağımız işin yalnız bir tərəfidir. Dünya bizi necə görür, dünya bizi necə tanıyır və biz bir tədqiqat obyekti olmuşuqmu? Xalqımız, mədəniyyətimiz necə öyrənilir? Bu bizi həddindən artıq çox maraqlandırır. Bu mənada bizim konfransımızı bir pioner tədbir hesab etmək lazımdır, çünki, düşünürəm ki, bu problem o qədər fundamental və böyük bir problemdir ki, bunu bir görüş, bir konfrans vasitəsilə həll etmək və böyük nəticələrə gəlmək mümkün deyil. Amma, ümid edirəm ki, bu konfrans bu işin yaxşı bir başlanğıcını qoyacaq və bəlkə biz bir zaman "Azərbaycan dünya xalqlarının gözü ilə" deyə böyük əsərlər, çoxcildli kitablar meydana gətirə biləcəyik. Əslində bizim məqsədimiz də, mən deyim ki, orta və uzaq məqsədimiz də bu olubdur.

Siz bu gün Xəzər Universitetinin qonağısınız, Xəzər Universitetinin konfrans mərkəzindəsiniz. Biz hazırda şəhərin 3 yerində məskunlaşmışıq, dördüncü böyük tədris, idman, yataqxana kompleksimizin də

bu yaxınlarda inşasına başlanacaq.

Xəzər Universiteti haqqında nə deyə bilərəm? Təxminən sovetlərin son dönəmində, 1990-cı ildə biz bu universitetin qurulması üçün müəyyən çalışmalara başladıq və 1991-ci ildə mart ayının 18-də Xəzər Universiteti rəsmi olaraq quruldu. Bu 2011-ci il ərzində biz universitetimizin 20 illiyinə həsr olunmuş bir-birindən fərqli tədbirlər keçirmişik. Onlardan çox mühüm olan biri də bu gün sizinlə başladığımız bu konfransdır. Sadəcə onu deyə bilərəm ki, Xəzər Universiteti olaraq bu illər ərzində biz tək Azərbaycanda deyil, bütün geniş regionda seçilən bir elm-tədqiqat mərkəzi, təhsil mərkəzi, mədəniyyət mərkəzi qurmağı bacardıq.

Bir daha sizi salamlayır, konfransımıza uğurlu iş arzulayıram!

## "XƏZƏR"DƏ KARYERA VƏ TƏHSİL SƏRGİSİ

Mayın 20-də Xəzər Universiteti Peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə universitetdə 11 şirkətin təmsil olunduğu Karyera və Təhsil Sərgisi keçirildi. Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Bank of Baku, GRBS, Azərbaycan Bank Tədris Mərkəzi, TEFL, SMART və digər şirkətlərin nümayəndələri sərgidə iştirak edən Xəzər Universiteti və digər universitetlərin tələbələrinə müxtəlif vakansiyalar və xaricdə təhsil imkanları haqqında ətraflı məlumat verdilər və Xəzər Universiteti ilə bir sıra digər layihələrdə də əməkdaşlığın zəruriliyini qeyd etdilər.

## MERSİN UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI "XƏZƏR"DƏ

Mayın 25-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Türkiyənin Mersin Universitetinin əməkdaşlarını – professor Caner Özdemir, Abdi Kurt, Tufan Uğur Kurçer və Nazim Tanrıkulu qəbul etdi. İki universitet arasında yeni bir layihə – Xəzər Universitetinin Texnoparkının yaradılması layihəsi müzakirə olundu. Türkiyəli qonaqlar texnoparkın layihəsini təqdim edərək öz təcrübələrini bölüşdülər, onun yaradılması, maliyyə dəstəyi, dövlətin rolu və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## QEYRİ-TƏHLÜKƏSİZLİK QURUMLARINDA FƏRDLƏR ÜÇÜN TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİ ÜZRƏ SEMİNAR

Mayın 26-27-də Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi və Azərbaycan Futuroloqlar Cəmiyyətinin birgə dəvəti ilə Bakıya gəlmiş kanadalı mütəxəssis professor David Harrisin rəhbərliyi ilə Xəzər Universitetində "Qeyri-təhlükəsizlik qurumlarında fərdlər üçün təhlükəsizlik tədbirləri" mövzusunda seminar keçirilmişdir. Seminarda Xəzər Universitetinin tələbələri ilə yanaşı, Bakı Dövlət Universiteti, Slavyan Universiteti, Dövlət İqtisad Universiteti və Qafqaz Universitetinin tələbələri də iştirak etmişlər. Xəzər Universiteti Siyasət İnstitutunun direktoru Baba Bayramlı seminarı giriş sözü ilə açaraq, iştirakçıları salamlamış və onlara seminarın işində uğurlar arzulamışdır. İki gün ərzində seminarda iştirak edən tələbələr təhlükəsizliklə bağlı müxtəlif nəzəri və praktik biliklərə yiyələnmişlər.

## "XƏZƏR": VIII OLİMPİADA

*(əvvəli səh.6-da)*

Ə.Əmirbəyli qaliblərə ürək sözlərini demək üçün Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlını, universitetin rektoru professor Con Rayderi, Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səfirliyinin təhsil üzrə müşaviri Halis Koyuncuoğlunu, dini işlər üzrə müşaviri Sadiq Erarslanı, Şəki Şəhər Təhsil Şöbəsinin müdiri Südabə İsmayılovanı, Sumqayıt Şəhər Təhsil Şöbəsi metodkabinetinin müdiri Sabir Məmmədovu, Mingəçevir Şəhər Təhsil Şöbəsi metodkabinetinin müdiri Solmaz Cəfərovanı, Zəkalar Liseyinin müdiri Aygün Əhmədlini səhnəyə dəvət etdi. Çıxış edənlər Xəzər Universitetinin bu istiqamətdə gördüyü işləri yüksək qiymətləndirdilər və bu cür ənənələrin dövlət universitetləri tərəfindən də davam etdirilməsini arzuladılar.

Sonra Xəzər Universitetinin rəhbərliyi, Türkiyənin Azərbaycandakı səfirliyinin nümayəndələri, təhsil şöbələrinin işçiləri Olimpiadada birinci, ikinci və üçüncü yerləri tutanlara diplom və hədiyyələr təqdim etdilər.

Sonda Hamlet İsaxanlı və Con Rayder orta məktəblərin XI sinif şagirdləri arasında keçirilən VIII Respublika Olimpiadasında yüksək nəticələr əldə edən məktəblərin direktorlarına diplom təqdim etdilər. Xatirə şəkilləri çəkildi.

Mərasim Xəzər Universiteti tələbələrinin ifasında konsert proqramı ilə başa çatdı.

# "AZERBAIJAN IN WORLD LITERATURE" INTERNATIONAL SYMPOSIUM DR. JOHN RYDER'S SPEECH

Good morning. My name is John Ryder, and I have the pleasure of serving as rector of Khazar University. On behalf of all of us at the university-our research people, our professors, and our administrative staff- I want to add my welcome to Hamlet muallim's to our university and to this conference.

There are several reasons why this is, in my opinion, a particularly important meeting, and one that Khazar University is very much pleased to host. One of them is personal, if I may say. My better half, as we say in English, is herself a philologist; she's a specialist in literary theory and in literary criticism, and I am a philosopher, so even on a day-to-day personal family level, the humanities-human studies-and literary studies are very much a part of my life, so I feel as if I'm among colleagues and friends here, even though I'm meeting most of you for the first time.

With respect to the university, there are several reasons why this is for us an important event to hold and that we're especially pleased to have you here. One of them is of course that Khazar University is itself, shall we say, a literary home, or a home for literature and literary studies, beginning of course with our founder and chairman of our board Hamlet muallim, who as you know is a prominent poet here in Azerbaijan. But there are a number of our staff, our colleagues who are specialists in literature and literary criticism and Azerbaijani literature and world literature, so this is very much a proper theme, a proper discipline for us to host an international conference.



Another important reason that this conference is appropriate for us is that Khazar University has had as its mission since its founding 20 years ago and continues to have as its mission to be a place in Baku, in Azerbaijan, where Azerbaijani culture and learning and world cultures and learning converge, meet, interact with one another. So we very much want and work toward making ourselves a hospitable home for scholars, for specialists, for researchers, for those involved in academic innovation in all fields, to be comfortable, to know that you have a place here where you are welcomed and we value what you do.

So for all of those reasons, we are particularly pleased to welcome you here, and on behalf of all the university staff, I wish you a most successful conference. I myself will probably not be able to be a part of too much of it but I will at the very least see you again tomorrow evening. So welcome again to Khazar University, to Baku, to Azerbaijan, and I wish you the best.

# "TOMSON REYTERS"İN (THOMSON REUTERS) NÜMAYƏNDƏLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Mayın 31-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı elm və tədqiqat innovasiyası sahəsində aparıcı korporasiyalardan biri olan "Tomson Reyters"in (Böyük Britaniya) oz iş təcrübələrini bölüşmək və müvafiq müzakirələr aparmaq üçün Bakıya gəlmiş nümayəndələrini – Mərkəzi və Şərqi Avropa üzrə ölkə direktoru David Horkini (David Horky), satış üzrə regional ölkə direktoru Şahruz Şarifrazini (Shahrooz Sharifrazy) və "Mikro Bilgi A.S." şirkətinin satış üzrə direktoru Metin Tuncu qəbul etdi. Universitetin Kitabxana İnformasiya Mərkəzinin direktoru T. Zaytseva və direktor müavini Lyudmila Sotovanın da iştirak etdikləri görüşdəAzərbaycanda tədqiqat mühiti və artmaqda olan tədqiqat potensialı, ölkəmizdə tədqiqat imkanlarının yaxşılaşdırılması sahəsində hökumətin rolu, maliyyələşdirmə və əməkdaşlıq kumi məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

H. İsaxanlı qeyd etdi ki, yardımın mühüm hissəsinin inkişaf etmiş ölkələrdə müəyyən olunmuş nəşr olunma meyarlarından düzgün istifadə proqramlarına yönəltməyi nəzərdə tutan tərəfdaşlıq yardımını təsis etməklə əsas məqsədə çatmaq mümkündür. Bu cür tərəfdaşlıq sayəsində tədqiqat siyasəti, investisiya və real nəticələr baxımından regiondakı inkişafı əks etdirən nəşr və istinad göstəricilərindən istifadə etməklə Azərbaycanda elm və texnologiyanı təkmilləşdirmək olar.

İyunun 1-də qonaqlar və Xəzər Universitetinin nümayəndələri öz görüşlərini Bakı Dövlət Universitetində davam etdirmişlər.

# "DÜNYA" MƏKTƏBİ ÜÇÜN YENİ TƏHSİL VƏ XİDMƏT KOMPLEKSİ TİKİLƏCƏK

Azərbaycanın nüfuzlu təhsil qurumlarından biri olan Xəzər Universiteti nəzdində təsis edilmiş "Dünya" məktəbi növbəti iri layihəsinin icrasına başlayır. Bu, yeni və müasir standartlara cavab verən məktəb kompleksinin tikintisi layihəsidir.

Məktəb üçün yeni təhsil və xidmət kompleksinin tikintisinə başlamaq üçün müvafiq dövlət qurumlarından artıq icazə alınıb və işlərə 2011-ci ilin ikinci yarısında başlanacaq.

Tikiləcək kompleks həm məktəbəqədər təhsil pilləsi üzrə uşaqların hazırlığı, həm də "Dünya" məktəbinin şagirdləri üçün nəzərdə tutulub. Kompleksə tədris binası ilə yanaşı, həmçinin köməkçi tikililər (idman zalı, yeməkxana, kitabxana və s.) də aid olacaq.

**Külli miqdarda investisiya tələb edən bu tikinti işlərində istənilən xeyriyyəçi və yaxud gələcəyimiz olan uşaqların keyfiyyətli təhsil almasına biganə qalmayan vətəndaşların da töhfəsi rəğbətlə qarşılanır.**

Yeni kompleksin istifadəyə verilməsi ilə gələcəkdə "Dünya" məktəbi şagird qəbulu planını nəzərə çarpacaq dərəcədə artıracaq.

Hazırda məktəbdə təxminən 300 şagird təhsil alır.

Xatırladaq ki, Xəzər Universiteti nəzdində fəaliyyət göstərən "Dünya" məktəbi artıq 2011-2012-ci tədris ili üçün şagird qəbulu elan edib. Azərbaycan dili bölməsi üçün şagird qəbulu 1-11-ci siniflər üzrə, rus dili bölməsi üzrə isə 1-2-ci siniflər üçün aparılır.

Universitet nəzdində fəaliyyət göstərən "Dünya" məktəbi Təhsil Nazirliyinin akkreditasiyası ilə fəaliyyət göstərən ümumtəhsil məktəbidir. Fəaliyyət göstərdiyi 12 il ərzində məktəb təhsilin təkmilləşdirilməsi istiqamətində ən müasir təlim metodları və texnologiyalarının tətbiqinə əsaslanaraq, qabaqcıl təhsil təcrübəsinə inteqrasiya edilməsinə xüsusi diqqət yetirir.

Məktəbdə təhsil azərbaycan və ingilis bölmələri üzrə aparılır.

Xarici dövlətlərin təhsil sisteminə inteqrasiyanın vacibliyini nəzərə alaraq, məktəbdə ən çox tədris edilən fənlərdən biri də ingilis dilidir. Şagirdlərin ingilis dilində şifahi nitqinin inkişaf etdirilməsinə xüsusi fikir verilir.

"Dünya" məktəbində ingilis, rus dillərindən başqa, şagirdlərin seçimi ilə italyan və ərəb dilləri də tədris olunur. Təlim və tərbiyənin müxtəlif pillələrinə uyğun olaraq "Dünya" məktəbi dörd istiqamət üzrə fəaliyyət göstərir:

- *məktəbəqədər (3-5 yaş);*
- *ibtidai (1-5-ci siniflər);*
- *əsas və ya natamam orta (6-9-cu siniflər);*
- *tam orta (10-11-ci siniflər).*

Bundan əlavə, 2010-2011-ci tədris ilindən "Dünya" məktəbində İB Diplom Proqramı fəaliyyət göstərir. Təlim ingilis dilindədir. Bu məktəbi bitirənlər beynəlxalq İB diplomu və eyni zamanda Azərbaycan tam orta təhsil attestatı alır. İB diplomu dünyanın hər bir ölkəsində tanınır və bu diplom sahibləri təhsillərini xarici dövlətlərin ali məktəblərində davam etdirə bilərlər. Belə ki, bu təhsil qurumlarına qəbul İB diplomu almış şagirdlər üçün imtahansız və yaxud yalnız müsahibə yolu ilə həyata keçirilir.

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ MƏZUN GÜNÜ

«Duzdağ» otelində təşkil edilən tədbirdə rektor, akademik İsa Həbibbəyli Azərbaycan xalqının gələcək inkişafı, milli -mənəvi tərəqqisi üçün elmin, təhsilin müstəsna rolundan, Naxçıvan Dövlət Universitetinin Azərbaycan ali təhsil sistemində öncül yerlərdən birini tutmasından, dünya təhsil sisteminə uğurla inteqrasiyasından, regionla bərabər həm də ölkəmizi yüksək ixtisaslı mütəxəssis kadrlarla təmin etməsindən danışmışdır.

Qeyd olunmuşdur ki, 1967-ci ildə 3 nəfər müəllim, 105 tələbə ilə fəaliyyətə başlayan, 40 il öncə, 1971-ci ildə ilk buraxılışı 80 nəfər olan universitet ötən illər ərzində böyük inkişaf yolu keçmiş, maddi-texniki baza, beynəlxalq əlaqələrin inkişafı, elmin, tədrisin tərəqqisi istiqamətində böyük nailiyyətlər əldə edilmişdir.

Türkiyə Respublikasının Naxçıvandakı baş konsulu Ayhan Enginar çıxış edərək məzunları təbrik etmiş, Naxçıvan Dövlət Universiteti ilə Türkiyə universitetlərinin əlaqələrini, azərbaycanlı və türk tələbələrin birgə hazırladıqları kütləvi tədbirləri iki qardaş xalqın həmrəyliyinin, mütəşəkkilliyinin bariz nümunəsi kimi qiymətləndirmişdir.

## SİFE KOMANDASININ NÖVBƏTİ QƏLƏBƏSİ




Naxçıvan Dövlət Universitetinin 2008-ci ildə yaradılmış SİFE (Students İn Free Enterrise - Tələbələr Azad Sahibkarlıq Fəaliyyətində) komandası fəaliyyətinin ilk ilindən başlayaraq innovasiyalı təhsil proqramlarının inkişafı, azad sahibkarlıq fəaliyyətinin öyrədilməsi, sosial məqsədlərin reallaşdırılması istiqamətində bir sıra uğurlar əldə etmişdir.

Belə ki, 2009-cu ildə ölkənin ən nüfuzlu ali məktəblərinin qatıldığı milli çempionatda tələbələrimiz uğurla çıxış edərək, III yerə layiq görülmüş və ölkəmizi Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri arasında keçirilən yarışmada təmsil etmək hüququ qazanmışdır. 2010-cu ildə isə SİFE üzrə V resrublika çempionatının qalibi olmuşdur. Komanda çempion kimi həmin il Amerika Birləşmiş Ştatlarının Los-Anceles şəhərində keçirilən dünya çempionatında iştirak etmiş, nəinki ölkəmizi, Cənubi Qafqazı müvəffəqiyyətlə təmsil etmişdir. 40 ölkənin ən güclü universitetlərinin tələbə komandalarının iştirak etdiyi çempionatın qrur mərhələsində Fransa, Rusiya, Braziliya, Tailand kimi güclü rəqiblərlə mübarizə aparan komanda IV yerə layiq görülmüşdür.

Bu yaxınlarda isə komanda SİFE üzrə VI Azərbaycan milli yarışmasında qalib olmuşdur. Ölkənin tanınmış universitetlərinin 14 güclü komandası 2 liqada mübarizə aparmış, biznes, təhsil, ekologiya və sosial sahələri əhatə edən 50-dən artıq layihə icra olunmuşdur. Hər liqadan 2 komanda finala çıxdıqdan sonra Azərbaycan İqtisad Universiteti, Azərbaycan Neft Akademiyası, Azərbaycan Tibb Universiteti və Naxçıvan Dövlət Universiteti komandaları arasında çempionluq uğrunda gərgin mübarizə getmiş, Naxçıvan Dövlət Universitetinin SİFE komandası qalib gəlmişdir.

Komanda çempion kimi bu ilin oktyabrında Malaziyanın paytaxtı Kuala-Lumpur şəhərində keçiriləcək dünya çempionatında ölkəmizi təmsil edəcək.

**Mehriban Sultan,**
*NDU-nun Mətbuat şöbəsinin müdiri*

Education and Culture

# Erasmus Mundus

## "ERASMUS MUNDUS ACTİON 2" PROQRAMI NÜMAYƏNDƏLƏRİNİN NÖVBƏTİ GÖRÜŞÜ

Mayın 27-də Bolqarıstanın Ruse Universitetində "Erasmus Mundus Action 2" Proqramı nümayəndələrinin növbəti görüşü keçirildi. Görüşdə Bolqarıstan, Cənubi Qafqaz, İngiltərə, Latviya, İtaliya, Belçika və Portuqaliya universitetlərinin əməkdaşları iştirak edirdilər. Xəzər Universitetinin Erasmus Mundus Layihəsi üzrə koordinatoru Aytən Şadlinskaya da bu görüşdə iştirak etmiş və "Center for Excellence for Erasmus Mundus Program" mövzusunda təqdimatla çıxış etmişdir. Təqdimatda adı çəkilən mərkəzin yaradılması imkanları, Erasmus Mundusun cari layihəsinin çatışmazlıqlarının aradan qaldırılması məsələləri, növbəti layihə üçün bir sıra tövsiyələr əks olunmuşdur. Center for Excellence üzrə araşdırmaların aparılması Erasmus Mundusun baş koordinatoru Tania Kapiki tərəfindən A. Şadlinskayaya həvalə edildi. İştirakçılara İspaniyadan Deusto Universitetinin də layihəyə qoşulduğu haqqında məlumat verildi.

Layihənin baş koordinatoru təklif edilən növbəti Transcaucasia layihəsinin yeniliklərindən bəhs etdi və onlar digər koordinatorlarla müzakirə olundu. A. Şadlinskaya layihənin həyata keçirilməsi ilə əlaqədar yaradılmış komitələrdən birinə - Keyfiyyətə Təminat Komitəsinə üzv seçildi. Rəhbər Komitənin (Steering Committee) də yaradılacağı bildirildi.

Yeni menecment aləti İntranetin tətbiq ediləcəyi və üç mərhələdən ibarət olan layihədə aşağıdakıların həyata keçirilməsi nəzərdə tutulur:

- Cənubi Qafqazdan 4 PhD tələbəyə 36 ay müddətinə tam PhD təhsili və diplom almaq imkanının verilməsi;
- Avropadan 4 PhD tələbəyə 10 ay müddətinə Cənubi Qafqaz ölkələrində təhsil almaq imkanının verilməsi və buna görə təhsil alacaqları universitetə 3000 Avro məbləğində təhsil haqqının köçürülməsi;
- Cənubi Qafqazdan 24 bakalavr tələbəyə Avropada 5 aylıq təhsil imkanının verilməsi;
- Cənubi Qafqazdan 12 magistr tələbəyə Avropada 10 aylıq təhsil imkanının verilməsi;
- II Hədəf qrupu (Azərbaycanın hər hansı bir universitetindən müraciət edən namizədlər) üzrə namizədlərin seçilməsinin Rəhbər Komitənin (Steering Committee) müvafiq üzvünə həvalə olunması.

Layihə Avropa Komissiyasının müvafiq qurumu tərəfindən qəbul ediləndən sonra icrasına başlanacaq.

İclasın sonunda layihə koordinatorlarının növbəti görüşünün sentyabr ayında Romada keçirilməsi qərara alındı.

## "XƏZƏR"LİLƏR "TƏLƏBƏ BAHARI" ADLI YARADICILIQ FESTİVALININ QALİBLƏRİ SIRASINDA

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə mayın 31-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında MDB-yə üzv dövlətlərin tələbələrinin "Tələbə baharı" adlı yaradıcılıq festivalının yekun Qala konserti keçirildi. Konsertdə festivalın qalibləri sırasında üç "Xəzər"li – İqtisadiyyat və menecment fakültəsinin məzunu Bahar Fərzullayeva, Hüquq fakültəsinin məzunu Vüsal Arzumanlı, Humanitar və sosial elmlər fakültəsinin 4-cü kurs tələbəsi Elvin Əliyev çıxış etdilər. Məzunlarımıza və tələbəmizə yeni uğurlar arzulayırıq.

ATGTİ
Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı

## MİLLİ KİTAB MÜKAFATININ TƏQDİMATI

MİLLİ KİTAB MÜKAFATI

İyunun 4-də Park İnn otelində "Milli Kitab Mükafatı"nın təqdimat mərasimi keçirildi. Mərasimdə münsiflər heyətinin üzvü – Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da iştirak edərək, mükafatlardan birini sahibinə o təqdim etdi və mükafatçılar haqqında fikirlərini jurnalistlərlə bölüşdü.

# XARİCİ MÜƏLLİMLƏRİN ŞƏRƏFİNƏ QƏBUL





İyunun 7-də Xəzər Universitetində çalışan xarici müəllimlərin şərəfinə qəbul oldu. Qəbulda universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı iştirak etdi.

# RASİONAL İNKİŞAF UĞRUNDA QADINLAR ASSOSİASİYASINDA MÜHAZİRƏ

İyunun 8-də Rasional İnkişaf uğrunda Qadınlar Assosiasiyasının "Strateji və ünsiyyət cəhətdən güclənmə" layihəsinin növbəti pilləsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı "Sual və cavab sənəti" mövzusunda mühazirə oxudu, müzakirə apardı və suallara cavab verdi.

# "GƏNCLƏRİN KARYERA İNKİŞAFI PROQRAMI" MÖVZUSUNDA KONFRANS

İyunun 11-də Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzində "Gənclərin karyera inkişafı proqramı" mövzusunda konfrans keçirildi. Konfransda Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və bir sıra başqa təşkilatların nümayəndələri iştirak edirdilər. Tədbirdə iştirak edən Xəzər Universiteti Peşə inkişaf mərkəzinin koordinatoru İsgəndər Ağayev Xəzər Universitetində tələbələrə yaradılan karyera imkanları və universitetin təşkil etdiyi müxtəlif layihələr haqqında məlumat verdi.

# AZTV-NİN "SƏADƏT" PROQRAMINDA

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı iyunun 12-də Azərbaycan televiziyasının (AzTV) "Səadət" proqramının qonağı olmuşdur. O, "Qloballaşma və şərq qadını" mövzusunda müzakirədə iştirak etmişdir.

# "QLOBALLAŞMA, MİLLİ İDEYA VƏ MÜASİR AZƏRBAYCAN" MÖVZUSUNDA KONFRANS

İyunun 13-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Bakı Biznes Mərkəzində "Qloballaşma, milli ideya və müasir Azərbaycan" mövzusunda keçirilmiş konfransa sədrlik etmiş və "Qloballaşma və milli kimlik" mövzusunda məruzə etmişdir. Konfrans Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi və AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq institutu tərəfindən birgə təşkil olunmuşdu.

# XƏZƏR UNİVERSİTETİNİN I, II, III və IV QRUPLARA DAXİL OLAN FƏNLƏR ƏSASINDA KEÇİRDİYİ VIII OLİMPİADANIN YEKUNLARI HAQQINDA




Xəzər Universiteti hər il Azərbaycanın müxtəlif bölgələrində istedadlı və bacarıqlı şagirdləri aşkara çıxarmaq və həvəsləndirmək məqsədilə XI sinif şagirdləri arasında I, II, III və IV qruplara daxil olan fənlər əsasında ənənəvi olimpiadasını keçirir. Bu il də Xəzər Universiteti növbəti – VIII olimpiadasını keçirmişdir.

Xəzər Universitetinin rektoru, professor Con Rayderin sərəncamı ilə 20 nəfərdən ibarət Təşkilat Komitəsi yaradılmışdı. Təşkilat Komitəsində müvafiq tədbirlər planı hazırlanıb həyata keçirilmişdir. Builki Olimpiada Azərbaycan Respublikasının müstəqilliyinin və Xəzər Universitetinin yaradılmasının 20 illiyinə həsr edilmişdi. Bu münasibətlə olimpiada ərəfəsində universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin rektoru professor Con Rayder başda olmaqla fakültə dekanları və departament müdirləri Gəncə, Şəki, Lənkəran, Mingəçevir, Sumqayıt şəhərlərində rəhbər işçilərlə görüşmüş, yuxarı sinif şagirdlərinin, valideynlərin və həmçinin ictimaiyyət nümayəndələrinin iştirak etdikləri izdihamlı və yadda qalan tədbirlərdə universitetin təqdimatını keçirmişlər. Xəzər Universiteti tələbələrindən və "Dünya" məktəbi şagirdlərindən ibarət mahnı və rəqs ansamblının konsertləri bölgələrdə sürəkli alqışlarla qarşılanmışdır.

Bu il Bakı şəhərinin 87 orta təhsil məktəbində XI sinif şagirdləri ilə çoxsaylı görüşlər keçirilmiş, onlara Xəzər Universiteti və oradakı ixtisaslar haqqında geniş məlumat verilmişdir. Bu cür görüşlərin bir neçəsində universitetin rektoru Con Rayder iştirak etmişdir.

Bu il ilk dəfə olaraq universitet-məktəb əlaqələrinin daha da genişləndirilməsi çərçivəsində XI sinif şagirdlərinin qrup halında universitetimizə gəlişi təşkil edilmişdir. Bakının ən tanınmış məktəblərindən olan Türkiyə Diyanət Vəqfi Bakı Türk Liseyinin, H. Əliyev Lisesinin, 129, 73, 64 saylı və digər məktəblərin şagirdləri universitetimizdə olmuş və universitetin rəhbərləri və fakültə dekanları ilə görüşmüş, çoxsaylı suallarına cavab almışlar. Onlar universitetin sinif otaqları, xalça və zərgərlik muzeyi, laboratoriyaları, kitabxana və informasiya mərkəzinin son yenilikləri ilə yaxından tanış ola bilmişlər.

Olimpiada aprel ayının 30-da Bakı, Gəncə, Şəki, Sumqayıt, Lənkəran və Mingəçevir şəhərlərində keçirildi. Olimpiadanın son turunda respublika üzrə cəmi 905 nəfər (I qrup üzrə –209 nəfər, II qrup üzrə – 360 nəfər, III qrup üzrə – 202 nəfər, IV qrup üzrə – 134 nəfər) iştirak etdi. Bütünlükdə Respublika Olimpiadasına ölkənin 187 orta məktəb və liseyinin XI sinif şagirdləri və ötən ilki məzunlar qatılmışdılar.

Olimpiadanın nəticələrinə görə I, II qruplar üzrə ən yüksək bal toplayanlar Zəkalar liseyinin, III qrup üzrə Türkiyə Diyanət Vəqfi Bakı Türk Liseyinin, IV qrup üzrə Sumqayıt şəhər Texniki və Təbiət Elmləri Lisesinin şagirdləri olmuşlar. Olimpiadada ən yüksək – 652 bal II qrup üzrə Bakı şəhərinin Zəkalar liseyinin şagirdi Nigar Habil qızı Əsədova tərəfindən toplanmışdır.

Olimpadada ən yüksək göstəricilərə nail olmuş şagirdlərin təhsil aldıqları məktəblər bunlardır: Zəkalar Liseyi, TDV Bakı Türk Liseyi, 76 saylı məktəb, Bakı Ekologiya Liseyi, 95 saylı məktəb (Bakı), Lənkəran Özəl Türk Liseyi, Sumqayıt Texniki və Təbiət Elmləri Liseyi, 59 saylı məktəb (Bakı), 12 saylı məktəb, 35 saylı məktəb (Sumqayıt), Zəngi Lisei, 70 saylı məktəb (Bakı), İstedad Liseyi (Sumqayıt), 5 saylı məktəb (Şəki), 1 saylı məktəb (Mingəçevir), 11 saylı məktəb (Sumqayıt), 18 saylı məktəb (Şəki), Heydər Əliyev Liseyi (Bakı), 15 saylı məktəb (Gəncə), 7 saylı məktəb (Mingəçevir), 39 saylı məktəb (Gəncə), 33 saylı məktəb (Sumqayıt), 129 saylı məktəb (Bakı), 24 saylı məktəb, 21 saylı məktəb (Sumqayıt), 44 saylı məktəb (Gəncə), Haftoni kənd orta məktəbi (Lənkəran rayonu), 2 saylı məktəb (Gəncə), 17 saylı məktəb (Mingəçevir), 7 saylı məktəb (Lənkəran rayonu), 245 saylı məktəb (Bakı).

Ümumilikdə respublika üzrə 22 nəfər (ötən il 5 nəfər) 600 baldan yuxarı, 94 nəfər (ötən il 43 nəfər) 500 baldan yuxarı, 185 nəfər ( ötən il 131 nəfər) 400 baldan yuxarı, 211 nəfər (ötən il 197 nəfər) 300 baldan yuxarı, 215 nəfər (ötən il 212 nəfər) 200 baldan yuxarı, 138 nəfər (ötən il 196 nəfər) 100 baldan yuxarı, 39 nəfər (ötən il 17 nəfər) 10 baldan yuxarı, 1 nəfər (ötən il 10 nəfər) 0 bal toplamışdır. *(Olimpiadada qruplar üzrə I, II və III yerləri tutanların siyahısı Xəzər Universitetinin www.Khazar.org veb-saytında yerləşdirilmişdir).*

Keçən illərdə olduğu kimi, olimpiada bu il də təşkilatçıların gərgin əməyi sayəsində müvəffəqiyyətlə, iştirakçıların böyük ruh yüksəkliyi şəraitində keçdi.

**Əlövsət Əmirbəyli,**
*Təşkilat Komitəsinin sədri,*
*İctimai Əlaqələr və Media üzrə Direktor*

## ALİ MƏKTƏBLƏRİN SAYI ARTMAYACAQ



*Azərbaycan ali təhsil məktəblərinin sayını artırmaq niyyətində deyil*

Bu barədə təhsil naziri Misir Mərdanov bildirib. Onun sözlərinə görə, Dünya Bankı və bu kimi təşkilatlar Azərbaycana ölkədə ali təhsil məktəblərinin sayını artırmağı tövsiyə edirlər. Amma Azərbaycan bu addımı atmaq niyyətində deyil: «Azərbaycan ali təhsil məktəblərinin sayını yox, keyfiyyətini artırmaq niyyətindədir».

Nazir qeyd edib ki, hazırda ölkədə 36 ali dövlət və 15 özəl ali təhsil məktəbi fəaliyyət göstərir: "Hazırda 10 minə yaxın azərbaycanlı tələbə xaricdə təhsil alır, Azərbaycanın özündə təhsil alan xaricilərin sayı isə 7 mindən artıqdır".

## TAM ORTA TƏHSİL SƏVİYYƏSİ ÜZRƏ MƏRKƏZLƏŞMİŞ BURAXILIŞ İMTAHANLARININ NƏTİCƏLƏRİ

*Bu il Təhsil Nazirliyinin tam orta təhsil səviyyəsi üzrə keçirdiyi mərkəzləşmiş buraxılış imtahanlarına 90 min 834 nəfər şagird buraxılıb*

Bunu keçirdiyi mətbuat konfransında təhsil naziri Misir Mərdanov deyib. Nazirin sözlərinə görə, onlardan 87.578 nəfəri buraxılış imtahanlarında iştirak edib, 3256 nəfər buraxılış imtahanlarında iştirak etməyib, 42 nəfər nailiyyətə görə, 727 nəfər isə xəstəliyi ilə əlaqədar təhsil nazirinin müvafiq əmri ilə imtahandan azad olunub. 50.771 nəfər buraxılış imtahanlarından müvəffəq, 36.807 nəfər isə qeyri-müvəffəq qiymət alıb.

M. Mərdanov deyib ki, lakin bu, attestat alanların sayı deyil: "Çünki attestat qiyməti verilərkən 9-cu sinfin buraxılış imtahanının, 11-ci sinif yoxlama sınaq imtahanlarının və illik imtahanın nəticələri nəzərə alınır".

Nazir Azərbaycanın 78 rayonu üzrə 71.812 nəfərin attestat aldığını bildirib. Bu, attestat almalı olanların 81,90 faizidir. Builki məzunların 18 faizi isə attestat ala bilməyib. Nazir onu da deyib ki, rayonlar üzrə ən aşağı göstərici Astara rayonu üzrə olub. Ən yüksək göstərici isə Bakının Xətai rayonu üzrə qeydə alınıb.

Bakı üzrə orta məktəb məzunlarının 91,84 faizi, nazirliyin tabeliyində olan təhsil müəssisələrinin isə 98,4 faizi attestat alıb.

## DÖVLƏT SİFARİŞLİ İXTİSASLAR ÜZRƏ TƏHSİL HAQLARI ARTIRILACAQ

*2011-2012-ci tədris ilində ali məktəblərin dövlət sifarişli ixtisasları üzrə təhsil haqlarının artırılacağı gözlənilir*

Bu barədə Azərbaycanın təhsil naziri Misir Mərdanov bildirib. Onun sözlərinə görə, bu artımın nə qədər olacağı hələlik bilinmir. Amma nazir belə hesab edir ki, dövlət sifarişli ixtisaslar üzrə təhsil haqları ödənişli əsaslarla olan ixtisaslar üzrə təhsil haqqından az olmamalıdır.

M. Mərdanov Maliyyə Nazirliyi tərəfindən məhz bu məsələnin nəzərə alınacağına ümid etdiyini deyib.

# HAMLET İSAXANLI: «BÖYÜK İRADƏ SAHİBİ OLMALISAN Kİ, XIRDA VƏ BÖYÜK MANEƏLƏR SƏNİ YOLUNDAN ÇƏKİNDİRƏ BİLMƏSİN»

*Həmsöhbətimiz Xəzər Universiteti və "Dünya" məktəbinin təsisçisi, professor Hamlet İsaxanlıdır*



***– Hamlet müəllim, ilk sualım Azərbaycan təhsil sistemi haqdadır. Bu barədə nələri söyləmək istərdiniz?***

– Qısaca olaraq, istərdim Azərbaycan təhsil sistemi ilə xarici ölkələrin bu sahədə təcrübəsi haqda müqayisəli xülasə verim. Azərbaycanda da dünyanın başqa ölkələrində olduğu kimi, təhsil ayrı - ayrı pillələrə bölünür. Ən birinci pillə məktəbəqədər təhsildir. Bir çox ölkələrin təcrübəsində bu mərhələ uşaqların 3-5 yaşına təsadüf edir. Sonrakı mərhələ – Məktəb təhsili əsasən UNESCO klassifikasiyasına uyğun olaraq, ibtidai, aşağı orta və yuxarı orta pillələrə bölünür. Ölkəmizdə ibtidai təhsil 4 illikdir. Halbuki, çox ölkələrdə bu müddət daha çox, əsasən 6 il təşkil edir. Ümumən götürsək, ölkəmizdə məktəb təhsili 11 illikdir və bu 11 il özündə qeyd etdiyimiz 3 pillənin hamısını ehtiva edir. Bəzən müəyyən mütəxəssislər tərəfindən məktəblərin ayrılıqda hər bir təhsil pilləsinə uyğun ixtisaslaşması fikri də irəli sürülür. Bu, fikrimcə, məqsədəuyğun olardı. Biz, öz növbəmizdə «Dünya» məktəbini təsis etdikdə qərara aldıq ki, məktəbəqədər, ibtidai, aşağı orta və yuxarı orta təhsil pillələrinin hamısı ilə məşğul olaq (vahid bir məktəbdə). Bundan sonra gələn təhsil pilləsi orta ixtisas, yəni kolleclər və peşə məktəbləridir. Azərbaycanda bu təhsil pilləsi, əfsuslar olsun ki, nisbətən zəif inkişaf edib. Biz rəsmi olaraq təhsilin bu pilləsi ilə bağlı tədris aparmırıq. Amma bununla belə, Xəzər Universiteti nəzdindəki treninq mərkəzləri tərəfindən oxşar xidmət təqdim edilir. Müəyyən istiqamətlər üzrə təlimlər keçirilir və nəticədə kursu uğurla bitirənlərə sertifikat verilir.

***– Təhsil sahəsində islahatlar etməli olsaydınız, hansı tədbirləri həyata keçirərdiniz?***

– Əslində, təhsildə islahatlar məsələsi mənim həm yazdığım kitablar, beynəlxalq konfranslarda və ictimaiyyət qarşısında etdiyim çıxışlar zamanı ən çox toxunduğum problemdir. Birinci mühüm məsələ – dövlətlə özəl təhsil müəssisələri arasındakı münasibətlərin tənzimlənməsidir. Hazırda təhsildə, xüsusilə ali təhsil istiqaməti üzrə, ciddi rəqabət mövcuddur. Biz çalışmalıyıq ki, təhsilimizin keyfiyyəti yüksək olsun. Bu cür rəqabət şəraitində davam gətimək və irəliləmək üçün təhsil qurumu kimi çalışmalıyıq ki, vaxtlı-vaxtında qərar qəbul edə bilək, daha çevik hərəkət edə bilək. Məsələn, ali təhsil müəssisələrinə tələbə qəbulu prosesinə baxaq. Bu vacib mərhələdə ali təhsil müəssisəsi özü müstəqil olaraq heç bir tədbir həyata keçirə bilmir. Bütün qəbul proseduru tam olaraq, dövlət tərəfindən həyata keçirilir. Düzdür müəyyən dövr ərzində bu məqsədəuyğun hesab olunurdu ki, tələbə qəbulu zamanı xoşagəlməz halların, daha doğrusu, korrupsiyanın qarşısı alınsın. Amma sonrakı mərhələdə, fikrimcə, ali məktəb özü müstəqil qərar vermək hüququna malik olmalıdır. Başqa bir problem. Dünyanın hər bir ölkəsində təhsilin bitməsi zamanı verilən sənəd - diplomlar məzunlara ali təhsil müəssisəsi tərəfindən verilir. Bu nə deməkdir? Yəni hər bir ali məktəbin özünün diplomu olur, diplomun arxasında ali məktəbin nüfuzu dayanır. Bizdə isə bu tam fərqli – mərkəzi qaydada həyata keçirilir. Bütün təhsil qurumlarına eyni dövlət təşkilatı tərəfindən eyni diplom forması təqdim edilir. Daha bir problem. Ali məktəblər yeni ixtisaslar üzrə mütəxəssis hazırlamaq məsələsində sərbəst olmalıdır. Dövlətin bu işə az-çox maliyyə ayırması və ya heç ayırmaması bu hazırlığın səviyyəsi ilə əlaqəli ola bilər. Dördüncü çox mühüm məsələ – dövlətin təhsilə münasibətdə tətbiq etdiyi vergi siyasətidir. Hər bir işin uğurlu idarə edilməsi düzgün maliyyələşdirmə mexanizmindən asılıdır – özəl və ya dövlət qurumu olmağından asılı olmayaraq. Belə düşünürəm ki, təhsil müəssisəsindən əlavə dəyər vergisinin tələb edilməsi düzgün deyil. Üstəlik də dünya təcrübəsində elə bir ali məktəb yoxdur ki, yalnız tələbələrdən aldığı təhsil haqqı ilə fəaliyyət göstərsin. Əlavə dövlətdən kömək olmalıdır, dövlət ali məktəbin əlindən pulunu almamalıdır. Həmçinin, ali təhsil qurumlarının özləri kifayət qədər qətiyyətli, zirək və çevik olmalıdır ki, ictimaiyyətdən, xeyriyyə və biznes qurumlarından müəyyən vəsait toplaya bilsin. Xarici ölkələrin təcrübəsində belə hallar kifayət qədərdir. Məsələn, 10 nəfər tələbənin bir xeyriyyəçi tərəfindən oxudulması, maddi-texniki bazanın qurulmasına dəstək olmaq kimi. Hətta ABŞ və digər Qərb ölkələrində belə bir təcrübə də vardır ki, təhsil müəssisələrinə maliyyə yardımı göstərən qurumlara münasibətdə dövlət vergi güzəştləri tətbiq edir. Ali məktəbin köməyə bu qədər ehtiyacı olduğu halda onun əlavə dəyər vergisi verməsi düzgün deyil. Və əlbəttə ki, maaşların artırılmasına böyük ehtiyac var...

***–Hamlet müəllim, fikrinizcə, bu gün Azərbaycan məktəbinin ən böyük problemi nədir?***

–Obyektiv desək, hazırda Azərbaycan məktəblərində çox problem var. Bunlardan ən birincisi müəllimlərin əməkhaqqı məsələsidir. Fikrimcə, müəllimin aylıq əməkhaqqı, heç olmasa 800 manat olmalıdır ki, ailənin ən zəruri tələbatları ödənilsin. Təəssüf ki, nəinki müəllim, hətta məktəb direktoru belə qeyd etdiyim

məbləğdə əməkhaqqı ala bilmir. Məhz bu səbəbdən müəllimlərin çoxu repetitorluq fəaliyyəti ilə məşğul olur. Bu da öz növbəsində onun bir müəllim kimi məktəbdə etdiyi tədrisin keyfiyyətinə mənfi təsir göstərir. Bundan əlavə, dünyada xüsusi göstərici var – bir müəllimə adambaşı düşən şagirdlərin sayı. Bu, dünya təcrübəsində inkişaf etmiş ölkələrdə orta hesabla 20 şagird təşkil edir. O qədər də zəngin olmayan ölkələrdə bu göstərici 25-30 şagird təşkil edir. Azərbaycanda bu rəqəm 8-dir. Təsəvvür edin ki, bu qədər müəllim artıqlığı var. Üstəlik də bu müəllimlərin xeyli hissəsi bilik cəhətdən kifayət qədər zəifdir. Belə müəllimlər nəticədə məntiqi olaraq, orta təhsilin keyfiyyətinə mənfi təsir göstərir. Digər tərəfdən, düşünürəm ki, orta məktəb müəllimlərinin çox ciddi yenidən hazırlıq sistemi olmalıdır. Xüsusi Treninq proqramı hazırlanmalı və tətbiq edilməlidir. Bəs sual oluna bilər ki, müəllimlərin əməkhaqqı niyə artırılmır? Səbəblərdən biri odur ki, müəllimlərin sayı normadan xeyli artıqdır, həddindən artıq çoxdur. Azərbaycanda hazırda 300 mindən artıq müəllim var. Paradoksal bir hal da odur ki, bu qədər müəllim sayı ilə yanaşı müəllim kadrları hazırlayan dövlət ali məktəbləri və ixtisaslarının sayı-hesabı yoxdur. Üstəlik, müəllim ixtisasını seçən abituriyentlər, adətən, qəbul imtahanlarında nisbətən zəif bal toplayan məktəb məzunları olur. Başqa bir məsələ – məktəblərin maddi texniki bazasının gücləndirilməsi zərurətidir. Düzdür ölkəmizdə bu istiqamətdə real işlər aparılır. Heydər Əliyev Fondu və Təhsil Nazirliyinin həyata keçirdiyi layihələr danılmazdır. Amma bu iş hər zaman davam etdirilməlidir. Belə ki, təmir və tikintiyə ehtiyacı olan məktəblərin sayı çoxdur. Hələ görülməli çox işlər var.

Yerdə qalan problem kimi mən təhsildə rüşvət və tapşırıq sisteminin olmasını hesab edirəm. Bu çox dəhşətli bir haldır. Bu xoşagəlməz hallar olan yerdə heç vaxt keyfiyyət, bərabərlik və ədalətdən danışmaq olmaz.

***– Sizin üçün "yaxşı məktəb" məfhumu altında hansı həqiqətlər dayanır?***

– İki il bundan əvvəl biz "Dünya" məktəbində görkəmli elm və ictimai xadimlərin iştirakı ilə geniş konfrans keçirdik. Konfransın mövzusu isə "Yaxşı məktəb nədir" idi. Zənnimcə, hər şeydən əvvəl, yaxşı məktəbin özünəməxsus bir inkişaf planı və fəlsəfəsi olmalıdır. "Mənim məktəbimi digərlərindən fərqləndirən nədir?" sualına cavab olmalıdır. Məktəb ən yaxşı, ən peşəkar müəllimləri ətrafına toplamalıdır. Məktəbin yaxşı maddi – texniki bazası olmalıdır. Məktəbin tədris planı müasir olmalı, həm dunya təcrübəsini nəzərə almalı, həm də milli dəyərlərə söykənməlidir. Şagirdlər əzbərçi deyil, düşünmək qabiliyyəti, məsələ həll etmək, qərar qəbul etmək istiqamətində yetişdirilməlidir. Bundan əlavə, idarəetmə sisteminin təkmilləşdirilməsi də vacib məsələdir. Misal üçün bildirim ki, qonşu Gürcüstanda belə bir təcrübə var ki, məktəbin idarə heyəti təşkil olunur. Gizli səsvermə yolu ilə 6 müəllim, 6 valideyn və bir şagird seçilir. Bütün daxili məsələlər və dövlətlə, ictimaiyyətlə iş bu idarə heyətində müzakirə olunur və qərar qəbul edilir. Direktor burda yalnız icracıdır.

***– "Dünya" məktəbi digər ümumtəhsil məktəbləri ilə müqayisədə hansı üstünlüklərə malikdir?***

– "Dünya" məktəbi digər məktəblərdən yaxşı mənada xeyli fərqlənir. Bizim üçün ən mühüm məsələ korrupsiya və tapşırıq sisteminin olmamasıdır. Bu həm şagird və tələbə qəbulunda, dərs prosesində şagirdərin biliyinin qiymətləndirilməsi, müəllim - şagird, müəllim-valideyn münasibətlərində özünü göstərir. Məktəb rəhbərliyi tərəfindən bu məsələ çox ciddi şəkildə tənzimlənir. Məktəbdə təhsil alan hər bir şagird orada çalışan müəllimin öz uşağı simasındadır. Doğma uşağımızı sevdiyimiz qədər də hər şagirdə sevgi, diqqət və qayğı ilə yanaşırıq. Bu ideya çox mühümdür. Təhsil proqramına maraqlı olması baxımından dəyişikliklər edirik. Elə fənlər var ki, başqa məktəblərdə yoxdur, onları özümüz proqrama daxil edirik. Bizdə şagird dinləyici deyil, dərsin iştirakçısına çevrilir. Şagird, müəllim qədər fəal olmalıdır, müzakirələr apara-apara öz şəxsi fikrini formalaşdırmalıdır. Bu, şagird mərkəzli təhsil modeli adlanır. Sadə dildə desək, burada şagirdlər oyunçu, müəllim isə onların məşqçisidir. Bundan başqa, tərbiyə məsələlərinə ciddi yanaşma mövcuddur. Burada hamı bərabərdir və hamıya eyni qayğı göstərilir. Ən əsas məqam isə "Dünya" məktəbinin Azərbaycanda yeganə beynəlxalq İB statusu olan məktəb olmasıdır.

***–Məktəbinizdə neçə şagird təhsil alır və onların sayının artımı gözlənilirmi?***

– Hazırda "Dünya" məktəbində təxminən 300 şagird təhsil alır. Bu bizim üçün yaxşı rəqəmdir. Bu gün məktəbimizdə olan maddi-texniki baza məhz bu sayda şagirdə keyfiyyətli təhsil vermək imkanı yaradır. Lakin bununla belə, gələcək illər üçün şagird sayının artımı planlaşdırılır. Belə ki, "Dünya" məktəbi üçün yeni tədris və xidmət kompleksinin istifadəyə verilməsi planlaşdırılır. Yaxın gunlərdə tikinti işlərinə başlanılacaq. O zaman biz şagird sayını artıra biləcəyik. Yeni kompleksin tikintisi kifayət qədər bahalı layihə olacaq. Buna görə, bizə maliyyə yardımı göstərə biləcək qurumlara müraciət edirik ki, bizə dəstək olsunlar.

***– Məktəbin müəllim kontingenti haqda nə deyə bilərsiniz?***

– İlk növbədə bildirim ki, "Dünya" məktəbində hər müəllim işləyə bilməz. Məktəbə müəllim qəbulu böyük müsabiqə əsasında aparılır, çox vaxt 30 - 50 ərizəçidən biri seçilir. Müəllimlərimiz əsasən üç qrupa bölünür:

- elm adamları, professor və dosentlər;
- təcrübəli orta məktəb müəllimləri;
- Xəzər Universitetinin gənc məzunları.

"Dünya" məktəbində müəllimlərin əməkhaqqı individual xarakter daşıyır. Məbləğ müəllimin tədris etdiyi fənnin çətinliyi, dərs saatlarının həcmi, tədris etdiyi dil və digər amillərdən asılıdır.

***– Hamlet müəllim, sonda sizin məktəbin uğur formulunu bilmək istərdik. Uğurunuzu şərtləndirən cəhətlər?***

– Hər bir işin müvəffəqiyyətli sonluğu üçün qızıl qaydalar mövcuddur. Birinci və ən mühüm şərt peşəkarlıqdır. Hamı öz işinin peşəkarı olmalıdır. İkinci şərt, dəqiq və düşünülmüş planlaşdırmadır. Üçüncü şərt – iş görmək ehtirasıdır. Zənnimcə, bu çox əhəmiyyətlidir -daxili alov, bir işi yerinə yetirmək istəyi və etdiyin işdən zövq almaq imkanı. Ən sonuncu şərt isə iradəli insan olmaqdır. Böyük iradə sahibi olmalısan ki, çoxsaylı xırda və böyük maneələr səni yolundan çəkindirə bilməsin. Başladığın işi sonuna qədər uğurla icra edə biləsən.

**S.Babayeva,**
***Business Time***

# RUHUN ÖZÜNÜDƏRKETMƏK QAYƏSİ

*Ruhun müqəddəs qayəsi – düşünmək, yaratmaq, kamilliyə can atmaqdır. Fəal yaradıcı təbiətinə görə əksər filosoflar onu insanda ilahi başlanğıc kimi mənalandırıblar. Onun fəaliyyətində özünüdərketmək mərhələsinə xüsusilə yüksək önəm veriblər.*

*Belə fikirlərin inkişafında sufilik özünəməxsus tarixi rola malikdir. İman sərbəstliyi istəyən sufi, Allahı özündən kənarda deyil, özünün batini ruhunda duyur. Allahı dərk etmək sirrini – ruhun özünüdərketməsində kəşf edir. Başqa bir deyimlə, batini ruhun Allahla vəhdətini dərk etməsi – sufiliyin məhrəm idealıdır. Bu intuitiv idrak təsəvvüfdə - sufizimdə "elmi-məani" adlanır.*

*İlahi eşqlə canlanan bu təlim-etiqad səmimiliyi, əməl, əxlaq bütövlüyü duyğuları aşılayır. Buna görə sərbəst görüşlü idrak əhlində maraq oyadır. Bu yazıda Xanəli Kərimlinin poeziyasında sufi motivləri xüsusunda müxtəsər şəkildə söhbət gedəcək.*

Xanəli Kərimli indi özünün oxucu auditoriyasına malik olan, geniş hörmət qazanan şairlərdəndir. Şeirində, həyatında səmimi, riyakarlığa yabançı, bir sifətli sənətkardır. Onu yaxından tanıyanlar halal təbiətli olduğunu xüsusi vurğulayırlar.

Xanəli Kərimlinin sənətində sufilikdən ayrıca danışmazdan əvvəl, haqqında yazdığım yazıları diqqətə yetirirəm: "Şair şeirindən tanınar", "Şairə məktub", "Sözü fikir yaşadar". Bu yazılarda şairin yaradıcılığının mahiyyəti, yeni sözə köklədiyi əyani təhlildə əksini tapır. Zaman, həyat, sənət, insan – belə köklü mövzularda oxucunu düşündürən mənalı fikirləri açıqlanır. Şeirdə, nəsrlə yazdığı kəlamlarda faydalandığı sufi motivləri incələnir.

Yeri gəlmişkən, Xanəli Kərimli Türkiyədə sufizmə həsr edilmiş simpoziumun fəal iştirakçılarından olub. İslam mədəniyyətinin bu tarixi sahəsini araşdıranlarla elmi təmasları sayəsində sufiliyə marağı dərinləşib. Yeni şeirlər silsiləsində bu meyl açıq nəzərə çarpır. (525-ci qəzet, 19 aprel 2011-ci il).

Bu silsilədə xüsusən "Şair haqqın yolçusudur" şeiri sırf sufilik rəmzlərinin əsasında düşünülüb. Şair bir sufi olaraq, ruhunun ilahi nurun daşıyıcısı olduğuna dərin etiqadını bildirir. Onun üçün Haqq eşqi yaratmağa ilhamlandıran batini inamdır:

*Bir rübabın nəsimiyəm,*
*Həm pərdəsi, həm simiyəm,*
*Mən Haqqın divanəsiyəm,*
*Sözüm də Haqqın nurudur.*

Anılan şeir əslində Nəsimi sufizminə uyğun tərzdə yazılıb. Xüsusən Quran-i Kərimin müəyyən ayələrini, onların mahiyyətinə uyğun ərəb hərflərini mənalandıran sətirlər. Xanəli Kərimlinin şeirində bu cəhət, şübhəsiz, onun Nəsimi ənənəsinə mənəvi bağlılığı ilə şərtlənir.

Burada məlum bir tarixi həqiqəti maraqlanan oxucuya xatırladaq. Quran-i Kərim həmişə sufilik görüşlərinin başlıca qaynağı olub. Sufilər İslam dininin müqəddəs kitabını zahirən deyil, qəlbdən duymaq üsulunu üstün tuturlar. Batini duyğu – iman sərbəstliyi, ilahi vəhdət istəyi doğurur. Bunu sufizmdə mənəvi azadlığın ifadəsi kimi açıqlamaq olar.

Xanəli Kərimli sufinin fərdi "mən"ində "imanla küfr" təzadından azad olmaq istəyindən danışır. Haqqın yolunu göstərən imana tapındığını ürəklə dilə gətirir. Əlbəttə, həqiqi sufi üçün Haqq yolu yeganə meyardır:

*Mən tövbələr qapısıyam,*
*Haqq yolun əlifbasıyam,*
*İmanla küfr arasıyam,*
*Könlüm imanın quludur.*

Şair təsəvvüfün insanı kiçik Kainat adlandırdığı ideyanı səsləndirir. Bunu təqdim etməzdən əvvəl, qısa izahat vermək lazımdır.

Qədim fəlsəfi ənənəyə görə, insan Makrokosmosun – yəni böyük Kainatın bir hissəsi sayılır. Buna uyğun olaraq, Mikrokosmos – kiçik Kainat kimi düşünülür. Bu mənada insan özü-özlüyündə müstəqil bir dünyadır. O, batini, ya zahiri həyatını dərk etməklə fərqlənir. Ruhunun yaşadığı təzadları nə dərəcədə

səmimi etiraf edirsə, onun "mən"i o dərəcədədir:

*Özüm-özümə qibləgah,*
*Həm sevincəm, həm də ki ah,*
*Həm savabam, həm də günah,*
*Hər kəs kimsə - yolu odur.*

Şairin sufilik düşüncə tərzi saf dindarlıqla daxilən qovuşur. Ruhunda Allah ideyasını dərk edən, kamilliyə yönəldən sufi eyni zamanda səmimi dindardır. Onun bu fəaliyyəti, mahiyyət etibarilə, əxlaqi niyyət daşıyır.

İnsanın əxlaqi keyfiyyətini yaxşılaşdırmağa xidmət etmək – ibrətli niyyətdir – dinin daşıdığı ilahi borcdur. Bu həqiqəti Hegelin "Ruh fəlsəfəsi"ndə vurğuladığı fikirlə əsaslandıraq: "Həqiqi din və həqiqi dindarlıq yalnız əxlaqdan irəli gəlir... Yalnız onun əsasında Allah ideyası azad ruh kimi dərk edilir; buna görə əxlaqi ruhdan kənarda həqiqi dini və dindarlığı axtarmaq boşuna zəhmət olardı".

Bu mövzunu şərh edilən məzmunla əsasən bitirmək olar. Əlbəttə, burada Xanəli Kərimlinin yaradıcılığında əksini tapan sufi motivləri geniş şəkildə araşdırılmayıb. Görünür, belə bir araşdırmanı başqa müəllif davam etdirəcək.

Bu yazı əslində 60 yaşını haqlamış şairə ağsaqqal xeyir-duası, səmimi təbriknamədir. Yunus İmrənin kəlamı ilə bu təbriknaməni gözəlləşdirmək istərdim. Mən həmin kəlamı Dərviş Osmanın 50 illiyində səsləndirmişəm. Borçalıda yaşayan, Borçalını ruhunda, əməlində türk dünyasına qovuşduran gözəl şairimiz Dərviş Osmanın.

İndi isə gözəl sufi şairimiz Xanəli Kərimlinin mübarək 60 illiyi münasibətilə səsləndirirəm:

*Ben gelmedim davi için,*
*Benim işim sevi için,*
*Gönüller dost evi için,*
*Gönüller yapmağa geldim.*

Yunus İmrə bu fikirdə sufinin ilahi vəzifəsini bildirir. İnsanların qəlblərini batini iman işığı ilə kamilliyə qovuşdurmağı. Xanəli Kərimliyə bu ali vəzifəyə xidmət etməkdə yeni yaradıcılıq uğurları, sevinci arzulayıram.

**Camal Mustafayev**



## AVRASİYA UNİVERSİTETLƏR BİRLİYİNİN QURULTAYINDA

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli iyunun 25-də Türkiyənin İstanbul şəhərində qısamüddətli işgüzar səfərdə olub, İstanbul Aydın Universitetində keçirilən Avrasiya Universitetlər Birliyinin (EURAS) I qurultayında iştirak etdilər. *(Ətraflı məlumat jurnalın gələn nömrəsində dərc olunacaq).*

## YENİ TƏDRİS İLİ ÜÇÜN TƏDBİRLƏRİN MÜZAKİRƏSİ

İyunun 24-də "Dünya" məktəbində 2011-2012-ci tədris ilində nəzərdə tutulan işlərin müzakirəsi ilə bağlı iclas keçirildi. İclasda məktəbin direktoru Mərufə Mədətli, direktor müavini Püstəxanım Səfərova, təlim - tərbiyə işləri üzrə direktor müavini Çiçək Qaracayeva, Şagird Birliyi və Mədəni - Kütləvi Tədbirlər üzrə bədii rəhbər Mədinə Karahan öz təkliflərini bildirdilər. Təhsilin keyfiyyətinin daha da yüksəldilməsi, məktəbdə təhlükəsizlik xidməti və nizam - intizamın möhkəmləndirilməsi ilə bağlı bəzi qərarlar qəbul edildi, təşkilati işlərdə nəzərdə tutulan yeniliklər haqqında məlumat verildi.

## "DÜNYA" MƏKTƏBİNİN DEVİZİ: "BİR MƏKTƏB, BİR DÜNYA, BİR GƏLƏCƏK!"

Facebook sosial şəbəkəsində "Dünya" məktəbinin məqsədi, onun həyata keçirdiyi ideyalarla səsləşən deviz seçimi üçün müsabiqə elan edilmişdi. BDU-nun Beynəlxalq münasibətlər fakültəsinin I kurs magistr tələbəsi Maksim Tsurkovun təklif etdiyi "Bir Məktəb, bir Dünya, bir Gələcək!" devizi müsabiqənin qalibi oldu. İyunun 25-də müsabiqənin təşkilatçısı-Consilium şirkətinin baş direktoru Aydın Əhmədzadə və qalib Maksim Tsurkov "Dünya" məktəbinin qonağı oldular. Məktəbin direktoru Mərufə Mədətli qalibə netbuk hədiyyə etdi.

The New York Times
ON THE WEB

# 'FROZEN CONFLICT' BETWEEN AZERBAIJAN AND ARMENIA BEGINS TO BOIL

*By Ellen Barry*
*New York Times, May 31, 2011*



BAKU, Azerbaijan — In a mostly empty Soviet-era building here on a recent morning, a 29-year-old woman pressed her eye against the scope of a sniper rifle, brown hair spilling over her shoulder, and took aim at virtual commandos darting between virtual trees.

Gathered around her were fellow students — a decommissioned soldier, teenage boys with whispery mustaches, a 34-year-old communications worker in Islamic hijab. When sniper training was offered here in April, by an organization that provides courses on military preparation, the classes were a sensation, attracting three times as many students as the instructors could handle.

The logic behind this can be traced to a grievance that festers below the surface of everyday life, permeating virtually every conversationabout this country's future.

Since the early 1990s, Azerbaijan has been trying to regain control of Nagorno-Karabakh, a predominantly ethnic Armenian enclave within its borders, and secure the return of ethnic Azeris who were forced from their homes by war. A cease-fire has held since 1994, and officials remain engaged in internationally mediated negotiations with Armenia, a process that will receive a burst of attention this month when the two sides meet in Kazan, Russia.

But the window for a breakthrough is nar-row, and people here say their patience is gone.

"I'd rather go to war than wait another 20 years," said Shafag Ismailova, 34, a student in the sniper course, who fled the Zangelan region outside Nagorno-Karabakh, one of seven adjacent territories that are under Armenian control. Asked about war, her friend Shafag Amrahova, a recent law school graduate, did not hesitate.

"War is bad for everyone," she said evenly. "But sometimes the situation demands it."

It is tempting to forget about the "frozen conflicts." The enclaves of Nagorno-Karabakh, Transdniester in Moldova, and Abkhazia and South Ossetia in Georgia are among the most headache-inducing legacies of the Soviet Union. The Soviets granted them a sort of semi-statehood, a status that ceased to exist just as nationalism flared in the ideological void. But the 2008 war in Georgia serves as a reminder of how quickly and terribly they can come unfrozen.

One of the reasons Nagorno-Karabakh has not is that neither party has an incentive to fight. Armenia controls the territories, so it is interested in maintaining the status quo. Azerbaijan sees little way forward: though it could easily drive out Armenian forces, Russia could send its army to help Armenia, its ally in a regional defense alliance, just as it did in South Ossetia.

But conditions have been shifting, slowly but surely, in a dangerous direction. Negotiations mediated by the Organization for Security and Cooperation in Europe faltered last year, leaving a "basic principles agreement" that was five years in the making unsigned by either side. Both countries are engaged in a steep military buildup; Azerbaijan, by far the richer of the two, has increased defense spending twentyfold since 2003, according to the International Crisis Group.

With frustration building, threats of war have become so entwined with negotiations that it is difficult to say where one begins and the other ends.

"There is no guarantee that tomorrow or the day after tomorrow a war between Azerbaijan and Armenia won't start," Ali M. Hasanov, a senior presidential aide here, said in an interview. "It's peaceful coexistence that we need, not a war. We need peaceful development. But nothing will replace territorial integrity and the sovereignty of Azerbaijan. If necessary we are ready to give our lives for territorial integrity."

He said Baku had been bitterly disappointed by international mediation efforts. "The United States, France and Russia do not do what they promised," he said. "America now thinks Afghanistan and Iraq are more important - and North Africa, and the missile defense shield in Europe - than such regional conflicts as Nagorno-Karabakh."

Among the forces driving Baku are refugees who have spent nearly two decades in limbo. The United Nations says there are 586,013 - 7 percent of Azerbaijan's population, which is one of the highest per capita displacement rates in the world, according to the International Displacement Monitoring Centre.

Though conditions vary widely and some resettlement is now taking place, a visit to a dormitory in Baku found children growing up in squalor. Roughly 100 refugees were living along a dank, fetid hallway, on one floor of a former office building. Three rough, foul-smelling holes in the concrete floor served as toilets for 21 families, residents said. The hallway was open to the elements, exposing residents to bitter cold in the winter. In the summer, mosquitoes breed in stagnant water in the building's basement, rising in a cloud to the floors above them, they said.

"They cannot stand it anymore, they want war," said Jamila, 41, of her neighbors. "They don't believe the promises anymore."

Just then, a man took her aside, rebuking her for speaking to Western journalists who could, he warned, be pro-Armenian. "Our children look at other houses, they see that other people live well, and they are ashamed," she said when she returned, refusing to give her last name. "Write that the cursed Armenians are guilty of this."

In this charged atmosphere, Nagorno-Karabakh has become "the one issue on which there is total social consensus," said Tabib Huseynov, a political analyst based in Baku. A visitor here a few years ago would have heard "Karabakh or Death," a rap anthem that accuses the United States, Russia, Turkey and Iran of turning a blind eye, exhorting the world to "either put an end to this, or stand aside."

Cease-fire violations - every year, snipers kill roughly 30 people on either side of the so-called line of contact - can take on huge proportions. In March, Azerbaijan announced that an Armenian sniper had killed a 9-year-old Azeri boy, Fariz Badalov. Though Armenia's president denied that his forces were responsible, Azeri television featured the boy's pitiful life story. One broadcast noted that the single bullet that crossed the line of contact that day was the one that lodged in the boy's head.

The story inspired Valid Gardashly, a publicist for the Voluntary Military Patriotic Sports-Technical Association, which offers military training from a headquarters in Baku that is reminicent of a V.F.W. post. The organization sketched out a plan for a 45-day course that would include sniper training, free of charge for about half the students.

"We thought we had to do something," he said. "We are not preparing for war. But this was a poor boy - what did he do wrong? He was not a soldier. He was just watching cows."

The course touched a nerve - both in Armenia, where some expressed outrage at the idea, and in Azerbaijan, where an overflow crowd was winnowed down to the 32 most promising marksmen. One who made the cut, a 15-year-old boy, offered his own reason for taking the class: "I am getting ready to fight in Karabakh." Ms. Ismailova, one of the students, looked anxious as she listened to him. She, too, grew up among Karabakh refugees. But the younger ones are much more ardent, she said.

"These young guys, they have been waiting their whole lives," she said. "We had a genocide, and no one helps us. Not America, not Russia."

# KEÇMİŞİN FƏLSƏFƏSİ VƏ YA TARİX NECƏ YAZILIR?

*Əvvəli jurnalın 284-cü (aprel 2010), 286-287-ci (iyun 2010 -iyul 2010), 288 - 296 - cü (sentyabr 2010 - may 2011) nömrələrində*

*Hamlet İSAXANLI*



***Keçmiş keçib gedib. Bu, məntiqi cəhətdən həqiqət olsa da, o qədər də sadə həqiqət deyil. Keçib gedən bizim keçmişimizdir, biz o keçmişdən əmələ gəlmişik. Kimliyimizi, mahiyyətimizi o keçmişsiz təsəvvür etmək mümkün deyil. Biz öz keçmişimizə bağlıyıq. Biz keçmişimizin davamıyıq.***

***Bəşəriyyətin keçmişi necə olub? Bu barədə əfsanələr, miflər və tarix söz deyir. Tarix daha dəqiq məlumat verməyə çalışır. Əslində, biz keçmişi tam deyil, tarixin bizə söylədiyi qədər bilirik. Başqa sözlə desək, tarixin məzmunu keçmiş haqqında bildiklərimiz və öyrənib yazdıqlarımızdan ibarətdir. Tarixin məzmunu və tutumu ayrı-ayrı şəxslərin, tarixçilərin yazıb toplaya bildiyi qədərdir. Tarix subyektivdir, nisbidir, tarix yazanların iradəsindən, ideyasından, şəxsiyyətindən, gücündən müəyyən dərəcədə asılıdır.***

***Keçmişin təbiəti və ruhu nədir? Keçmiş necə dərk olunur? Bəlkə keçmiş kəşf olunur? Keçmişin dərkində subyektivlik varsa, keçmişi öyrənən tarix nədir, elmdir, yoxsa sənət? Tarixi subyektiv edən hansı amillərdir?Tarix gözəldir; bu gözəllik öz heyranlarını yoldan, başdan çıxarmırmı, tarix təhlükə törədə bilərmi? Tarix necə yazılır və ya necə yazılsa yaxşıdır?***

***Bu və buna bənzər suallar tarixin fəlsəfəsinə aiddir. Bu yazı keçmişdə baş verənlərin dərki ilə məşğul olan tarixin mahiyyəti haqqındadır. Elm və sənətin qovşağında yer tutan tarixin fəlsəfəsi, çox güman ki, tək tarixçilərə və filosoflara deyil, bəşəri düşüncələrə dalan hər kəsə maraqlıdır.***

## Tarixin hərəkətverici qüvvələri. Tarix və tərəqqi

Hansı qüvvədir tarixi irəli aparan, bəşəriyyəti hərəkət etdirən, tarixi yaradan? Bu barədə filosof, tarixçi və digər mütəfəkkirlərin fikirləri çox maraqlı və rəngarəngdir. Burada bizi maraqlandıran digər məsələ isə tarix boyu insan təbiətinin dəyişib-dəyişmədiyi, cəmiyyətin və insanların necə, yaxşılığa, ya pisliyə doğru dəyişdiyi barədədir. Elmi və texnoloji tərəqqi şübhə doğurmur, lakin sosial tərəqqi məsələsi qədimlərdən bu günə qədər böyük mübahisə doğurmuş, bir-birinə zidd fikirlər bir-birini təqib etmişdir. Mübahisələr bu gün də davam etməkdədir.

Zərdüştlüyün əsas kitabı olan "Avesta"da tarix və həyat xeyir və şərin mübarizəsi üzərində qurulmuşdu. Qədim çinlilər əksliklərin bir-birini yaratdığını qeyd edirdilər. Qədim yunanlar harmonik həyatı ahəngdar edən qüvvəni hərəkətlə, ziddiyyətlər, müxtəlifliklər arasındakı münasibətlərlə izah edirdilər. Kişi-qadın, şəhər-kənd, xeyir-şər kimi əksliklərin birliyi hərəkət doğurur. Aristotel xeyir və şəri hərəkətin əsası, sevgini tarixin hərəkətverici qüvvələrindən biri sayırdı. Zenon ziddiyyətlərin aşkar edilməsi üsulu olaraq dialektikanı irəli sürdü. Qarşıdurma, əksliklərin mübarizəsi tarixi hərəkət etdirir. "Tarixin mükəmməl, ziddiyyətsiz, xoşbəxt bir çağı gələcək" fikri çağdaş zamanımızda utopiya kimi qiymətləndirilir. Ziddiyyətlər yox olmayacaq, aradan qalxanların yerinə yeniləri gələcək - bu, dialektikadır. Hərəkət əksliklərin dialektikasıdır, bu fikir yeni dövrdə də bir çox mütəfəkkirlər tərəfindən səsləndirilmişdir (Benedetto Croce daxil olmaqla).

* * *

Herodotus müharibəni tarixi dəyişdirən əsas qüvvə hesab edirdi: "müharibə hər şeyin atasıdır, hər şeyin şahıdır. O, bəzilərini allah, digərlərini insan, bəzilərini qul, digərlərini azad etmişdir".

**David Hume** (1711-1776) insan həyatını idarə edən əsas qüvvənin vərdiş olduğunu iddia edirdi. Vərdiş xasiyyəti, xarakteri formalaşdırır, bu isə öz növbəsində ictimai həyatı müəyyən edir. Hume`a görə vərdişlər tədricən əmələ gəlir və vərdiş ictimai həyatı formalaşdıran kərpiclər olduğuna görə bütün tarixi pro-



***David Hume***



C. A. Helvetius

seslərdə tədricilik var. Bu yanaşma ictimai müqavilə haqqında görüşlərin təkamülünü görməyə imkan verir. Görünür ki, fərqli düşünən, gözüaçıq, cəsarətli və hiyləgər bir insan xüsusi bir halda digərlərini idarə etməyə, öz hakimiyyətini yaratmağa çalışırdı. İnsanlar bunun faydalı olduğunu görür, hakimiyyətə rəğbət əmələ gəlir və bu, vərdişə çevrilir. Beləliklə, ictimai müqavilə birdən-birə, bir addımda ortaya çıxmır, o, tədrici bir prosesdir. **C. A. Helvetius** - bizi, fərdləri və insan toplularını hərəkət etdirən yeganə qüvvə maraqdır, - deyirdi.[1]



Rousseau

**Rousseau** ziddiyyətləri cəmiyyətin inkişafında hərəkətverici güc hesab edirdi. Bir sıra fransız maarifçilərinə görə insan əməlinin hərəkətverici qüvvəsi eqoizm və şəxsi maraqlardır, yəni həzzə can atmaq və əzabdan qaçmaq meylidir. Bu halda mənəviyyatın əsasında faydalı olmaq (həm fərdə, həm cəmiyyətə) dayanmalıdır. Qanunvericilik də ictimai faydanı əsas götürməli, cəmiyyətin üzvlərini öz hisslərini bu yolda qurban verməyə çağırmalıdır.



Edward Gibbon

**Edward Gibbon** - maarifçilik dövrünün tipik və böyük tarixçisi - müdrikliyi deyil, insan irrasionallığını tarixin hərəkətverici qüvvəsi sayırdı. Onun Roma tarixinə həsr olunmuş sanballı əsərində Romanın çöküşü barbarlıq və dinin triumfu nəticəsində baş verir. Amma o, keçmiş qızıl dövr haqqında danışarkən daha çox sonrakı romantik cərəyana və əvvəlki humanistlərə yaxınlaşır.

**V. Belinskiy** də, bir çox filosoflar kimi, xeyir və şərin mübarizəsini irəliyə hərəkəti təmin edən qüvvə sayır. O, tarixin çürüyən və ölən dövrlərini yeninin gəlməsinə bir hazırlıq kimi görür və bu baxımdan tarixi tərəqqinin kəsilməz olduğuna əmin idi. Belinskiy "Bəşəriyyətin inkişafında limit, son hədd yoxdur" deyir.[2]



V. Belinskiy

* * *

Tarix hansı istiqamətdə və necə hərəkət edir? Geriləmə, tərəqqi, təkrarlanma, düzxətli, birxətli, çoxxətli, spiralvari hərəkət, sıçrama (kvant) –bunlar qədimlərdən bu günə qədər səngiməyən, müxtəlif dövrlərdə tarixşünaslıqda, sosiologiyada, tarix fəlsəfəsində müzakirə olunan ideyalar və modellərdir (ad çəksək uzun siyahı alınardı). Tarixi dəyişmələri keyfiyyət baxımından təsnif edərkən əsasən üç nəzəriyyə önə çəkilir: ***tənəzzül*** - reqressiya (dəyişmələr vəziyyəti pisləşdirir, deməli köklərə, əvvələ qayıtmaq lazımdır), ***dövrilik*** və ya ***dairəvilik*** (tarix təkrarlanır, təkər kimi fırlanıb, tam dövr edib əvvəlki vəziyyətə qayıdır; yəni tarixilik yoxdur, baş verənlər sanki olanların, bu gün dünənin təkrarıdır) və irəliləmə, əsasında təkamülün dayandığı ***tərəqqi***.

Tarixi tərəqqi tərəfdarları bəşəriyyətin heyvani başlanğıcdan insaniliyə, özünüsevərlikdən cəmiyyətin qaydalarına riayət etməyə doğru uzun yol qət etdiyini, ideala doğru yolun arasıkəsilməzliyini və tükənməzliyini müdafiə edirlər. Digərlərinə görə tarix boyu insanda və cəmiyyətdə dəyişmələr baş verir, lakin bu dəyişmələr insani münasibətlər baxımından, mənəvi cəhətdən kamilləşmə ilə müşaiyət olunmur; dəyişiklik eninə və uzununadır, dərinliyi yoxdur. Gələcək bu gündən fərqli olacaq, görünür ki, mühüm dərəcədə yaxşı və ya pis olmaya bilər... Bəziləri cəmiyyətdə deqradasiyanın güclənməsini iddia edirlər. Həyatla dəyərlər arasında böyük məsafə, bəlkə də böyük uçurum var. Siyasət tarixi və fəlsəfəni üstələyir.

Tərəqqinin varlığını və gücünü hansı əlamətlərə görə müəyyən etmək olar? Bəlkə ümumilikdə həyat səviyyəsinin yüksəlməsi ilə? Maddi nemət-

[1] Клод Адриан Гельвеций. Сочинения в двух томах. Том 1, "Мысль", М., 1973: стр. 209-219

[2] В.Г. Белинский. Полное собрание сочинений в 13 т. М., Издательство Академии наук СССР, 1953–1959; см. 8 т., стр. 284

lərin artımı, orta ömür yaşının yüksəlməsi, azadlığın artması, təhsilin kütləviləşməsi, torpaq üzərində, suda və havada fəaliyyətdə olan dünya nəqliyyat şəbəkəsi kimi uğurlar tərəqqidən xəbər vermirmi?! Eyni nidalı sual vəba, taun, yatalaq, çiçək və vərəm kimi kütləvi xəstəliklərin müalicəsi, ümumiyyətlə, tibbi müalicənin uğurlarına (tam razı qalmasaq da, ölümə çarə umsaq da), elm və texnologiyanın inkişafına da aid edilə bilər. Sonuncu, yəni elmi və texnoloji inkişaf göz qabağındadır, aşkardır, mübahisə doğurmur, lakin bunun mənəvi tərəqqiyə təsiri mübahisə obyektidir. Bəs insanın qəsdən, bilə-bilə törətdiyi Hiroşima və Naqasaki nüvə faciəsi? Bəs çağdaş insan həyatının gərginliyi və depressiyalar? Bəs ətraf mühitin, biosferanın bəşəriyyəti böyük təhlükəyə salacaq dərəcədə çirklənməsi? Böyük Azərbaycan şairi **S. Vurğun**un dili ilə poetik ifadəsini tapmış sosialist dövrünün bir-birinə zidd iki düşüncə tərzinə fikir verək. Komsomol marşı: "Hücuma tanklarla keçir komsomol/Təbiət təslim ol, düşmən təslim ol!" (1933) və təbiətə qayğı və diqqət lazım gəldiyindən bəhs edən "Çinarın şikayəti": "Ömründə bir şitil, bir budaq belə/Mühəndis əkmişmi barı əlilə/Ki, mənibu boyda çinarı birdən/Qoparmaq istəyir durduğu yerdən?"(1936).


*S. Vurğun*

Tarixi baxımdan bəşəriyyətin nəhəng texnoloji tərəqqi əldə etmiş olması şübhəsizdir. Lakin insani dəyər baxımından bu, tərəqqinin qiymətləndirilməsi sadə iş deyil. Humanitar sahə dəyər yönlü olduğu üçün burada "tərəqqi varmı?" və "nə etməli?" sualları hələ aktuallığını qorumaqdadır. Bu iki sahənin, yəni texnoloji tərəqqinin və humanizmin birlikdə, əl-ələ verərək irəli getməsi, qoşa qanad taxıb pərvaz etməsi - əsl tərəqqi bu olardı... Əslində isə sənayeləşmənin, durmadan artan rəqabətin insan psixikasına mənfi təsir etdiyi düşünülür. Aqressivlik və stresin artdığı güman edilir. Siyasətdə beynəlxalq hüquq deyil, güc, ikili standartlar, lobbizm söz deyir..."Cəmiyyətin mənəvi əsasları elmi-texniki tərəqqi nəticəsində möhkəmlənmir, əksinə zəifləyir" fikri ortada dolaşmaqdadır (J.J. Rousseau`dan üzü bu yana). Burada din kömək edə bilərmi? İnsan ümidsiz yaşaya bilmir. Din insana ümid verir. Bu yeganə ümiddirmi? Sosial utopiyalar (bərabərlik, qardaşlıq,...), miflər, milli və digər kimlik duyğuları, sevgi və ailə hissləri bəşəriyyətə kifayət edəcək dərəcədə müsbət enerji bəxş edirmi? İrrasionalizmlə rasionalizm birlikdə xoş ahəng yarada bilərmi?

* * *

**Maarifçilik** dövrü tarixşünaslığa da töhfələr vermişdir, lakin bu tarixyazmanın məhdudluğu, birtərəfliliyi haqqında da danışılır. 18-ci əsr fransız maarifçiləri bəşəriyyətin irəliyə doğru hərəkət etdiyini söyləyirdilər (müvəqqəti geriçəkilmələr, yoldan sapmalar olsa da). Bu dövrdə ilahiyyat örtüyündən çıxan və insan əməllərini təsvir etməyə üz tutan tarixi təfəkkür yaranır və məhsul verirdi. Maarifçilər ilahi başlanğıc və səbəblərə cüzi yer ayırır və ya heç ayırmır, tarixi prosesi idrak və "sağlam düşüncə" ilə izah etməyə çalışırdılar. Voltaire, Didro və digər bir çox maarifçilər keçmişi səhvlərin, yanlışlıqların, cinayətlərin tarixi kimi görürdülər; fərqli düşünənlər də vardı. Təsadüflərin tarixdə mühüm rol oynadığını irəli sürməklə yanaşı tarixi prosesin müəyyən qanunauyğunluqlarını aşkar etmək istəyi və gələcəyə nikbin baxış xas idi maarifçiliyə. Keçmişin qaranlığını daşıyan cəmiyyəti yıxmaq və yeni ağıllı, normal cəmiyyət qurmaq arzusu ilə yaşayır, yaradır və hərəkət edirdilər. Antik çağı bəyənmək, ona bənzəməyə çağırmaq ("qədimlər" və ya "qədimçilər"), orta əsrləri, feodal dövrünü tam gerilik kimi qələmə vermək meyli xeyli güclü idi. Tarixi keçmişin mürəkkəbliyi, ziddiyyətləri tədqiqatlarda ciddi şəkildə irəli sürülmür, müzakirə edilmirdi. Lakin, ədəbiyyat və incəsənətdən fərqli olaraq, tarixşünaslıqda qədimçilik mütləq güc deyildi, antik dövrə tənqidi münasibət də vardı.


*Bernard Fontenelle*

**Bernard Fontenelle** (1657-1757) elmi biliklərin ona yaxın zamanda və yaşadığı dövrdə tərəqqisini və qədim dövrə ayıq gözlə baxmaq məsələlərini əlaqələndirirdi: "tərəqqini heç nə qədimlərə sitayiş qədər çox ləngitmir".[3] Tarixi tərəqqi haqqında ən çox düşünən və yazanlardan biri, bəzi müəlliflər tərəfindən

[3] А. Огурцов. Философия науки эпохи Просвещения. М., Наука, 1993; стр. 44

Fransada tarix fəlsəfəsinin banisi kimi qiymətləndirilən **A. R. Turgot** (1727-1781) idi. O, tarixə baxışını insan idrakının tərəqqisi ilə eyniləşdirir, insanın səhvlərində belə idrakın gerçək tərəqqisinin üzə çıxdığı fikrini müdafiə edirdi. A. R. Turgot iri dövləti və azadlığı maarif və incəsənətin inkişafında, dahilərin meydana çıxmasında vacib hesab edirdi. Ağıl və ədaləti bir-birinə sıx bağlı, az qala eyni sayır, ağlın tərəqqisinin mənəviyyatın kamilləşməsinə, həqiqətə, xeyir və humanizmə gətirib çıxaracağına inanırdı. Tam Avropamərkəzçi olan A. R. Turgot Asiya xalqlarının elmə münasibətinin həmişə mistik ruhda olduğunu iddia edirdi.[4]



*A. R. Turgot*

Tərəqqi ideyası tarixi prosesin kəsilməzliyini irəli sürür, maarifin yayılması və elmin inkişafı ilə cəmiyyətin get-gedə yaxşılaşacağına, saflaşacağına, ağlın, idrakın gücünə ümid bəslənilirdi. Maarifçilərin çoxu elmin mənşəyi, yaranması, hərəkətverici qüvvələri olaraq təbii-coğrafi səbəbləri göstərir, təsadüflərin və dahilərin həlledici rolunu qeyd edirdilər (bu, insanın və cəmiyyətin ənənəyə bağlılığını önə çəkən "historizm" cərəyanına tam tərs olan meyli –"antihistorizm"i əks etdirir). Səbəbiyyət ətraf mühitdə axtarılırdı, lakin bir çoxları (Voltaire, de Condillac,...) bunu mütləqləşdirməyə qarşı çıxırdılar (yazımızın əvvəlki hissələrində bu barədə yazmışdıq).

İdrakın tərəqqisi maarifçi tarixşünaslığın (o cümlədən tarixi dövrləşdirmənin) əsasında dayanırdı. Riyaziyyat xüsusi diqqət mərkəzində idi. Bu, empirizmdən fərqli nəzəri modellərin əsasında dayanırdı. Təbiətşünaslığın tarixi ilə tarix elminin üsulları arasında yaxınlıq axtarılırdı. Digər tərəfdən, qaynaqların tənqidi araşdırılması maarifçilərin ("Encyclopedia" müəlliflərinin) uğurlarından hesab edilə bilər. Universallaşdırma, sistemləşdirmə, ensiklopediyalaşdırma xas idi bu dövrə. Elmdəki böyük kəşf və sıçrayışları elmi inqilab adlandırmağa başladılar; bu, yeni forma, yeni hadisə idi (siyasi leksika elmi dilə daxil olurdu). Maarifçiliyi bəzən idrakın diktaturasi, universal dəyər və həqiqətə monopol baxış kimi də şərh edirlər.

* * *

Görkəmli riyaziyyatçı və filosof **Marie Jean Antoine Condorcet** (1743-1794) ümid edirdi ki, elmin tərəqqisi sənayenin inkişafına və insan ömrünün uzanmasına gətirdiyi kimi, idrak da insanları ideala gətirəcək. Millətlər və siniflər arasında bərabərsizlik, insanlar arasında sosial bərabərsizlik aradan qalxacaq və insan kamil olacaq. Bunun üçün hamıya eyni imkan yaradan ümumtəhsil sistemi yaradılacaq. Dini və mədəni səviyyə yüksələcək, irqçilik aradan çıxacaq, xəstəliyə və qocalığa görə təqaüdlər veriləcək, yoxsulluq və dəbdəbə aradan götürüləcək, qadınlar və kişilər arasında bərabərlik əldə ediləcək, müharibələr qadağan olunacaq, ticarət azad olacaq. Qeyd edək ki, bu düşüncələri o, Konvent tərəfindən haqqında həbs qərarı çıxdıqdan sonra, qaçıb gizləndiyi və ömrünün ölüm təhlükəsi ilə üzüzə dayanan son ilində qələmə almışdır (və sonra, həbsdə intihar etmişdir). Onun gələcəyə nikbin və parlaq baxışı vardı: "Günəş öz ağlından başqa heç bir ağanı tanımayan azad insanların məskən saldığı Yer üzünü işıqlandıracaq".[5]



*Marie Jean Antoine Condorcet*

Maarifçilər, o cümlədən Condorset tərəqqini mütləq olaraq sonsuz sayır, çünki insan ruhu özünə sərhəd qoya bilməz. Ağlın tam qələbə çalacağını iddia etmək sanki tarixin sonu, yəni ən mükəmməl dövrün əldə ediləcəyi ideologiyasına gətirib çıxarır, lakin tərəqqinin sonsuzluğu məntiqi baxımdan idealın əldə edilməyəcəyi fikri ilə həmahəng olur. Maarifçilərin bu baxışları həmçinin ağlın hökmü ilə tərəqqi edən, bir istiqamətdə artan tarixin gələcəyi öncədən görmə qabiliyyətinə malik olduğunu da iddia edir.

Qədimlərdən 20-ci əsrin əvvəllərinə qədər "elm və bilik artdıqca bəşəriyyətin qarşısında duran manеələr aradan qalxacaq, problemlər həll olunacaq" fikri hakim idi. Maarifçilik, rasionalizm, pozitivizm,...bunu deyirdi. Humanistlər insan təbiətinin nəcibliyi, alicənablığı fərziyyəsindən çıxış edir (bunu nə təsdiq, nə də təkzib etmək olmur), "insa-

[4]А. Огурцов. стр. 140-141

[5]А. Огурцов. стр. 174-175

na ləyaqət və ölçü hissi xasdır" fikrinə əsaslanırlar. V. Hugo "Səfillər" romanında Anjolrasın dilindən xoşbəxt gələcəyə böyük inam ifadə edir: "vətəndaşlar, 19-cu əsr böyükdür, amma 20-ci xoşbəxt əsr olacaq... Daha aclıq, əsarət, fahişəlik olmayacaq... Ümumxalq səadəti gələcək". Lev Tolstoy ümid edirdi ki, 20-ci əsrin insanları daha mehriban və sülhsevər olacaqlar və daha savaşlar olmayacaq... Darvin, Marks kimi mütəfəkkirlər, bir çox -izm və cərəyanlar hər gələn nəslin və bütövlükdə cəmiyyətin əvvəlkindən daha mükəmməl olacağını, həyatın daha firavan və daha ədalətli olacağını təsdiq etməyə çalışırdılar. Lakin "İnsan təbiətinin təkmilləşdirilməsi ilə humanitar sahədə tərəqqi əldə edilməsi mümkün deyil" kimi əks fikirlər də əsassız görünmür. 19-cu əsrin axırlarına yaxın və 20-ci əsrin əvvəllərində Nietzsche, Freud, Spengler kimi filosof və psixoloqların fikirləri irrasionallığın gücündən, artan gərginlikdən, idrakın büdrəməsindən xəbər verirdi. Ədalətsizlik ortadan qalxmır. Nietzsche`nin "Allah öldü" tezisi və yaxın gələcəkdə bəşəriyyətin böyük fəlakətlə üz-üzə dayanacağı barədə öngörmələri təlaş doğururdu: "bizim bütün Avropa mədəniyyətimiz artıq uzun zamandır ki, bir əsrdən o biri əsrə keçdikcə artan bir gərginlik əzabı içində hərəkət edir və sanki fəlakətə doğru gedir".[6]

Zərdüştdə olduğu kimi bəlkə həyat, tarix doğrudan da xeyirlə şərin daimi mübarizəsindən ibarətdir? S. Vurğunun "İnsan" dramında filosof Şahbazın dilindən ortaya atılmış "Qalib gələcəkmi cahanda kamal?" sualının cavabı varmı? Əlac gözləməkdirmi? Deyirlər həqiqət nüfuzun, gücün deyil, zamanın övladıdır, yəni zaman hər şeyə aydınlıq gətirəcək. Lakin bəşər övladı mühüm məsələləri zamanın öhdəsinə buraxmaq istəmir...

* * *


*Immanuel Kant*

Fəlsəfəni yeni yüksək səviyyəyə qaldıran **Immanuel Kant** (1724-1804) təcrübə ilə idrak arasındakı münasibəti təhlil etdi. Kanta görə idrak təcrübədən qidalanmayıb, ondan şəkillənməyib, əksinə, təcrübə dünyası idrakın apriori mövcud olan və dəyişməyən forma və kateqoriyalarından formalaşıb. Tərəqqi isə maksimum azadlıq əldə etməyə yönələn təməl insan haqlarının başqalarının haqları ilə tarazlığı nəticəsində baş verir. Buna əməl etmək üçün "kamil mülki konstitusiya" yaradıb həyata keçirmək zəruridir. Tərəqqinin baş tutması səbəbi insan təbiətinə xas olan antaqonizmdir; insan bir tərəfdən başqaları ilə ünsiyyətdə olmaq ehtiyacı duyur (yaşamaq, sağ qalmaq, iş görmək, inkişaf etmək üçün), digər yandan isə o, ürəyindən keçən hər şeyi əldə etmək üçün başqalarından ayrılmaq, özünü təcrid etmək istəyir. İnsanlarla yaşamaq olmur, insanlarsız da yaşamaq olmur. Bu beynəlxalq səviyyədə də baş verir, dövlətlər öz maraqlarını güdür, ancaq başqa dövlətlərlə bərabər iş görməyə məcbur-durlar. Buna görə bir dövlət öz işinin düz getməsi üçün o birinin işinin düz getməməsini istəyir (və buna çalışır – üzdə deməsə də), lakin müəyyən güzəştlərə də getməli olur.

Qədim şahmat oyunu burada Kantın söylədiklərini nümayiş və təsdiq edən gözəl model rolunu oynaya bilər. Şahmat hər iki tərəfin-rəqiblərin qarşıya qoyduqları məqsədə (qələbə çalmaq, mümkün olmasa - uduzmamaq) çatmaq üçün aparılan mübarizəsidir. Oyunun strategiya və taktikası bu məqsədə çatmaq üçün düşünülmüş vasitələrdən ibarətdir.

Kanta görə tarix tərəqqinin tarixidir. Tarixçinin vəzifəsi hazırkı vəziyyətin, indinin necə əmələ gəldiyini göstərməkdir. İnsan rasionallığı, intellekt mənəvi azadlığa can atır, tarix bunu inkişaf etdirir. İnsan irrasionallığı – onun təbiətindəki ehtiras, eqoizm, cahillik də bu inkişafı həyata keçirən əsas vasitə və qüvvədir. İnsan başqaları üzərində hakim olmaq istəyir. İnsanın öz vəziyyətindən narazılığı tərəqqinin əsasıdır. Goethe bu fikri poetik şəkildə ifadə edir: dünya ona müqavimət göstərənlərin sayəsində irəli gedir. Kant tarixi siyasi təkamülün tədqiqi hesab edirdi. Keçmiş irrasionaldır, gələcək daha azad olacaq, tarix insan ruhunun inkişaf tarixidir.[7]

***(davam edəcək)***

[6]"Hakimiyyət iradəsi"nə girişdən

[7]R. G. Collingwood. The Idea of History: With Lectures 1926-1928. Oxford University Press, 1994; Chapter 3.3, pp. 93-103)

## NEFT MÜHƏNDİSLƏRİ CƏMİYYƏTİNİN XƏZƏR UNİVERSİTETİ TƏLƏBƏ BÖLMƏSİNİN HESABAT-SEÇKİ YIĞINCAĞI

Mayın 26-da Neft Mühəndisləri Cəmiyyətinin Xəzər Universiteti Tələbə bölməsinin illik hesabat-seçki yığıncağı keçirilmişdir. Tələbə bölməsinin prezidenti Faiq Məmmədovun illik hesabatı dinlənilmiş və uzun müzakirələrdən sonra keçən dövr üçün bölmənin fəaliyyəti kafi qiymətləndirilmişdir. Sonra Tələbə bölməsinin yeni tərkibi seçilmişdir. Kənan Xasməmmədov prezident, Nurlan Mikayılov vitse-prezident seçilmişlər.

Tədbirdə Xəzər Universiteti Neft Mühəndisliyi Departamentinin müdiri dosent (Associate Professor) Qəşəm Zeynalov iştirak etmişdir.




## BİR DAHA "ƏLİ VƏ NİNO" HAQQINDA

Mayın 26-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Azərbaycan Dillər Universitetində "Əli və Nino" əsərinə həsr olunmuş görüşə ekspert kimi dəvət olunmuşdu. O, əsərin xüsusiyyətləri və güman edilən müəllifləri haqqında geniş danışdı və suallara cavab verdi.

## EURAS-IN BAŞ ASSAMBLEYASININ ÜMUMİ YIĞINCAĞINA DƏVƏT

Avrasiya Universitetlər Birliyinin (EURAS) prezidenti Mustafa Aydın iyunun 29-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya və universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyliyə məktub göndərərək, EURAS-ın iyunun 25-də İstanbulda keçirilmiş I qurultayının işində fəal və səmərəli iştiraklarına görə onlara təşəkkürünü bildirmiş, eyni zamanda, onları EURAS Baş Assambleyasının bu il oktyabrın 25-də İstanbulda keçiriləcək ümumi yığıncağına dəvət etmişdir.

## "ACCESS BANK" VƏ SMART-IN BİRGƏ LAYİHƏSİNİN TƏQDİMATI

AccessBank

İyunun 1-də Xəzər Universiteti Peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə universitetdə "Access Bank" və SMART təhsil-təlim şirkətinin birgə layihəsinin (SMART-da təhsil-təlim keçənlərin bank tərəfindən təşviq edilməsi) təqdimatı keçirildi. Xəzər Universiteti Peşə inkişaf mərkəzinin koordinatoru İsgəndər Ağayev tədbiri açaraq, sözü layihənin koordinatoru "Access Bank"ın nümayəndəsi Könül Qurbanovaya verdi. O, tələbələrə layihə haqqında geniş məlumat verdikdən sonra, SMART şirkətinin rəhbəri Sərxan Məmmədov digər layihələr və Xəzər universiteti ilə gələcək əməkdaşlıqla bağlı məsələlərdən danışdı. Tədbirdə fəal iştirak edən tələbələrə "Access Bank"ın plastik kartları verildi. Sonda tələbələrin sualları cavablandırıldı.

AVRASİYA ƏMƏKDAŞLIQ FONDU

## AVRASİYA ƏMƏKDAŞLIQ FONDUNUN RƏHBƏRLİYİ İLƏ GÖRÜŞ

İyunun 2-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Avrasiya Əməkdaşlıq Fondunun (EPF) prezidenti Corc Zarubini, Qafqaz Tədqiqat və Resurs Mərkəzi (CRRC) üzrə regional direktorun müavini Robia Çarlzı və CRRC-nin Azərbaycan üzrə ölkə direktoru Gürsel Əliyevi qəbul etdi. EPF və Xəzər Universiteti arasında əməkdaşlıq artıq uzun illərdir ki, davam edir və hər iki tərəf bundan öz məmnunluğunu ifadə etdi. Müzakirənin əsas mövzusu EPF və Xəzər Universiteti arasında gələcək əməkdaşlığın perspektivləri idi. Görüş irəli sürülən yeni ideyalar və yaxın gələcək üçün əməkdaşlıq yolları baxımından çox məhsuldar oldu. Tərəflər irəli sürülmüş ideyaların inkişaf etdirilməsi və yeni layihələrin işlənib hazırlanması məqsədilə müntəzəm olaraq görüşlər keçirmək barədə razılığa gəlmişlər.

# MİLANDA TÜRKDİLLİ DÖVLƏTLƏRİN GƏNC RƏSSAMLARININ SƏRGİSİ

*İyunun 17-də Milanda TÜRKSOY-un təşəbbüsü və bu şəhərdə fəaliyyət göstərən Azərbaycan Mədəniyyəti Assosiasiyasının dəstəyi ilə türkdilli dövlətlərin gənc rəssamlarının sərgisi açılmışdır*



Azərbaycanın İtaliyadakı səfirliyindən AzərTAc-a bildirmişlər ki, sərgidə türkdilli ölkələrdən 30 rəssamın 40 əsəri nümayiş etdirilir. Bu sərgidə Azərbaycan 3 gənc rəssam - Rəşad Mehdiyev, Məmmədhüseyn Hüseynov və Murad Allahverdiyevlə təmsil olunmuşdur.

Sərginin açılış mərasimində TÜRKSOY-un baş katibi Düsen Kaseinov çıxış edərək, təşkilatın yaranma tarixi və fəaliyyəti haqqında danışmışdır. Baş katib, həmçinin, sərginin qonaqlarına burada nümayiş etdirilən əsərlər və onların müəllifləri barədə məlumat vermişdir.



D.Kaseinov bu cür tədbirlərin Avropanın mədəniyyət və incəsənət mərkəzi olan İtaliyada keçirilməsinin italyan və türk xalqları arasında mövcud olan dostluq əlaqələrinin daha da möhkəmləndirilməsinə xidmət etdiyini bildirmiş, istedadlı gənclərə dəstək verməyin vacibliyini qeyd etmişdir.

Mərasimdə Azərbaycanın İtaliyadakı səfirliyinin əməkdaşları da çıxış edərək, sərginin təşkilinə görə TÜRKSOY-un baş katibi Düsen Kaseinova, tədbirin təşkilatçılarına və qonaqlara təşəkkür etmişlər.



Sərginin rəsmi açılışından sonra Milandakı Azərbaycan Mədəniyyəti Assosiasiyasının rəqs qrupunun italiyalı gənc üzvləri türk xalqlarının rəqslərini ifa etmişlər.

Tədbirdə İtaliyanın mədəniyyət, incəsənət və elm xadimləri, yerli hakimiyyət orqanlarının nümayəndələri, bu ölkədə fəaliyyət göstərən türkdilli dövlətlərin diplomatları, Milan şəhərində yaşayan azərbaycanlılar iştirak etmişlər.

Sərgi iyulun 3-dək Milanda, daha sonra Florensiya və Venesiya şəhərlərində davam edəcəkdir.

# KÖLNDƏ ORQAN İFAÇISI RƏNA İSMAİLOVANIN KONSERTİ

İyunun 25-də Almaniyanın Köln şəhərinin Sankt-Pantaleon kilsəsində azərbaycanlı orqan ifaçısı Rəna İsmailovanın növbəti konserti olmuşdur. Konsertin proqramına tanınmış Qərb bəstəkarlarından İohann Sebastyan Bax, Edvin Lemare, Arild Sandvoldun əsərləri ilə yanaşı ifaçı tərəfindən tədqiq edilərək aşkara çıxarılan və alman dinləyicisi tərəfindən az tanınan Raul Qrigi, Jules Benty, Artur Colinet kimi bəstəkarların da əsərləri daxil edilmişdi. Konsert böyük müvəffəqiyyətlə keçmişdir.

Almaniyadakı Azərbaycanlıların Əlaqələndirmə Mərkəzinin əməkdaşları konsertdə iştirak etmişlər.

# "MƏN EVƏ QAYIDIRAM" FİLMİNİN ÇƏKİLİŞLƏRİ BAŞA ÇATIB





Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə "Salnamə" kinostudiyasında istehsal olunan "Mən evə qayıdıram" filminin çəkilişləri başa çatıb. Müdafiə Nazirliyinin yardımı ilə ərsəyə gələn film hərbi-vətənpərvərlik mövzusundadır.

Filmin quruluşçu rejissoru Samir Kərimoğlunun APA-ya verdiyi məlumata görə, ekran əsəri Azərbaycanın ən çətin illərində rus ordusunda xidmət edən Tərlan Seyidzadənin qəhrəmanlıq hekayəsindən bəhs edir: "Bu film Tərlanın simasında Azərbaycanın şəhid olmuş bütün igidlərinin şərəfinədir".

"Mən evə qayıdıram" filmində canlı səsyazma sistemindən istifadə olunub. Rejissor deyib ki, dünyanın qabaqcıl kino ölkələrində istifadə olunan bu sistem indiyədək Azərbaycanda çox az tətbiq edilib: "Çəkiliş zamanı canlı səs yazmaq həm çətin, həm də bahalı işdir. Bu, çəkilişin müddətini iki qat uzadır. Filmdə xarici aktyorlar da rol aldığından bu sistemdən istifadə qaçılmaz idi".

Qeyd edək ki, çəkilişləri Quba, Sitalçay, Kürdəmir, Xızıda aparılan filmdə xalq artistləri Yaşar Nuri (Ağasəlim), Fuad Poladov (müstəntiq Səlimov), Emil Bədəlov (Tərlan Seyidzadə), Murad Abdullayev (leytenant Fərhad Məmmədov), Kamran Ağabalayev (mayor Savalyev), Yaqub Hüseynov, Vladimir Yakovlev, Katerina Fedorova, Anna Kostenka çəkiliblər. "Mən evə qayıdıram" filminin ssenari müəllifi İsmayıl Səfərəliyev, icraçı prodüseri Nazim Hüseynov, direktoru Mahir İbrahimov, quruluşçu operatoru Ayxan Salar (Almaniya), quruluşçu rəssam Əziz Məmmədovdur.







# BEYNƏLXALQ MUSİQİ MÜSABİQƏSİNİN 8 YAŞLI QALİBİ

*Səkkiz yaşlı azərbaycanlı Züleyxa Abdullayeva Pyetro Arcento adına XIV Beynəlxalq Musiqi Müsabiqəsinin qalibi seçilib*

Azərbaycan Milli Konservatoriyasının nəzdində İncəsənət gimnaziyasının şagirdi Z. Abdullayeva fortepianoda ifa üzrə öz yaş kateqoriyasında qalib olub. Baxın "Kiçik Prelüdiya", Şopenin "Mazurka", Klementin "Sonatina" kimi musiqi əsərlərini ifa edən Z.Abdullayeva öz rəqiblərini arxada qoyub. Qeyd olunub ki, Z. Abdullayeva 100 mümkün baldan 96-nı yığmaqla Avropanın musiqi arenasında Azərbaycanın imicini dəstəkləməyə imkan verib. Bu qalibiyyət sayəsində Z.Abdullayeva, həmçinin, Pyetro Arcento adına təqaüdə də layiq görülüb.

Z.Abdullayeva deyib ki, bu qələbə İncəsənət Gimnaziyasında fortepiano sənətini öyrənməyə ona yardım edən musiqi müəlliməsi Nigar Nəcəfzadənin səyləri sayəsində mümkün olub.

Beynəlxalq müsabiqədə İtaliya, Almaniya, Cənubi Koreya, Niderland, Türkiyə, Polşa, Sloveniya və s. ölkələrin təmsilçiləri iştirak edib.

# «ДУНЬЯ» ЕДИНСТВЕННАЯ В АЗЕРБАЙДЖАНЕ ШКОЛА, ИМЕЮЩАЯ СТАТУС IB»

*Уважаемые пользователи Disput.Az! Мы рады сообщить Вам о продолжении нового проекта нашего портала «Гость Disput.Az». Итак, сегодня мы представляем вашему вниманию нашего очередного гостя.*

*Приветствуем на Disput.Az Наилю Исаеву – соучредителя школы «Дунья» при Университете Хазар и консультанта Совета Директоров и Попечителей Университета Хазар.*



**Представляем вашему вниманию информацию о Наиле ханум:**

*Наиля Исаева родилась 29 мая 1947 года в Губе. Окончила институт русского языка имени 50 - летия СССР (нынешний Славянский Университет), работала в особом конструкторном бюро Института Математики и Механики Академии Наук Азербайджана, преподавала русский язык в средних школах и Университете Хазар. Наиля ханум является соучредителем школы «Дунья» и консультантом Совета Директоров и Попечителей Университета Хазар.*

*В январе 2009 года школа «Дунья» под ее руководством получила международный статус İB и стала членом организации IBO (İnternational Baccalaurate Organization).*

*Наряду с этим, Наиля ханум является композитором ряда популярных песен в исполнении Флоры Керимовой, Бриллиант Дадашевой, Мананы Джапаридзе, Ильгар Мурадова, Самир Джафарова, группы «Kristal» и т.д.*

*Наиля Исаева является супругой Гамлета Исаханлы – учредителя Университета Хазар и матерью четырех дочерей.*

**Наиля ханум Исаева:**

- Здравствуйте уважаемые участники форума! Рада встретится с Вами на страницах популярного форума Disput.Az. Буду рада стараться отвечать на все интересующие вас вопросы.

*- Привет, Наиля ханум! Рада видеть вас здесь. У меня несколько вопросов.*

*1.Где находится ваша школа?*

*2.Обучение у вас платное?*

*3. Чем отличается ваша система образования от других? Спасибо.*

- Здравствуйте! Спасибо за вопросы. Буду отвечать по одному.

1. Наша школа находится по адресу улицы Алатава 2. Вот ссылка где указана карта проезда к школе «Дунья»: http://www.khazar.org/dunya/maps.htm

2. Да. Естественно, что, будучи частным образовательным учреждением, мы предоставляем свои услуги на платной основе.

3. Школа «Дунья» отличается от других общеобразовательных школ в хорошем смысле этого слова. Каждый ученик для нас не только просто ученик, мы относимся к нему, как к своему ребенку. Поверьте, это не просто громкие слова. А факт. Для нас это важный момент.

В школе «Дунья» программа обучения также отличается. Мы всегда вносим в него свою лепту. Есть предметы, которые мы сами внедряем в программу обучения в целях сделать ее интересной для учащихся. Только у нас ученик сидящий в классе не просто «слушатель», а «участник» процесса. Ученик должен быть не менее активным, чем учитель на уроке. Самое важное то, что, обсуждая, задавая вопросы, у ученика сформировывается свое мнение по тому или иному вопросу.

Иная важная сторона вопроса - это серьезный подход школы к воспитанию учащихся. Здесь не в зависимости ни от чего, каждый ученик имеет равные права и о нем заботятся ровно столько же, сколько за его товарищем, сидящим с ним за одной партой.

Самое большое преимущество школы «Дунья», это то, что мы имеем аккредитацию IBO (The International Baccalaureate Organisation).

В настоящее время школа «Дунья» единственная в Азербайджане школа, имеющая этот статус – статус İB. Выпускники школы получают и диплом IB и общегосударственный аттестат. Выпускников с дипломом IB в качестве студентов принимают многие, в том числе и ведущие университеты мира без экзаменов или путем собеседования.

*- Здравтсвуйте, Наиля ханум. Хотелось бы узнать, может ли ребенок перейти в вашу школу из другой общеобразовательной школы в 6-ом классе?*

- Конечно, может. Данный процесс происходит путём тестирования, по итогам которого рассматривается возможность перевода ребёнка в школу «Дунья».

*- Салам! Насколько я знаю, наряду с учредительством вы ранее также являлись директором школы «Дунья». Помните ли вы тот день, когда впервые переступили порог школы в качестве директора? Какие планы строили в качестве директора?*

- Естественно помню. Планы и задачи мы ставили перед собой колоссальные. Долго трудились всем коллективом и, слава Богу, уже наблюдаем успешную реализацию многих проектов и планов.

*- Наиля ханум здравствуйте, как попасть к Вам на прием, когда у вас приемные дни/время?*

- Для того чтобы, попасть на прием, достаточно позвонить в школу и зарегистрироваться. Всю необходимую информацию Вы получите, позвонив на номера (012) 431 57 81; (012) 431 26 38; (050) 508 12 23.

*- А вакансии на работу будут обьявлены?*

- По поводу вакансий вы можете получить всю интересующую вас информацию, позвонив к нам в школу по вышеуказанным номерам: (012) 431 57 81; (012) 431 26 38; Спасибо за заинтересованность!

*- Наиля ханум, салам! Сама заканчивала «Хазар» и очень довольна системой образования. Сейчас подумываем о вашей школе для дочурки, ей пока 5, но все же планируем вперед... Можете вкратце о вашей системе обучения в школе, до скольких ребенок находится в школе и оплата месячная? С уважением.*

- Спасибо, будем рады принять вашу дочку в нашу школу в качестве второго поколения нашего выпусника. Мы можем принять Вашу дочку на подготовительные курсы с 5-летнего возраста. В целом набор детей в дошкольные группы начинается с 3-5 лет. Занятия проводятся с 9 до 16.00. Школа имеет свои автобусы, которые привозят и отвозят детей в школу и домой.

Мы понимаем, что многие родители работают до 18.00. В этом случае, написав заявление, родитель обращается к администрации школы о продлевании пребывания его ребенка там. Для таких детей мы можем создать отдельные группы.

Что касается оплаты, то эти нюансы можно обговорить, обратившись в школу. Так как у нас разные ценовые пакеты.

*- Наиля ханум, здравствуйте! Очень хо-*

*рошие отзывы слышу о вашей школе и, следует отметить, что, в целом, это является вашей заслугой. Наиля ханум, у меня вот такой вопрос:- Проводится ли в данный момент набор преподавателей в школу? Долгое время работал в одной из ведущих частных школ в столице. Являюсь преподавателем по компьютерной грамотности. Спасибо заранее.*

- Благодарю за приятные слова. Как я отмечала и ранее прием учителей на работу в нашу школу осуществляется постоянно. Мы всегда рады квалифицированным кадрам в нашей школе. Позвоните к нам в школу.

*- Здравствуйте, Наиля ханум! У меня к вам несколько вопросов:*

*1. В чем, по вашему мнению, состоит главная задача директора образовательного учреждения? Как считаете, это – менеджер или все-таки учитель?*

*2. Какова кадровая политика в школе "Дунья"? Много ли в последнее время приходит молодых кадров в школу? Как вы считаете, кого, лучше всего привлекать для такой работы?*

*3. Насколько квалификация современных молодых преподавателей позволяет, надеется на достойный уровень будущих экспертов в области образования?*

- Здравствуйте! Спасибо за вопросы. Буду отвечать по одному.

1. По моему мнению, директор школы, прежде всего менеджер, но по образованию он все таки - учитель. Исходя из этого, можно смело сказать, что директор школы это менеджер и учитель в одном лице. Я бы еще добавила сюда и слово "психолог". Так как директор школы как истинный менеджер должен знать психологию людей. Без этих качеств невозможно построить успешную деятельность образовательного учреждения.

2. Кадровая политика школы весьма прозрачна. И мы отдаем предпочтение молодым специалистам. Но, при этом, проводится тщательный отбор, им проводятся тренинги со стороны более опытных учителей и прививается педагогическое мастерство.

3. Мы выбираем лучшие из лучших. Это позволяет надеется на успешный исход дела.

*- Вы не могли бы рассказать подробнее об учебных планах вашей школы? Какие предметы в них входят? Есть ли у вас возможность обеспечить индивидуальные учебные планы для ваших учеников?*

- В первую очередь, скажу то, что мы придерживаемся общеобразовательного плана министерства образования Азербайджана. Но, в школе "Дунья" есть свой подход к этому вопросу. Например, мы сами внесли в программу такой предмет как "Этика", дополнительные иностранные языки (арабский, французский, русский), обучения игры в шахматы. Есть также факультативные занятия по классической музыке, танцам и хор. И что, главное, все эти предметы преподают профессионалы своего дела.

*- Как вы думаете, какие сейчас есть проблемы в школах Азербайджана?*

- Спасибо за вопрос. По моему мнению, основная проблема азербайджанских школ сегодня заключается в первую очередь, в слабой материально-технической базе, устаревшей методике преподавания, порою в безграмотных учебных пособиях. Конечно, нельзя отрицать усилия Фонда Гейдар Алиева и министерство образования по поводу оснащения общеобразовательных школ. Но, вместе с тем, еще много предстоит сделать. Другая проблема – это низкая зарплата учителей. Надеюсь, что в ближайшем будущем эти проблемы будут решены и азербайджанская школа станет примером для многих образовательных учреждений зарубежных стран.

*- Какой Вы бы хотели видеть школу завтрашнего дня?*

- Благодарю за вопрос. Для меня "школа завтрашнего дня" – это школа, где работают истинные профессионалы своего дела и которая имеет самую хорошую материально-техническую базу, современные методы обучения, усовершенствованную систему управления. Я считаю, что школу с такими качествами, можно назвать «хорошей».

## BVF-NİN İLK QADIN PREZİDENTİ

*İyunun 28-də Fransanın maliyyə naziri Kristin Laqard Beynəlxalq Valyuta Fondunun (BVF) yeni prezidenti seçilib*



BBC-nin verdiyi məlumata görə, 55 yaşlı Kristin Laqard BVF-yə rəhbərlik edən ilk qadındır. Bu post uğrunda Argentina Mərkəzi Bankının rəhbəri Aqustin Karstens də mübarizə aparıb. Ancaq ölkələrin əksəriyyəti müzakirələr zamanı Kristin Laqardı dəstəkləyib. Kristin Laqard BVF-də islahatlar aparacağını, inkişaf etmiş ölkələrin qurumdakı təmsilçilərinin sayını artıracağını vəd edib. O deyib ki, BVF-nin nüfuzunu artırmağa və dünya iqtisadiyyatının stabilləşməsinə çalışacaq.

BVF-nin bundan əvvəlki prezidenti Dominik Stross-Kan bu ilin mayında zorlamada günahlandırıldığı üçün istefa verib.

## «DƏMİR LEDİ» ZİREHLİ MAŞINDA GƏZƏCƏK

*Marqaret Tetçerın hədələr aldığı bıldırılır*



Milli.Az xəbər portalı «The Guardian»a istinadən bildirir ki, Böyük Britaniyanın sabiq baş naziri, 85 yaşlı Marqaret Tetçerə hökumət zirehli avtomobil verib. Skotland-Yard hesab edir ki, Şimali İrlandiya terrorçularının təhdidlərinin artması ilə bağlı olaraq belə addım zəruridir.

«Dəmir Ledi»nin sutkaboyu mühafizəsi də xeyli gücləndiririlib. Şimali İrlandiyadakı Meys həbsxanasındakı məşhur aclıq aksiyasının 30-cu ildönümü ilə bağlı olaraq terror hücumları gözlənilir. Həmin aclıq aksiyasında İrlandiya Respublika Ordusunun (İRA) 10 yaraqlısı vəfat etmişdi.

Həmin aclıq aksiyası zamanı Tetçer çoxsaylı çağırışlara rəğmən ekstremistlərin tələblərini yerinə yetirməmiş, özlərini siyasi məhbuslar adlandıran şəxslərin Lisbern şəhəri yaxınlığındakı həbsxanadakı saxlanma şərtlərinin yaxşılaşdırılması barədə göstiəriş verməmişdi.

«Cinayət cinayətdir və konkret halda məsələnin siyasi aspekti yoxdur», - Tetçer demişdi.

İRA və İrlandiya Milli-Azadlıq Ordusunun yaraqlıları Tetçerlə onun ən yaxın tərəfdaşlarına dəfələrlə hücumlar ediblər.

Avtomobillərdə qoyulmuş bombalardan Britaniya İcmalar Palatasının deputatları Eyri Niv və Yen Qou həlak olublar.

## ABŞ TARİXİNDƏ ƏN BÖYÜK ƏFV...

*Kaliforniya həbsxanalarında yer olmadığı üçün 45 min məhbus azadlığa buraxılıb*



ABŞ-ın Kaliforniya ştatında həbsxanada yer olmadığı üçün məhkumları əfv ediblər.Lent.az-ın "trtazerbaycan.com" saytına istinadən verdiyi məlumata görə, Ali Məhkəmə həbsxanalardakı sıxlığı azaltmaq üçün minlərlə məhkumun azadlığa çıxmasına qərar verib.

Bu, ABŞ tarixindəki ən böyük əfv qərarıdır. Kaliforniya ştatında cinayətlərin hər gün artması həbsxanaların dolmasına səbəb olub. Bir çox həbsxanalarda məhkumların az qala üst-üstə yaşaması hüquq müdafiəçilərinin şikayətlərinə səbəb olub. Məhkəmə bu səbəbdən həbs müddəti qısa olan 45 min civarında məhkumu azadlığa buraxmağı qərara alıb.

# "NEW YORK TİMES" QƏZETİNİN İLK QADIN REDAKTORU



*ABŞ-da çıxan nüfuzlu "New York Times" qəzetinin baş redaktoru ilk dəfə qadın olacaqdır*

Cil Abramson vəzifəsinin icrasına sentyabr ayında başlayacaqdır. Bu vəzifədə Billi Kelleri əvəzləyəcək Cil Abramson 2003-cü ildən onun müavinlərindən biridir. Keller isə "New York Times Magazine" jurnalının ştatlı əməkdaşı işləmək niyyətindədir.

"New York Times Co" holdinqinin direktorlar şurasının sədri oğul Artur Sultsberger bildirmişdir ki, Kellerin istefaya getmək qərarını dolaşıq hisslərlə qarşılamışdır, lakin Abramson onun əla əvəzi olacaqdır.

"New York Times" qəzeti 1851-ci ildə jurnalist və siyasətçi Henri Carvis Reymond tərəfindən yaradılmışdır. Hazırda populyarlığına görə "The Wall Street Journal" və "USA Today" qəzetlərindən sonra üçüncü yeri tutur, hər gün təxminən 1,1 milyon tirajla çıxır.

# NARKOTİKLƏRLƏ MÜHARİBƏDƏ MƏĞLUBİYYƏT

*BMT narkotiklərlə müharibədə məğlub olduğunu etiraf etmişdir*

Narkotik vasitələr haqqında Ümumi Cenevrə Konvensiyasının ratifikasiyasının 50 illiyini və ABŞ Prezidenti Nikson tərəfindən elan edilmiş "Narkotiklərlə müharibə"nin 40-cı ildönümünü qeyd edən Birləşmiş Millətlər Təşkilatı etiraf etmişdir ki, bu illər ərzində əbəs yerə qüvvə və vəsait sərf etmişdir və görünür, ağ bayraq qaldırmaq zamanı yetişmişdir.

BMT-nin 19 nüfuzlu şəxsiyyətdən ibarət qlobal komissiyası bildirmişdir ki, ABŞ-ın başçılığı ilə narkocinayətkarlığa qarşı müharibə məğlubiyyətlə nəticələnmişdir.

Komissiya bildirmişdir ki, son 40 ildə sağlamlıq istiqamətində heç nə dəyişməmiş, trilyonlarla pul boş yerə xərclənmiş, BMT-nin üzvü olan ölkələrin əksəriyyətində narkoasılılığın səviyyəsi yüksəlmiş, təkcə opioidlərin istehlakı 10 il ərzində 35 faiz artmışdır.

1971-ci ildə Riçard Nikson tərəfindən başlanmış və o dövrdə qadağan edilmiş psixotrop maddələrlə ticarətin kökünün qlobal miqyasda kəsilməsinə istiqamətlənmiş uzunmüddətli kampaniya sonda, xüsusən, Braziliya, Meksika və Kolumbiya kimi regionlarda meyit qalaqları ilə müşayiət olunan narkocinayətkarlığın görünməmiş vüsət almasına gətirib çıxarmışdır.

Braziliyanın sabiq prezidenti Fernandu Kardozu demişdir: "Gəlin, nəhayət, narkotik asılılığına kriminal hadisə kimi deyil, tibbi problem kimi yanaşaq, səmərəli maarifləndirmə fəaliyyətinin köməyi ilə narkotiklərə tələbatı azaldaq, çətənənin kriminallaşdırılmasına son qoyaq, onun istehsalını və istehlakını qanunverici qaydada tənzimləyək".



Məruzəni hazırlamış komissiyanın tərkibinə Braziliya, Meksika, Kolumbiya və İsveçrənin sabiq prezidentləri, habelə yazıçı Karlos Fuentes, İsveçrənin keçmiş lideri Rut Dreyvus, Yunanıstanın Baş naziri Georgi Papandreu, BMT-nin sabiq baş katibi Kofi Annan daxildir.

Rut Dreyvus bildirmişdir ki, narkotiklərdən asılı olanlara cinayətkar kimi deyil, səhhəti pozulmuş insanlar kimi baxan Avropa İttifaqı ölkələri, Kanada və Avstraliyada vəziyyətin sabitləşməsi yasaq siyasətinin yumşaldılmasının xeyli üstünlükləri olduğunu nümayiş etdirir.

# İTALİYALI DİPLOMAT LAMBERTO ZANNYER ATƏT-İN BAŞ KATİBİ TƏYİN EDİLMİŞDİR

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Baş katibi vəzifəsinə italiyalı diplomat Lamberto Zannyer təyin edilmişdir. Hazırda ATƏT-də sədrlik edən Litvanın Xarici İşlər Nazirliyində bu faktı iyunun 30-da təsdiq etmişlər.

Zannyer bu vəzifədə səlahiyyət müddəti başa çatan fransız Mark-Perren de Brişambonu əvəz edəcəkdir.

Litvanın xarici işlər naziri Audronyus Ajubalis demişdir: "Sevinclə bildirirəm ki, ATƏT üzrə həmkarlarım – xarici işlər nazirləri və mən hərtərəfli müzakirələrdən sonra bu mühüm təşkilatın rəhbəri vəzifəsinə Lamberto Zannyeri seçdik".

Nazir demişdir ki, təhlükəsizlik məsələlərinin həlli, ilk növbədə dondurulmuş münaqişələrin nizamlanması, eləcə də Əfqanıstan və Şimali Afrika ölkələri də daxil olmaqla tərəfdaş dövlətlərin dəstəklənməsi baxımından indi ATƏT üçün çox mühüm məqamdır.

L.Zannyer 2002-2006-cı illərdə ATƏT-in Münaqişələrin Qarşısının Alınması Mərkəzinə rəhbərlik etmiş, 2008-ci ildən sonra isə BMT-nin Kosovodakı xüsusi nümayəndəsi olmuşdur.

# DÜNYANIN ƏN NÜFUZLU ŞİRKƏTLƏRİ

*"Reputation Institute" şirkəti iyunun 9-da dünyanın ən nüfuzlu şirkətlərinin reytinqini açıqlayıb*

Lent.az-ın "Korresponden.biz" saytına istinadən verdiyi məlumata görə, ilk iki yeri ABŞ-ın "Google" və "Apple" şirkətləri tutur.

Ən nüfuzlu şirkətlərin reytinqində ilk beşliyə "Disney" (ABŞ), "BMW" (Almaniya) və "LEGO" (Danimarka) da daxildir. Sonrakı yerlərdə isə "Sony" (Yaponiya), "Daimler" (Almaniya), "Canon" (Yaponiya), "İntel" (ABŞ) və "Volkswagen" (Almaniya) gəlirlər.

# DÜNYA NEFT EHTİYATLARININ 57%-İ ƏRƏB ÖLKƏLƏRİNDƏDİR

*Dünya neft ehtiyatlarının yarıdan çoxuna ərəb ölkələri nəzarət edir*




OPEK-in hazırladığı hesabatda bildirilir ki, planetdə neft ehtiyatlarının ümumi həcmi 683 mlrd. barel təşkil edir.

Neftin 57,5%-i ərəb ölkələrinin ərazisindədir. Təkcə Səudiyyə Ərəbistanı ərazisində 265 mlrd. barel neft var. Sonrakı yerləri İraq, Küveyt və Birləşmiş Ərəb Əmirlikləri tutur.

Bundan başqa, ərəb ölkələrində 54 trln. kubmetr qaz ehtiyatı var ki, bu da dünya qaz ehtiyatlarının 30,2%-i deməkdir. Son illər Səudiyyə Ərəbistanında neft yataqlarının işlənməsinə 60 mlrd. dollar yatırılıb. BƏƏ də yeni neft yataqlarına iri vəsaitlər yatırmaq niyyətindədir. 2017-ci ilədək Yuxarı Zakum yatağına 15 mlrd. dollar sərmayə qoyulacaq.

# ARKTİKA GÖZLƏNİLDİYİNDƏN DAHA SÜRƏTLƏ ƏRİYİR



*Yeni araşdırma göstərib ki, Arktika güman edildiyindən daha sürətlə ərimək dədir*

Bu, okeanların səviyyəsinin 1,5 metr qalxmasına səbəb ola bilər.

Ekoloji Monitorinq və Arktikanın Qiymətləndirilməsi Beynəlxalq Proqramının apardığı tədqiqatın tam mətni yaxın zamanlarda açıqlanacaq. Sənəddə bildirilir ki, hazırda Arktikada 1880-ci ildən keçən dövrün ən isti hava şəraiti qeydə alınır. Əriməninin sürətlənməsinə də məhz bu səbəb olub.

# ELÇİLİK

Məktəbin «gülər üzü» sayılan Ramazan müəllimin son vaxtlar, nədənsə, üzü gülmürdü. Həmişə deyib-gülən, səsi məktəbi başına götürən, hay-küylü, şit hərəkətləri, zarafatları ilə çoxlarının zəhləsini tökən Ramazan müəllimdən əsər-əlamət qalmamışdı. O, müəllimlər otağının bir küncünə sıxılıb elə bil hər şeydən təcrid olunmuşdu. Həmkarlarının: «ay Ramazan müəllim, nə olub axı?»-sualına «heç nə» cavabından başqa bir söz demirdi. Müəllimlərdən biri indiyə qədər heç kimin ağlına gəlməyən versiya atdı ortalığa: «ə, bəlkə Ramazan vurulub?». Elə o dəqiqə də bu versiyanı sınaqdan keçirdilər. Müəllimlər üçün təəccüblü görünsə də, Ramazan müəllim eşqə düşdüyünü etiraf etdi. Məlum oldu ki, kəndin ən nüfuzlu şəxslərindən olan Hacı Salehin qızını istəyir.

Hacı Salehin öz qızını Ramazan müəllimə verəcəyinə inamları olmasa da, yeyib-içmək həvəskarları işi uzatmağı Ramazana məsləhət bilmədilər. Elə bu gün məsələni həll etmək üçün elçi getmək təklifini irəli sürdülər və direktor başda olmaq şərtilə qalstuklu, şlyapalı müəllimlərdən dördünü seçdilər.

– Ramazan müəllim, bu işin məsuliyyətini yəqin ki, dərk eləyirsən, elçilik çox qəliz məsələdir, bilmirsən səni necə qarşılayacaqlar, özü də Hacı Saleh kimi adam. Odur ki, bir balaca yeyib-içsək, danışanda da ürəkli danışarıq.

Ramazan müəllim yaxındakı kafelərin birində elçi gedənlərə əməlli-başlı qonaqlıq verdi. Elçilər maşını Hacı Salehin evinə tərəf sürdülər. Maşın Hacı Salehin darvazası qabağında dayandı. Müəllimlər direktora hələlik maşında qalmağı məsləhət bildilər:

– Bilirsiniz, Hacı Saleh bir az özündən razı, qəliz adamdır, birdən artıq-əskik söz deyər, elə sözləri eşitməsəniz yaxşıdır. Biz gedək, əgər söhbətimiz baş tutsa, sizi çağırarıq.

Direktor məsləhətə qulaq asıb, maşından düşmədi. Müəllimlər Hacı Salehin darvazasını döydülər. Müəllimləri içəri dəvət etdilər. Müəllimləri salamlayan Hacı Salehin üzündə təlaş olsa da, özünü səmimi aparmağa çalışırdı. Müəllimlər mətləbi uzatmadılar, gəlişlərinin məqsədini bildirdilər.

Hacı Saleh:

– Qızın bu işdən xəbəri var? – soruşdu.

– Əlbəttə, qızın razılığı olmasa, bizi bu qapıya göndərməzdilər.

Hacı Saleh qızını çağırtdırdı:

– Qızım, sən Ramazan müəllimi tanıyırsan?

– Hansı, o gic Ramazanı?

– Cavabınızı aldınız? Necə gəlmisiniz, elə də çıxın gedin, mənim gicə verməyə qızım yoxdu.

Müəllimlərin belə tez çıxması direktora işin nə yerdə olduğunu xəbər verirdi.

Müəllimlər bu xəbəri mümkün qədər yumşaq formada Ramazan müəllimə çatdırmaq qərarına gəldilər. Hələ ümidin itirilmədiyini bildirdilər və yeni planlar qurmağa başladılar.

– Mən yeganə çıxış yolunu qızı qaçırmaqda görürəm – müəllimlərdən biri dilləndi.

– Ağıllı fikirdir, bu həm də Hacı Salehə dərs, qapıya gələn elçilərin ələ salınmasına cavab olardı – başqa bir müəllim təsdiqlədi.

– Yaxşı, bu işin təşkilini necə təsəvvür edirsiniz? – direktor soruşdu.

– İnstituta gələndə, ya da institutdan çıxanda yaxalamaq lazımdır qızı.

– Hacı Salehin qızını maşınla aparırlar, maşınla da gətirirlər.

– Ə, nə olsun, şofer tək, biz dörd nəfərik, bir qıza da gücümüz çatmayacaq?

– Hə, Ramazan müəllim, nə deyirsən, başlayaq əməliyyata, ya yox?

– Nə deyirəm, necə məsləhətdir.

– Onda bir şey təşkil elə, əməliyyat məsuliyyətli işdir, heç olmasa bir az vuraq, özümüzə gələk.

Ramazan müəllim əməliyyatın məsuliyyətinə layiq bir qonaqlıq təşkil elədi.

Məclisin sonuna yaxın müəllimlərdən biri:

– Bax, qardaşlar, halallıq olsun deyə biz hər şeyi Ramazan müəllimə açıq deməliyik. Axı şikayət olsa, qız qaçırmaq üçün yeddi - səkkiz il türmə gözlənilir.

– Olsun də, zato prinsipimizi yerinə yeti-

rərik – kimsə dilləndi.

Türmə sözünü eşidən Ramazan müəllimin rəngi qaçdı:

– Hörmətli həmkarlarım, son günlər sizə yaman zəhmət verdim, həyəcanlı dəqiqələr yaşadınız. İcazə verin, mən bir az fikirləşim, siz də sakitləşin, sonrasına baxarıq.

– Əlbəttə, Ramazan müəllim, qərar sənindir, biz sənin qərarına hörmət etməliyik – müəllimlər sevincək razılaşdılar.

Bu hadisədən iki həftə keçmişdi. Ramazan müəllim şən əhval - ruhiyyə ilə qalstuklu, şlyapalı müəllimlərə yaxınlaşıb:

– Hazırlaşın, elçi gedirsiniz.

– Hara, kimə, ay Ramazan müəllim?

– Bizə. Bir qohumum var, yaxşı qızdır, ürəyimə yatır, atası ilə bizdə qonaqdır. Elə məqamdır. Məsələni həll edək.

Elçilikdən düz qırx gün - qırx gecə sonra Ramazan müəllim toy elədi, evləndi.

# ƏKS ÜNVAN

– Arif müəllim, salam! Bircə dəqiqəlik vaxtınızı alacam.

– Səkinə xanım, vaxtımı nə qədər istəyirsən, al, amma canımı alma.

– S vami ne soskuçişsya, Arif müəllim. Ya k vam po seryoznomu voprosu, a vı hər şeyi zarafata çevirirsiniz.

– Yaxşı, qulağım səndədir.

– Mənə qulağınız lazım deyil, diqqətiniz məndə olsun.

Arif müəllimin qaqqanağı kabineti başına götürdü.

– Afərin, Səkinə xanım, hesab oldu bir-bir. İnstitut deyil ey, komediya teatrıdır. Yaxşı, diqqətim səndədi.

– Arif müəllim, bu yay tətili gələndə başım şişir.

– Bu fizikanın qanunudur, istidən hər şey şişir, soyuqdan qısalır.

– Opyat naçinayetsya. Mən o mənada demirəm. O mənada deyirəm ki, bilmirəm bu tətil günlərini harada, necə keçirim. Elə bil Kislovodskdan başqa dünyada yer yoxdu. İnsan nə qədər eyni sifətləri görər, eyni səsləri eşidər. Bakıdakı qonşularımız Kislovodskda da qonşuluğumuzda olurlar. İnstutumuzun əməkdaşlarının əksəriyyəti oranı zəbt ediblər, bir sizdən başqa. Bir sözlə, elə bil heç yerimi, obstanovkamı dəyişməmişəm, Bakıdayam. Ən dəhşətlisi odur ki, bir də görürsən tumanının balağı yerlə sürünənin biri şəhər parkının bu başından o başına qışqırır:

– Ciyərin yansın bala, geri qayıt, gəlsəm, səni cıracam. Və ya:

– Yetim qalasan səni, tez gəl də – deyib uşağın başına qapaz ilişdirir.

Uşağı vurduğuna görə ona irad tutan rusa:

– Cəhənnəm ol, indi Allahın alkaş rusu mənə ağıl öyrədəcək – təpinti gəlir.

İndi döz görüm bu səhnələrə, istirahətə gələn şəxs.

Odur ki, qəti qərara gəlmişəm və həyat yoldaşımın da razılığını almışam. Bu il başqa yerdə, özü də tək istirahət edəcəm. Sizin bu işdə təcrübəniz böyükdür. Bilirəm ki, hər il istirahətinizi Yaltada keçirirsiniz. Yeri gəlmişkən, Arif müəllim, eyni yerdə istirahət etmək sizi darıxdırmır?

– Səkinə xanım, o, adamın özündən asılıdır. Neçə illər Yaltaya getsəm də, hər dəfə özüm üçün yeniliklər tapıram. Ora mənim üçün həmişə maraqlı yerdir.

– Bax, elə ona görə də, Arif müəllim, sizin yanınıza gəlmişəm məsləhət üçün. Mən də bu il Yaltaya getmək, orada istirahət etmək istəyirəm. Bilirəm ki, siz o yerlərə yaxşı bələdsiniz,orada dostlarınız, tanışlarınız çoxdur. Onu da bilirəm ki, orada putyovka, yaxşı mənzil tapmaq da problemdir. Amma sizin üçün yox.

– Sanatoriyaya putyovka almaq mənim üçün çətin deyil, amma nə vaxt gələcəyini dəqiq bilməliyəm. Orası da var ki, mən əvvəlcə 7-8 günlük Moskvaya getməliyəm, ordan da Yaltaya. Odur ki, nə vaxt gələcəyini mənə xəbər vermək üçün gərək iki məktub yazasan, birini Moskvaya, o birini də Yaltaya. Ünvallar da bəlidir: Moskva, K-9, Qlavteleqraf, «Do vostrebovaniya». Yalta, Qlavpoçta, «Do vostrebovaniya». Adımı, familyamı, atamın adını bilirsən.

Arif müəllim Moskvada bir həftə qalandan sonra Yaltaya gəlmişdi. Moskvada olarkən Qlavteleqrafa bir neçə dəfə baş çəkmişdi. Səkinə xanımdan məktub gəlməmişdi. O, Yaltaya gələndən bir neçə gün sonra Səkinə xanımdan qısa və çox səmimi bir məktub almışdı: «əzizim Arif müəllim, şərtləşdiyimiz kimi, Yaltaya gələcəyim günü bildirmək üçün bu məktubu iki nüsxədə (biri Moskvaya; o biri Yaltaya) sizə göndərirəm. Görüşənədək, sizin Səkinə xanım». Məktubdakı «əzizim», «sizin» sözləri Arif müəllimi narahat etsə də, mək-

tubun Səkinə xanım tərəfindən yazıldığını nəzərə alaraq, çox «dərinə» getmədi.

Səkinə xanım Yaltaya elə çatdığı gün Arif müəllim ən yaxşı sanatoriyalardan birinə putyovka ala bilmişdi. Arif müəllim Səkinə xanımın sanatoriya məsələsini həll etdikdən sonra onlar xudahafizləşmiş, sonralardan cəmi bir dəfə təsadüfən dənizkənarı parkda rastlaşmış, ayaqüstü hal-əhval tutduqdan sonra ayrılmışdılar.

İstirahətdən qayıdan Səkinə xanım çox şən, gümrah görünürdü. O, işə çıxan kimi Arif müəllimə baş çəkmiş, ona minnətdarlığını bildirmişdi.

– İnanın, Arif müəllim, ilk dəfədir hiss edirəm ki, istirahətdən gəlmişəm. Allah sizə uzun ömür, cansağlığı versin. Siz insanlara lazımsınız.

İş günü deyildi. Arif müəllim dənizkənarı parka getməyə hazırlaşırdı. Telefona zəng gəldi:

– Arif müəllim, salam, məni Əliş müəllim göndərib ki, sizi onun bağına aparım.

– Bəs niyə özü zəng eləmir?

– Yəqin maşın göndərməyi zəngdən vacib sayır. Beş dəqiqəyə sizin evin qabağındayam.

Əliş müəllimin bağı Bilgəhdə idi.

Arif müəllim Əliş müəllimin sürücüsünü görməmişdi.

– Siz Əliş müəllimin sürücüsünüz?

– Xeyr. Mən onun yaxın tanışıyam.

– Nə münasibətlə bu gün Əliş müəllim bizi yığır bir yerə?

– O, hər şənbə dostları ilə birgə olur, yeyib - içməyə bir bəhanə axtarır.

Bilgəhə az qalmışdı. Sürücü maşını yoldan xeyli aralı sürüb saxladı.

– Olar, bir siqaret yandırım?

– Buyurun.

Sürücü çox həyəcanlı görünürdü. O, siqareti əsən barmaqları arasında saxlaya bilmirdi.

– Bilirsiniz mən kiməm? – əsəbi halda siqareti tulladı.

– Xeyr.

– Mən Səkinə xanımın əriyəm. O, sizinlə birlikdə Yaltada istirahət edib.

– Birlikdə yox, bir şəhərdə. Mən sizin halınızı başa düşürəm, amma məsləhət bilirəm ki, tələsik nəticə çıxarmayasınız, mən hər şeyə aydınlıq gətirməyə hazıram. Siz hardan bildiniz ki, mən Səkinə xanımla Yaltada olmuşam.

– Onun mətləbə nə dəxli var?

– Var. Mən əminəm ki, bunu Səkinə xanım Yaltadan gələn kimi özü deyib, hər şeyi olduğu kimi sizə danışıb.

– Bəli, elədir, o, istirahətdən qayıdan kimi hər şeyi mənə danışdı.

– Bəs elə isə, niyə bunları biləndən on gün sonra məni yaxalamısınız?

– Buna səbəb onun sizə Moskvaya yazdığı məktubdur. Siz Moskvanı tez tərk eləmisiniz, odur ki, məktub sizə çatmayıb. O məktub bir ay Moskvada qaldıqdan sonra əks adreslə evimizə qayıdıb. Məktubdan eşq - məhəbbət yağır. «əzizim», «sizin Səkinə xanım». O nə vaxtdan sizin Səkinə xanımınızdır, Arif müəllim?

– Hə, indi hər şey aydındır. Adınızı da bilmirəm.

– Biqeyrət kişinin adını bilməsəniz yaxşıdır.

– Nə özünüzü, nə də Səkinə xanımı ittiham etməyə haqqınız yoxdur. Səkinə xanımın başqa fikri olsaydı, o məktuba əks ünvan yazmazdı, Yaltada məni gördüyünü belə gizlədərdi. İndi mən hər şeyi olduğu kimi danışım, Səkinə xanımın dediklərilə tutuşdurun, görəcəksiniz ki... amma fikirləşə bilərsiniz ki, biz nə cür danışmağı şərtləşmişik.

Odur ki, məsləhətim belədir: mənə diqqətlə qulaq as (Arif müəllim, nədənsə, «sən»ə keçdi), sonra nə nəticə çıxararsan, özün bilərsən. Qadınlar var ki, hər oyundan çıxır, amma müəyyən müddət ifşa olunmaqdan qaça bilirlər, çünki, daxili əxlaqsızlığı zahirən ətrafdakılardan gizlədə bilirlər. Onların hərəkətləri kənardan baxanda heç bir şübhə yaratmır, hətta namuslu, həyalı, abırlı qadın imici yarada bilirlər. Onların hər bir hərəkəti yalnız ifşa olunmamaq üzərində qurulub. Onlar ehtiyatlıdırlar, hiyləgərdirlər, yalançıdırlar. Odur ki, belə qadınlar qorxulu insanlardır. Elə qadınlar da var ki, daxilən pak, təmizdirlər. Lakin hərəkətlərində, davranışlarında, danışıqlarında ehtiyatsızdırlar, başqalarının onun haqqında nə deyəcəyi onu maraqlandırmır, o ki təmizdir, pakdır. Bu da düzgün hərəkət deyil. İnsan cəmiyyətin, ətrafdakıların onun haqqında nə deməsinə biganə qalmamalıdır, onlarla hesablaşmalıdır. İnsanlarda şübhə yaradan davranışlara əhəmiyyət verməməyi mən yersiz sayıram. Sənin Səkinə xanımın ikinci tip qadınlardandır. O, daxilən namuslu, təmiz, pak bir qadındır. Amma bəzi hərəkətləri, davranışı, danışıq manerası mənim də xoşuma gəlmir. Bir də görürsən ki, əməkdaşlarımızdan kiminləsə əl verib görüşür. Əslində, burada elə bir qəbahət yoxdur. Amma o, qəbul olunmuş həddi keçir – kişinin əllərini, elə bil, buraxmaq istəmir. Mən Səkinə xanımı yaxşı tanadığımdan, xasiyyətinə bələd olduğumdan buna reaksiya verməyə bilərəm. Bəs ona bələd olmayanlar nə fikirləşərlər? Kiminsə nə fikirləşməyinə yersiz (mən əminəm ki, Səkinə xanım sıxdığı əlin kişi əli olduğu barədə heç fikirləşmir də) bəhanə verməyə nə ehtiyac var?! Bir də görürsən, qəhqəhəsi instututu götürüb başına. Kənardan baxan,

onu tanımayan fikirləşər ki, bu vulqar qadını burada niyə saxlayırlar. Əslində isə o, yüksək intellekt sahibi, savadlı, bilikli, instituta lazımlı bir kadrdır. Səkinə xanımı yaxşı tanısam da, onun ətrafdakılarla hesablaşmamasını bəyənə bilmirəm. Mənə yazdığı məktublarda «əzizim», «sizin..» sözləri sən bildiyin «əzizim», «sizin..» deyil. Bu sözlər özünə yaxın dostu, iş yoldaşı bildiyi bir insana, bu sözlərin mənasına qapılmadan deyilən sözlərdir. Belə bir hərəkəti, nə nəticə ola bilər barədə fikirləşməyən Səkinə xanım kimi qadınlar edə bilər.

İndi, əzizim (görürsən, mən də qeyri-ixtiyari, Səkinə xanımın işlətdiyi mənada bu sözü işlətdim), sənin iki yolun var: ya Səkinə xanımın namuslu, qeyrətli həyat yoldaşı olduğunu istisnasız qəbul edib, onun ətrafı ilə hesablaşmayan kaprizlərinə, yersiz saydığın hərəkətlərinə, davranışlarına dözməlisən, ya da... özün bilən yaxşıdır. Bir məsləhətim də odur ki, nəbadə onun hərəkətlərinə, davranışına irad tutasan. Bu onu yalnız təhqir edər. Qalır dözmək. Bu, ailə qazancı qarşısında elə böyük itki deyil. İndi, bilmirəm, dediklərimdən nə nəticə çıxardın.

– Arif müəllim, mən sizin haqqınızda çox eşitmişdim. Bu gün isə siz mənə əxlaq dərsi keçdiniz. Mənə məsləhətlər verdiniz. Məni elə bilin yenidən həyata qaytardınız. Mən namusla sevgi arasında qalmışdım. Mən sevgimə görə namusumu itirə bilməzdim. Siz məni xilas etdiniz. Bir daha minnətdaram sizə.

– Görüşümüz barədə Səkinə xanım bilməməlidir.

- Əlbəttə, Arif müəllim. Allah xatirinə, məni bağışlayın, Arif müəllim, bu qan qaraldan görüşə görə.

– Mən bu görüşə görə səni qınamıram. Əksinə, bu görüş neçə günlərdir sənə rahatlıq verməyən məsələnin həllinə səbəb oldu. Odur ki, mən görüşdən razı qaldım. Amma belə görüşdən (sonluğu yaxşı qurtarsa da) sonra çətin ki, mən Əliş müəllimin qonaqlığında deyib-gülə bilim. Qonaqlıqda da deyib-gülmədin, bir qəpiyə dəyməz. Odur ki, xahiş edirəm məni «Əzizbəyov» metro stansiyasına çatdır, bulvara gedəsəm.

– Onda elə bulvara aparım də?

– Yox, gecikərsən, Əliş müəllim narahat olar. Əliş müəllimə deyərsən ki, məni evdə tapa bilmədin. Telefonumu da bir müddət söndürəcəm.

– Vallah, yaxşı olmadı, Arif müəllim.

– Əksinə, çox yaxşı alındı. Əsas məsələni həll etdik.

Maşın geriyə döndü. Arif müəllim xəbər tutanda maşın bulvara yaxınlaşırdı...

## PARKDA

S. M. Kirov adına mədəniyyət və istirahət parkı, sözsüz, leninqradın ən gözəgəlimli yerlərindən idi. Leninqrada hər səfərimdə bu parka baş çəkərdim. Odur ki, bu dəfə də fotoaparatımda lenti təzələyib parka yola düşdüm, məqsədim bütün 36 kadrı parka həsr etmək idi.

Düzdür, hava şəkil çəkmək üçün heç də əlverişli deyildi. Neçə gün idi zəhlətökən çiskin ara vermirdi. Lakin belə havanın Leninqrada xas olduğunu nəzərə alsaq, şəkillər daha real alınacaqdı.

Həmişə olduğu kimi, parkın girəcəyindəki kafedə kofe içmək istədim. Kafedə məndən başqa müştəri gözə dəymirdi (başqa vaxtlar kafedə boş yer tapmaq problem olurdu). Odur ki, mən içəri girəndə ofisiantların üçü birdən ayağa qalxdı. Mən qapıya yaxın bir yerdə oturub, kofe və pirojna sifariş verdim. Ofisiant qadınlar məni maraqla süzürdülər, yəqin onları maraqlandırırdı ki, belə bir havada burada nə azarım var. Onların nigarançılığına son qoymaq üçün gəlişimin səbəbini izah etdim. Mənim izahatım onlara qəribə gəlsə də, bir söz deməyib başlarını buladılar.

Belə çiskinli havada şəkil çəkmək asan iş deyildi. Fotoaparatı yağışdan qorumaq lazım idi. Lakin çətinliklərə baxmayaraq mən ürəyimə yatan çoxlu obyektləri çəkə bilmişdim. Yalnız süni kanallar üstündən salınmış körpüləri çəkmək alınmırdı. Müvafiq yer seçə bilmirdim. Mənim üçün bu körpüləri çəkmək vacib idi. Bu körpülər memarlıq möcüzələri idi. Axır ki, bir kolluq tapıb mövqe seçdim. Bir neçə kadr çəkib kolluqdan çıxandı qarşımda milis işçisini gördüm. O, sənədlərimi tələb etdi. Zarafata salıb dedim ki, yeganə sənədim bu fotoaparatdır, lakin sonra əlavə etdim ki, sənədlərim oteldədir, soruşa bilərsiniz. Milis işçisi özü də zarafatcıl imiş. O:

– Bilmirsiniz, körpülər strateji obyekt sayılır?

– Elə ona görə də gizlin, kolluqdan çəkirdim ki, görən olmasın – zarafatı davam etdirdim.

Milis işçisi gülərək, «çest verib» məndən ayrıldı. Mən «ovuma» davam elədim.

**Xəlil Məcidoğlu**
**E-mail:** khalil_majid@mail.ru

# AZƏRBAYCAN QIZIL EHTİYATINI 19 MLN. DOLLARA ÇATDIRIB



*Apa-economics.* Azərbaycan Maliyyə Nazirliyi «Gədəbəy» qızıl filiz yatağında hasil edilmiş əmtəəlik qızılın növbəti partiyasını – 3 652,7 troya unsiyası (113,6 kq) miqdarında 999,9 əyarlı qızıl külçələrini təhvil alaraq, saxlanılması üçün Mərkəzi Bankda yerləşdirib.

# AZƏRBAYCANDAN «PETKİM»Ə 6 MİLYARDLIQ YATIRIM

*Bu ilin sentyabr-oktyabr aylarında İzmir şəhərində (Türkiyə) «Petkim» şirkətinin neft emalı zavodunun təməli qoyulacaq*

Təməlqoyma mərasimində Türkiyə və Azərbaycan rəsmiləri, o cümlədən baş nazir Rəcəb Tayib Ərdoğan və prezident İlham Əliyevin iştirak edəcəyi gözlənilir. «Apa-Economics»in məlumatına görə, bunu «Petkim» şirkətinin nümayəndəsi Serkan Aksüyek Bakıda keçirdiyi mətbuat konfransında bildirib.

Onun sözlərinə görə, neft emalı zavodunun tikintisinə 4,5-5 mlrd. dollar sərmayə yatırılacaq. İllik emal gücü 10 mln. ton olan zavodda əsasən «Petkim»in tələbatı olduğu məhsullar istehsal ediləcək. Bundan başqa, bölgədəki dəniz limanına 350 mln. dollar investisiya yatırılması planlaşdırılır ki, bununla da liman bölgənin ən böyük logistik obyektinə çevriləcək. Ümumilikdə, 2015-ci ilədək ARDNŞ-in «Petkim» strukturlarına yatırdığı investisiyaların həcmi 6 mlrd. dolları keçəcək: «Bundan sonra «Petkim» Türkiyə və Avropanın bu sahədə ən böyük şirkətlərindən birinə çevriləcək».

S.Aksüyek bildirib ki, Bakı-Tbilisi-Qars dəmir yolu bağlantısı layihəsi işə düşəndən sonra Azərbaycanda istehsal olunan neft-kimya məhsullarının Avropada, Türkiyədə istehsal olunan məhsulların isə Azərbaycanda və ona qonşu ölkələrdə reallaşdırmaq mümkün olacaq.

Buna paralel olaraq enerji sektoruna da investisiya yatırılacaq və bunun hesabına 2020-ci ilə qədər qurumun 1 000 MVt enerji istehsalı gücü yaradılacaq. Bütün bunların nəticəsində ARDNŞ Türkiyənin sənaye sektorunda ən böyük investora çevriləcək.

Şirkət rəsmisi həmçinin bildirib ki, 2015-ci ildən sonra isə ARDNŞ-in «Petkim»ə yatırımlarının 2-ci mərhələsi başlayacaq. Bu işlər çərçivəsində şirkətin neft-kimya məhsullarının istehsal həcmi ildə 3 mln. tondan 6 mln. tona, şirkətin satış həcmi isə həmin müddətdə 20 mlrd. dollara çatdırılacaq.

Nəhayət, investisiyaların növbəti mərhələsi 2040-cı ilədək planlaşdırılıb. Bu işlər nəticəsində həmin vaxt Türkiyə və Azərbaycan neft emalı və neft-kimya məhsulları istehsalı sahəsində dünyanın ən mühüm oyunçularından birinə çevriləcəklər: «Ola bilər ki, bu, uzaq müddət görünsün, amma gənc həmkarlarımız o günü görəcəklər».

# ELAN

## Heydər Əliyev Azərbaycançılıq İnstitutu (Ukrayna), Beynəlxalq Təhsil və Elm Mərkəzi (Bakı)
## Ukrayna dövlət universitetlərində təhsil almağa dəvət edir

1. T. Şevçenko adına Milli (universitetə "Milli" statusu ölkə prezidentinin fərmanı ilə verilir) Dövlət Universteti
2. Ukrayna Milli Texniki Universiteti
3. Ukrayna Milli Aviasiya Universiteti
4. Ukrayna Milli Lingvistika Universiteti
5. Ukrayna Milli Memarlıq və inşaat Universiteti
6. Kiyev Milli Tibb Universiteti
7. Simferopol Milli Tibb Universiteti
8. Simferopol Milli Texniki Universiteti
9. Vinnitsa Milli Texniki Universiteti
10. Çerkassı Milli Dövlət Universiteti
11. Bütün vilayət mərkəzlərinin dövlət universitetləri

**İxtisaslar:**

Beynəlxalq əlaqələr, Beynəlxalq iqtisadi əlaqələr, Hüquqşünaslıq, İqtisadiyyat (sahələr üzrə), Marketinq, Menecment, Biznesin təşkili, Maliyyə və kredit, Bank işi, İnformasiya texnologiyaları, Xarici dil, Tərcüməçilik, Turizm, Bütün tibb ixtisasları, Bütün mühəndislik ixtisasları

Təhsil rus və ya ingilis dillərindədir.
Rus dilini bilməyənlər üçün hazırlıq kursları təşkil edilir.

Ukrayna universitetlərinə qəbul olunmus tələbələr ən azı bir ildən sonra Azərbaycan Respublikasının universitetlərinə köçürülə bilər.

Bizim göndərişimizlə Ukrayna universitetlərinə qəbul olunan tələbələr təhsil müddətində diqqət mərkəzində saxlanılacaq.

**Dünyanın ən mötəbər universitetlərindən olan Ukrayna dövlət universitetlərində təhsil almaq şansını əldən verməyin. Bizə müraciət edin.**

***Ünvan və əlaqə telefonları:***

1. 8-ci km qəsəbəsi, Məhsəti küçəsi, 11, Xəzər Universiteti, Karyera mərkəzi, (+994 12) 421-79-16
2. Bakı, Bakıxanov qəsəbəsi, Mehmandarov küçəsi, 23, "Modern" tədris tərkəzi (+994 12)511-93-74
3. Bakıxanov qəsəbəsi, Adil İskəndərov adına Mədəniyyət sarayı,

(+994 12) 429-86-25 – Bədii rəhbər
(+994 12) 429-66-54 (+994 50) 398-32-68 (+944 55)466-26-68

# QAÇAQ İSAXANIN ALİM NƏVƏSİ

***Hamlet İsaxanlı: "İmtahana gedəndə nənəm pencəyimə dua yazdırıb, qoymuşdu"***



*Uzun fasilədən sonra "Uşaqlığın son gecəsi"nə qonaq tapmaq üçün çox fikirləşməli olmadım. Əslində, çoxdandı onunla söhbətləşmək, qəbulunda olmaq arzusunda idim, təxminən, 5 ildir. Bu barədə sonda...*

*Telefonda özümü təqdim etdim, Lent.az-ın əməkdaşı olduğumu söylədim. Layihə haqqında məlumat verib, müsahibə götürmək niyyətimi bildirdim. Bir neçə gün sonra vədələşib görüşünə getdim, universitetə... İki ildir, ayrıldığım Xəzər Universitetinə...*

*Şəraitindən istifadə etmək qismət olmayan universitetin yeni binasındakı yeni otağında qəbul etdi məni. Keçmiş kabinetini Amerika-dan dəvət etdiyi rektor - Con Rayderə təhvil verib.*

*Maraqlı uşaqlığının olduğunu bir neçə il əvvəldən bilirdim. Hardasa müsahibəsində oxu-muşdum.*

*Elə isə siz də oxuyun. Qonağım Xəzər Universitetinin qurucusu, riyaziyyatçı, fizika-riyaziyyat elmləri doktoru, professor, şair, yazıçı, publisist, tərcüməçi, elm, mədəniyyət və təhsil tarixi üzrə mütəxəs-sis, ədəbiyyat və dilçilik, tarix və fəlsəfəyə dair çoxsaylı əsərlərin müəllifi Hamlet İsaxanlıdır.*

## "BABAM İSAXAN ƏFSANƏVİ BİR ADAM OLUB"

...İkinci dünya müharibəsindən 3 il sonra Gürcüstanın Qarayazı – Qardabani bölgəsində, Azərbaycan sərhədinin 5 kilometrliyində doğulub. O dövrün ənənələrinə uyğun, çoxuşaqlı ailədə böyüyüb. 6 qardaşın ən böyüyü olub. Özündən kiçiyindən 6 yaş böyük. Ataları cəbhədə həlak olan "maması uşaqları" (atasının bacısının övladları) da – bir bacı, bir qardaş – Hamletin atasının himayəsində böyüyüb. Kənd məktəbində riyaziyyat müəllimi olan atası Abdulla İsaxan oğlu İsayev, elə sonradan balaca Hamletin də həyatının istiqamətlərini müəyyənləşdirəcək, onu riyaziyyata bağlayacaqdı.

**"Babam İsaxan əfsanəvi bir adam olub. Adına "Qaçaq İsaxan" deyərlərmiş. "Kollektivləşmə" adlandırılan dövrdə Sovet hökuməti ilə vuruşub. Böyük bir antisovet hərəkatına başçılıq edib. Stalin, Beriya kimi sovet liderləri belə, onun fəaliyyəti ilə bağlı narahatlıq keçiriblər. Haqqında Zaqafqaziya Federasiyası Hökumətinin xüsusi iclasları keçirilib, öldürülməsi üçün xeyli tədbir görülüb. 33 yaşı olanda pusquya salıb, öldürüblər, Calaloğlu qəsəbəsində, indiki Ermənistan ərazisində. Ölümündən sonra haqqında dastanlar qoşulub, aşıqlar şəninə mahnılar oxuyub. Babamın 100 illiyini də 1997-ci ildə təntənəli şəkildə keçirdik".**

## "ATAM MƏNİ MƏKTƏBƏ QOYMAQ İSTƏMİRDİ"

Babası öləndən sonra nənəsini iki oğlu, iki qızı və qohumları ilə birlikdə sürgün ediblər. Qazaxıstanda bir illik sürgün həyatından sonra bir il də Qırğızıstana sürülüblər. İki ildən sonra doğma yurda qayıtsalar da, qolçomaq ailəsi olduqları iddiasıyla rahatlıq üzü görməyiblər. Sovet hökuməti əvvəlcə İsaxan kişinin uşaqlarının təhsil almasını belə, qadağan edibmiş. Daha sonra bu yasağı qaldırıb. Babasının ən böyük tədqiqatçısı elə özüdür. Bütün fəaliyyətini araşdırıb, arxivlərdə işləyib, konfranslarda çıxış edib, məqalələr yazıb. Deyir, anlayıb ki, İsaxan kişi sovetlər üçün deyiləndən daha böyük təhlükə ərz edirmiş.



**"Atam məni məktəbə qoymaq istəmirdi. 7 yaşım tamam olmamışdı. Elmixan adlı bir qohumum vardı. Qoşuldum ona getdim məktəbə. Birinci rübün sonunda sinif müəllimim atama məni tərifləmişdi, yaxşı oxuduğumu demişdi. Atam da "mən onu oxumağa qoymamışam, elə belə gəlir" deyib. Beləcə, birinci sinfə getdim. Yadımdadı, uzun müddət çantasız, dəftər-qələmsiz gedirdim. Müəllim dərsdə qələm-dəftər gətirir, mənə də tapşırıq verirdi".**

## "İNDİ ÖZÜMƏ DEYİRƏM Kİ, BİLSƏYDİM BİR ÇOX KİTABI OXUMAZDIM"

Deyilənlərə görə, uşaq vaxtından çox istedadlı, hər şeyi tezgötürən olub. Özünü vunderkind hesab eləmir, amma çox bacarıqlı şagird olduğunu qeyd etməyi də unutmur. Deyir, məktəbdə uşaqların çoxu-

nun istedadı yalnız bir sahəyə olduğu halda, o, həm riyaziyyatı ən yaxşı bilir, həm də ədəbiyyat sahəsini dərindən öyrənirmiş. Riyaziyyatçılıq tərəfinin atasından və bir də kəndlərində olan yaxşı riyaziyyat müəllimlərindən keçdiyini deyir. Nəsillərində özünə qədər yeganə riyaziyyatçı elə atası Abdulla kişi olub. Deyir, riyaziyyatı əla bilsə də, gecə-gündüz ədəbiyyat oxuyurmuş. 4-cü sinifdə oxuyandan yazmağa başlayıb. 5-ci sinifdə isə artıq çoxlu şeir və 2 dram əsərinin müəllifi idi. Deyir, 11 yaşında artıq bir kitab qalınlığında yazıları olub. Cəfər Cabbarlının aşiqidir. Orta məktəbdə oxuyanda, C.Cabbarlının yaradıcılığını əzbər bilirmiş. Deyir, C.Cabbarlı sevgisi özündən sonra ailədə uşaqlarına da keçib. "İndi də tez-tez vərəqlədiyim olur".

Ardınca isə dahi Cabbarlının yaradıcılığına və məktəbdəki bədii ədəbiyyatı oxumasına uzun bir şərh verir.

**"Uşaqlarımdan soruşsan, Azərbaycan ədəbiyyatından ən çox kimi oxuyub, hamısı deyəcək Cəfər Cabbarlını. Görünür, mən də uşaq vaxtımda elə onun təsirindən dram yazmağa başlamışdım. Məktəb vaxtımda əlimə nə keçirdi, oxuyurdum. Kitab oxumağa nə vaxt başladığım xatirimdə deyil. Hər gecə dərslərimi bitirən kimi bir bədii kitab oxuyurdum. Məktəbin kitabxanası, müəllimlərin verdiyi kitablar bitmişdi. Artıq Bakıdan kitab sifariş verməyə başlamışdım. İndi özümə deyirəm ki, bilsəydim, bir çox kitabı oxumazdım. O qədər gərəksiz kitab oxumuşam ki... Uşaqlığım Borçalı aşıqlarının arasında keçib. Tovuzdan da biz tərəflərə aşıqlar gələr, bizim bölgənin aşıqları ilə deyişərdilər. Dastanları, xüsusilə "Koroğlu"nu hamıdan əvvəl bunlar sevdirib mənə".**

## "YAZDIQLARIMI APARIB BİR YERƏ ATDIM"

Qazaxdan gəlmiş bir riyaziyyat müəllimi var imiş. Məktəbdə ədəbi dərnək açıbmış. Məktəb uşaqları yığışıb həm ədəbiyyatla məşğul olur, həm də tamaşalar hazırlayırmışlar. Bir dəfə həmin müəllim məktəbli Hamletdən nəsə yazıb-yazmadığını soruşub. Müsbət cavab alandan sonra deyib ki, yazdıqlarını gətirsin, o da oxusun. Yazdıqlarının hamısını qalın dəftərə köçürüb, verib Mehman müəllimə. Müəllim oxuyub, amma Hamletə heç nə deməyib.

**"Bir neçə gün sonra atam dedi ki, Mehman müəllim deyir, "oğlun ciddi yazı yazır, onu apar Bakıya, yazıçılara göstər". Çox qorxdum. Altıncı sinifdə oxuyuram. Belə şey ağlıma da gəlməzdi. Uşaq ağlımla bilirdim ki, mənim yazdıqlarım Cəfər Cabbarlı kimi deyil, qorxurdum ki, biabır olacağam. Baxmayaraq ki, yazılarımı tərifləyirdilər. Fikirləşdim neynəyim?! Müəllimə oxumaq üçün verdiyim həmin yazıları apardım çox pis bir yerə tulladım. Əvvəl gizlədim, sonra düşündüm ki, tapacaqlar, apardım atdım həmin yerə. Elə bir yerə ki, bir də o yazıları ordan götürmək mümkün deyildi. Amma bu, atamın məni Bakıya gətirməsinə mane olmadı. Bakıda tanınmış ədəbiyyatçı metodist var idi – Əliyar Qarabağlı. Atam onun yanına gətirdi məni. Dedi, bu yaxşı riyaziyyat bilir, amma bütün günü də ədəbiyyat oxuyur. Hələ arada yazır da. Əliyar müəllim soruşdu ki, Hamletin monoloqunu bilirəm? Bilirdim. Bir hissəsini dedim. Dedi ki, atanın gözəl sənəti var. Dünyada riyaziyyatdan gözəl sənət yoxdu. Ədəbiyyat üçünsə ali məktəb oxumaq lazım deyil. Cəfər Cabbarlı, Axundov guya ali təhsilmi alıb? Bəlkə də məni atamdan və müəllimdən sonra ən çox riyaziyyata oxumağa yönləndirən bu sözlər olmuşdu".**

## "MÜƏLLİMƏDƏN XOŞUM GƏLİRDİ, SƏN DEMƏ, ONUN DA MƏNDƏN XOŞU GƏLİRMİŞ"



Ədəbiyyat dərslərində sərbəst yazılar zamanı başqaları 2 səhifə yazanda, məktəbli Hamlet bir 12 vərəqli dəftəri doldurarmış. Yazdıqlarını müəllimlər otağında saxlayar, müəllimlərin hamısı oxuyarmış. Deyir, bəzən bir riyazi məsələni həll eləmək üçün bir həftə, bəzən daha çox fikirləşirmiş, həll edəndə isə elə bil, dünyanı ona bağışlayırmışlar. İlk şeirini nə vaxt, kimə həsr elədiyini xatırlamır. Ancaq ilk şeirlərindən birini erkən yaşda dünyasını dəyişən sevimli əmisinə yazıb. Əmisinin cavan ölümü ailəsində çox böyük sarsıntı, kədər yaradıbmış, elə balaca Hamlet də bu erkən ölümün kədərindən təsirlənərək, əmisinin ölümünə şeir həsr edibmiş. Orta məktəbdə tarix müəlliməsindən xoşu gəlirmiş, ona da şeir qoşubmuş. Deyir, uşaqlar müəllimləri sevirlər, qadın müəllimləri isə ikiqat sevirlər – həm qadın, həm də müəllimə kimi. Məktəb vaxtında sevdiyi qızlara yazdığı şeirləri yadına salır, keçmiş xatirələrin xoşluğu üzünü gülümsədir.

**"Birinci kursda oxuyanda bir rus dili müəlliməmiz var idi. Cavan, qəşəng qız idi. Xoşum gə-**

**lirdi ondan. Kənddən gələn tələbələr, adətən rusca zəif bilirdilər. Mənsə, həm atamdan, həm də rusca oxuduğum kitablardan dolayı bu dili yaxşı bilirdim. Buna görə də, həmin gözəl müəllimə dərs zamanı daha çox mənə baxır, diqqətini mənim üzərimdə cəmləyirdi. Bir dəfə dərsdə**



**mənə dedi: "Mənə baxma". Çaşıb qaldım. Dedim, müəllimə, bəs sizə baxmayım, hara baxım? Bu dəfə bir az da əsəbi "Mənə baxma də belə" dedi. Sonra anladım ki, görünür, onun da məndən xoşu gəlirdi, buna görə baxışlarım onu həyəcanlandırır, narahat edirmiş, özünü yaxşı hiss eləmirmiş".**

## "DƏRSDƏ SOBANI QURDALAYARDIQ, SİNİF DOLARDI TÜSTÜ İLƏ"

Deyir, oxumaqda ideal şagird olsa da, digər sahələrdə böyüklərin nəzərində belə olmayıb. Nadinc, bir az dəcəl, yüksək enerjili şagird olub. Futbol, şahmat oynamağı çox sevərmiş. Elə indi də vaxt tapdıqca oynadığını deyir. "Bir də görürdün, uşaqlarla təpikləşdik" deyir. Bir az dalaşqanlığı da var imiş. Bir sinif yoldaşı varmış. Oxuyan, amma bir o qədər də ağırbaşlı, sakit. Hamlet müəllim deyir ki, atası həmişə həmin sakit oğlanı ona nümunə göstərər, "bir ona bax, elə bil bəy balasıdır, sənsə, nəslin bəy, xandır, amma gör nəyə oxşayırsan, üstünün-başının halına bax" deyərmiş. Atam deyərdi ki, futbol oynamaqdansa, bir məsələ artıq həll eləyim.

**"Qardaşlarımdan böyük olduğum üçün həmişə onları oxutmağa, müəyyən istiqamətə yönəltməyə çalışırdım. Mən universitetdə oxuyanda, onlar şagird idilər, ədəbiyyat siyahısı verərdim ki, oxusunlar. Arada təpindiyim, danladığım da olurdu. Hətta yadıma düşür, biri - iki dəfə vurmuşam da. Tapşırıq verirdim, bəzən eləmirdilər, mən də bir balaca kötəkləyirdim. İndi heç kimi vura bilmərəm. Məktəbdə sinif otaqlarını isitmək üçün odun sobası yandırardılar. Yadımdadı, bəzi dərslərdə əvvəlcədən gəlib sobanı qurdalayardıq, sinif otağı dolardı tüstü ilə. Elə edirdik ki, müəllim dərs keçməsin".**

## "SEVDİYİM QIZIN ÜZÜNÜ KAĞIZLA QIZARTDIM"

Uşaqlığın saf, təmiz, ancaq bir o qədər də kobud və anlaşılmaz hərəkətlərini də edib. Sevgisini göstərmək üçün bəzən sevdiyi qızı da incidib.

**"O vaxtı bir əyləncəmiz var idi. İki barmağımıza rezin bağlayır, onun da arasına sıxılıb yumrulanmış bir kağız qoyub atırdıq. Kimə dəyirdisə, çox pis yandırırdı. Sinfimizdə istədiyim bir qız vardı. İndi mən uşaq ağlımla buna sevgimi bildirmək istəyirəm. Həmin rezinlə kağızı atdım buna, getdi dəydi üzünə (gülümsəyir). Üzü oldu qıpqırmızı. İndi də yadıma düşəndə xəcalət çəkirəm. Uşaq ağlımızla, özümüzü ifadə eləməyə çalışırdıq. O qədər enerjili olurduq ki, belə nadinciliklərlə enerjimizi çıxarırdıq".**

## "SİQARETİ DODAQLARIMA TOXUNDURMUŞDUM Kİ, ATAM GƏLDİ"

Həyatında ağzına cəmi bircə dəfə siqaret dəyib. Onda da çəkməyib. İçkinin dadına isə ilk dəfə aspiranturanı bitirəndə - 25 yaşında baxıb. Deyir, bunlarla heç vaxt arası olmayıb.

"Atam mənə velosiped - bizdə ayaqmaşını deyirdilər - alınırdı ki, dərslərimə mane olar, dərsimə daha çox fikir verim. Qonşumuzda məndən böyük bir oğlan var idi. Məktəbi-zadı atmışdı. Oxumurdu. Amma başqa şeylərdə usta idi. Siqaret də çəkirdi.



Onun velosipedi vardı. Bir dəfə dedim, "ver, velosipedini mən də sürüm". Dedi, "siqaret çək bir dənə, verim sür". Mən də çəkmirdim. "Burda nə var ki, bircə dəfə ağzına toxundur, ondan sonra nə qədər istəyirsən, götür sür" dedi. Mən də dedim, doğrudan da, burda nə var axı, bir dəfə ağzıma siqaret dəyməklə heç nə olmaz. Aldım siqareti yandırdım. Elə, əlimi qaldırıb, siqareti dodaqlarıma toxundurmuşdum ki, bir də gördüm atam düz qabaqdan gəlir biz tərəfə. Atam görmüşdü. Dondum qaldım. Elə bil, Allahın işidi. Sonra siqareti tulladım, gəldim atamın qabağına. Qaçmadım. Əliylə yüngülcə bir şillə vurdu. Heç

nə demədi. Ondan sonra da heç vaxt siqaret çəkmədim".



Orta məktəbi qızıl medalla bitirdiyi üçün ali məktəbə daxil olmaqda çətinlik çəkməyib. İlk və son dəfə olaraq, həmin il məktəbi qızıl medalla bitirənlərdən camaatın, valideynlərin qabağında cəmi bir açıq imtahan götürərək, onları ali məktəbə qəbul ediblər; əgər həmin imtahandan 5 alsalar...

Elə Hamlet İsayev də həmin imtahandan 5 alaraq, Azərbaycan Dövlət Universitetinin riyaziyyat fakültəsinə daxil olub.

**"İmtahana gələn günü səhər tezdən kostyum geyinəndə gördüm ki, kostyumun çiyin hissəsində nəsə yumru, bərk bir şey var. Açdım, gördüm bir dua yazıblar. Hirsləndim möhkəm. Atama dedim bu nədi, dedi, nənən yazdırıb, sən onu çox istəyirsən, xətrinə dəymə. Dedim, nədən ötrüdür bu? Dedi, müəllimlərin dilini-ağzını bağlamaq üçündür (gülür). Gəldik imtahana. İndi hamının adı çıxır, mənim adım çıxmır. Döndüm atama dedim ki, deyəsən, nənəm müəllimlərin yox, mənim dilimi-ağzımı bağlayıb (bayaqki gülüş hələ də davam edir). Nəhayət, mənim də adım çıxdı və imtahanda 5 alıb, qəbul oldum".**

## "ƏVVƏLCƏ FATMA ABDULLAZADƏDƏN XOŞUM GƏLMİRDİ"

Hazırda Prezident Administrasiyasının humanitar məsələlər üzrə şöbə müdiri Fatma Abdullazadə ilə universitetdə eyni fakültədə oxuyublar. Hamlet müəllim bir kurs yuxarıda, Fatma xanım bir kurs aşağıda və rus bölməsində. Deyir, Fatma elə o vaxtdan aktiv qız idi. Hamlet müəllimin xatirələrinə görə, Fatma Abdullazadə universitetdə ictimai cəhətdən ən aktiv tələbələrdən olub. Özü isə nəinki, bu fəaliyyətlə məşğul olmaq niyyətində olmayıb, hətta bu sahədən zəhləsi getdiyini deyir. "O vaxt məni nə qədər elədilər qrup nümayəndəsi qoysunlar, dedim, heç nə istəmirəm".

"Mənim əvvəlcə Fatmadan xoşum gəlmirdi. O, ictimai sahədə çox aktiv idi, mən də tam passiv idim. Başqa səbəb yox idi. Mən hesab edirdim ki, ictimai aktiv olmaq lazım deyil. Sonra bir gün universitetdə şahmat müsabiqəsində heç gözləmədiyim halda birinci oldum. Birincilik mükafatını mənə Fatma təqdim elədi. Tacı təqdim edəndə, zarafat-zad elədi mənlə. Fatma həmişə zarafatcıl idi. Ondan sonra münasibətlərimiz normal oldu. Ancaq yaxın dostluğumuz olmadı. Sonradan Fatma xanım mənlə Moskvada da aspiranturanı bir oxudu. Amma o zaman onun ictimai aktivliyi bizə kömək edirdi. Fatma xanım həmişə konsertlərə, operalara pulsuz bilet gətirərdi".

Qayıdaq başa...

Hə, qayıdım girişdə dediyim məsələyə. Bəlkə də Hamlet İsaxanlıdan müsahibə alan ilk tələbəsi mənəm. Sevindim ki, elə mən də Hamlet müəllim kimi həmişə oxumağımla öyünsəm də (təvazökarlıqdan uzaq oldu), "digər sahələrdə belə olmayıb". Elə buna görə də, universitet vaxtında haqqımda rektora bir çox şikayətlər gedib. Belə vəziyyətlə bəndəniz təhsil aldığı universitetin rektoru Hamlet İsaxanlıyla görüşmək, dərdini söyləmək üçün bir neçə dəfə müraciət etsə də, qəbula düşmək qismət olmayıb, problemlər isə əleyhimə sonuclanıb. Bəndənizin şəxsi işində şiddətli töhmət, altında isə hörmətli Hamlet müəllimin imzası var.



**Deməli ki, Hamlet müəllimlə söhbətləşmək bu vaxta qismətmiş, həm də belə bir xoş səbəblə, şikayət dinləmək üçün yox. Hamlet müəllimin isə həmin Anarın mən Anar olduğundan yazının bundan əvvəlki cümlələrinə qədər xəbəri yox idi. Ümid edirəm ki, bu xoş təsadüfdən və ya sürprizdən acıqlanmaz, gülümsəyərək, xoş bir təbəssümlə qarşılayar. Elə söhbətimiz zamanı otağa yaydığı təbəssüm kimi...**

**P.S. ...Diplomumsa iki ildir universitetdə qalıb. Hamlet müəllimin bundan da xəbəri yoxdur, heç müsahibənin sonunda da demədim. Əminəm ki, müsahibənin sonundakı qeydim diplomumun gələcək taleyinə təsir etməyəcək...**

**Anar Gəraylı**

# ДОКЛАД О ТОРГОВЛЕ ЛЮДЬМИ 2011 ГОДА: ТЕРМИНЫ И МЕТОДОЛОГИЯ

*29 июня 2011 года*

Ниже приведены выдержки из Доклада о торговле людьми за 2011 год. Госсекретарь США ежегодно представляет этот доклад в Конгрессе США, согласно требованиям Закона о защите жертв торговли людьми 2000 года, который является первым всеобъемлющим федеральным законом США, защищающим права жертв торговли людьми и предусматривающим меры наказания для тех, кто занимается подобной торговлей. В данном докладе даются определения различных юридических терминов, связанных с торговлей людьми и определяются рамки для предотвращения, защиты и судебного преследования, позволяющих бороться с торговлей людьми и защищать ее жертв.

### *Что такое торговля людьми?*

Для описания деятельности, связанной с принуждением людей к труду или оказанию услуг, в последние 15 лет используется обобщающий термин «торговля людьми». В Законе о защите жертв торговли людьми (TVPA) такое принуждение описывается с помощью различных терминов: «подневольное услужение», «рабство», «долговое рабство» и «принудительный труд».

Согласно Протоколу ООН о предотвращении, пресечении и преследовании торговли людьми, особенно женщинами и детьми (Палермский протокол), и Закону о защите жертв торговли людьми, человек считается жертвой торговли людьми вне зависимости от того, родился ли он в состоянии рабства или из него сделали раба, соглашался ли он работать на торговца людьми и совершал ли противоправные действия непосредственно по причине своего подневольного состояния. В основе этого явления лежат разнообразнейшие формы порабощения, а не виды деятельности, связанные с перемещением людей через границы государств.

Основные виды торговли людьми:

### *Принудительный труд*

Ситуация принудительного труда, или подневольного услужения, может возникнуть вследствие эксплуатации недобросовестными работодателями работников, менее защищенных по причине безработицы, преступности, бедности, дискриминации, коррупции, политических конфликтов или терпимости общества к такой практике. Иммигранты особенно уязвимы в этом отношении, однако отдельные лица могут подвергаться принуждению к труду и у себя в странах. Женщины, работающие по принуждению или за долги, в особенности женщины и девушки, находящиеся в домашнем услужении, зачастую подвергаются и сексуальной эксп уатации.

### *Торговля людьми с целью сексуальной эксплуатации*

Жертвами торговли с целью сексуальной эксплуатации считаются совершеннолетние, которых вовлекли в занятие проституцией или насильно удерживают в этом состоянии путем морального или физического принуждения или обмана. Все причастные к вербовке, перевозке, укрывательстве, передаче или получении людей с этой целью являются участниками преступной торговли людьми. Этот вид торговли людьми может быть связан и с долговым рабством, когда женщин или девушек продолжают принуждать к проституции, отказываясь освободить их до погашения «долгов», якобы возникших в связи с их перевозкой, трудоустройством и даже бесчеловечной «продажей». Важно иметь в виду, что первоначальное согласие лица на занятие проституцией не имеет юридического значения: если впоследствии его заставляли продолжать заниматься проституцией, оказывая психологическое или физическое воздействие, такое лицо считается жертвой торговли людьми и имеет право на помощь в соответствии с Палермским протоколом и национальными законами.

### *Труд за долги*

Одна из форм принуждения – использование долговых обязательств, или долга. Этот вид принудительного труда, известный как «труд за долги» или «долговое рабство», давно запрещен законодательством США (где он носит название «пеонаж»), а согласно Палермскому протоколу он должен считаться одной из преступных форм торговли людьми. Долговое рабство распространено во всем мире: торговцы людьми или наниматели закабаляют работников, беззаконно манипулируя

возникающим у них первоначальным долгом, который является условием устройства на работу. В более традиционных вариантах долгового рабства долг может переходить по наследству. Так, по имеющимся оценкам, в Южной Азии миллионы жертв торговли людьми отрабатывают долги предыдущих поколений.

### *Долговое рабство среди трудовых мигрантов*

Нарушения трудовых договоров и опасные условия труда мигрантов не всегда свидетельствуют о факте торговли людьми. Однако незаконное начисление этим работникам издержек и долгов в родной стране, зачастую при участии агентств по трудоустройству и работодателей в стране трудоустройства, может привести к возникновению долгового рабства. Это происходит даже в тех случаях, когда статус работника в стране трудоустройства связан с работодателем в контексте программ временного трудоустройства.

### *Подневольное домашнее услужение*

Уникальным видом принудительного труда является подневольная работа домашней прислуги. Такие работники трудятся на неофициальном рабочем месте, связанном с местом его проживания, в котором как правило другие работники не проживают. Такая обстановка, нередко приводящая к социальной изоляции домашнего работника, способствует принудительной эксплуатации, поскольку органам власти сложнее инспектировать частные владения, чем официальные рабочие места. Следователи и социальные работники сообщают о многочисленных случаях запущенных заболеваний среди домашних работников, и как ни прискорбно, о распространенной практике сексуальных злоупотреблений, которые в определенных случаях являются признаком подневольного услужения.

### *Принудительный детский труд*

Большинство государств и международных организаций признают законность определенных видов детского труда. Однако крепнет общая решимость искоренить наихудшие виды детского труда, включая принудительный труд и труд за долги. Ребенок может быть жертвой торговли людьми безотносительно к тому, где именно он подвергается принудительной эксплуатации. К возможным признакам принудительного детского труда относятся ситуации, в которых опекуном ребенка по-видимому является не член семьи, заставляющий его выполнять работу, которая приносит финансовую выгоду кому-либо вне семьи ребенка, причем этому ребенку не дают возможности сменить место жительства.

Меры по борьбе с торговлей людьми должны дополнять, а не заменять собой традиционные методы борьбы с детским трудом, такие как реабилитация и образование. Лиц, виновных в порабощении детей, следует привлекать к уголовной ответственности, не ограничиваясь традиционными административными мерами, регулирующими детский труд.

### Дети-солдаты

Несение детьми военной службы относится к торговле людьми, если оно связано с незаконной вербовкой или использованием детей (путем применения физической силы, принуждения или обмана) в качестве участников боевых действий или же с целью трудовой или сексуальной эксплуатации в вооруженных силах. Такие преступления могут совершать правительственные войска, военизированные организации или повстанческие отряды. Многих детей забирают насильно, чтобы использовать для участия в боевых действиях. Других незаконно используют в качестве носильщиков, поваров, охранников, ординарцев, посыльных или шпионов. Девочек могут принуждать к замужеству или половым сношениям с бойцами-мужчинами. Дети-солдаты обоих полов часто подвергаются сексуальному насилию и особо подвержены заражению венерическими заболеваниями.

### *Торговля детьми с целью сексуальной эксплуатации*

Согласно данным ЮНИСЕФ, около двух миллионов детей во всем мире заставляют заниматься проституцией в рамках глобальной торговли сексуальными услугами. Согласно международным договорам и соглашениям, сексуальная эксплуатация детей с коммерческой целью должна считаться уголовным преступлением. Сексуальная эксплуатация детей с коммерческой целью запрещена Палермским протоколом, законодательством США и законами других стран мира. Спасению детей от сексуального рабства не могут препятствовать никакие исключения, никакие соображения культурного или социально-экономического характера. Сексуальная эксплуатация детей приводит к катастрофическим последствиям, включая долговременные физические и психические травмы, болезни (включая ВИЧ/СПИД), наркоманию, нежелательную беременность, истощение, социальную отверженность и даже смерть.

*america.gov.ru*

# YAQUB ZURUFÇU ETİRAF EDİR: "SEVGİ HƏR ŞEYİ ÜSTƏLƏDİ..."

*Lent.az-ın "Məşhurların sevgi etirafları" layihəsinin növbəti qonağı o taylı, bu taylı Azərbaycanın sevimli sənətçisi, əməkdar artist Yaqub Zurufçudur*



**- Şərq kişisi üçün şəxsiyyət və qürur sevgidən öncə gəlir, yoxsa sonra?**

- Yaxşı və çətin sualdır... Ümumiyyətlə, sevgi insanın yaşayış tərzidir - mən belə düşünürəm. Heç nəyə qarşı içində sevgi olmayan insan robot kimi bir şeydir. Sualınıza gəlincə, məncə, sevgi sonra gəlir. Mənə görə şəxsiyyət hər şeydən öndə durur. Mən 30 il qürbətdə yaşamışam, axırda vətənimə qovuşmuşam. Anlamışam ki, vətəndən böyük sevgi ola bilməz. Mənim üçün hazırda ən böyük sevgi vətənimə olan sevgimdir. Əgər mənə desələr ki, Azərbaycanda yaşama, inanın, elə o anda ölərəm. Çünki o qədər qürbətdə olmuşam, narahatlıqlar, çətinliklər görmüşəm ki... Mən heç vaxt vətənimi unutmaram. Məni üçün hər şeydən öndə Azərbaycan durur. Vətən mənim şəxsiyyətimdir. Keçən il mənə Azərbaycan vətəndaşlığı, fəxri ad verildi. Buna görə prezidentimizə minnətdaram. Mən azərbaycanlı olmağımla fəxr edirəm, amerikalı olduğuma isə nifrət edirəm.

**- Amerikada cinsindən asılı olmayaraq, hamı sevgisini asanlıqla izhar edə bilər, amma müsəlman cəmiyyətlərində belə deyil...**

- Orda sevgi, demək olar ki, yoxdur. Təəssüf ki, artıq Azərbaycan da o yolu getməyə başlayır, kapitalizm sisteminə düşüb. Mən bura təzə gələndə xətir-hörmət tamam başqa cür idi. Getdikcə münasibətlər dəyişir, bayağılaşır, xüsusən də sevgiyə hörmət azalıb. Çünki kapital imkan vermir, verməyəcək də. Sən səhərdən axşama qədər öz problemlərinin arxasınca qaçmağa məcbursan. Onda sevgiyə vaxt ayıra bilməyəcəksən, imkanın olmayacaq. Bir adam ki, səhər durub işə gedə, evə də gecə gələ, o necə sevəcək? Heç ailəsinə vaxt ayıra bilməyəcək. Mənim fikrimcə, Amerikada mənəvi dəyərlər sıfırdır. Hətta orda yeməyə gedəndə, hərə öz pulunu verir.

**- Yaqub müəllim, bu vaxta qədər unutmadığınız bir sevginiz olub?**

- Adətən ilk məhəbbət heç vaxt unudulmur.

**- İlk məhəbbətlə neçə yaşında qarşılaşmısız?**

- Onda mənim 17-18 yaşım olardı. Məktəbin sonuncu sinfində oxuyurdum. O vaxt, elə indi də İranda qızlar ayrı, oğlanlar ayrı məktəblərdə oxuyurdu. O qızı məktəbdən çıxarkən görmüşdüm. Gözəl siması vardı. Çox ciddi qız idi. Özünü elə aparırdı ki, heç kim ona yaxın dura bilməzdi. Bir dəfə qorxa-qorxa ona yaxınlaşıb, telefon nömrəsini almaq istədim. Dedi, "sən heç bilirsən mən kiməm?" Ondan sonra onun kim olduğunu öyrəndim. Demə, İranın çox məşhur şəxsinin nəvəsi idi. Bir bacısının da əri o vaxt enerji idarəsinin naziri olub. Dedilər, "o qız elə insan deyil kiminləsə tanış ola". Hardasa 5-6 ay çəkdi bu halım. Həqiqətən, çox pis vəziyyətdəydim. Dərsə də getmirdim çox vaxt. Hətta az qalmışdı məktəbdən çıxaralar. Axırda dostlarım dedilər "yazıqsan, kasıb oğlansan. Barı bu məktəbi qurtar, get, özünə çarə qıl. Əl çək bu sevdadan, ondan sənə yar olmaz". Mən bu həqiqətə alışdım və onu unutdum. Sonra əsgərlik, universitet... Bir neçə il sonra eşitdim ki, Fransaya gəlin gedib.



İllər sonra mən artıq məşhur xanəndə olanda Vaşinqtonda konsert verirdim. Onun bacısı da Vaşinqtonda yaşayırdı. Bacısının əri konsertimə gəldi. Konsertdən sonra məni evlərinə apardı, gecəni orada qaldım. Evlərində bir şəkil gördüm, eynən ona bənzəyirdi. Bacısı oğlundan soruşdum bu kimdi? Dedi xalamdı. Gecə 12-də evə zəng gəldi. Gördüm telefonu heç kim götürmür, məcburən mən cavab verdim. Bu xanım idi. Dedi "mən bacımla danışmaq istəyirəm". Dedim, "gözləyin telefonu verirəm oğluna". Soruşdu "bəs siz kimsiz?" Kim olduğumu söylədim - "mən Yaqub Zurufçuyam". Sevindi ki, "mən sizin səsinizin vurğunu-

yam". Soruşdum, "tanıdız məni?" Dedi, "hə, yadıma gəlir... Hayıf olsun..."

**- Bəs institut illərində kimi sevmisiz?**

- Onda da yoldaşımla tanış oldum. 5-6 il dostluq etdik. O idman, mən iqtisad üzrə təhsil alırdım. Sonra evləndik, Almaniyaya, ordan da Amerikaya getdik.

**- Yoldaşınızı sevib ailə qurmuşduz?**

- Bəli, sevib ailə qurduq. İki uşağımız oldu – Dəniz və Dalğa. İndi də Amerikada yaşayırlar. Qızım təhsilini başa vurub. Oğlum isə məşhur universitetlərin birində həkimlik ixtisasına yiyələnir.

**- Amma yoldaşınızdan ayrılmısız artıq...**

- Bunun səbəblərini mən açıqlaya bilmərəm. Amma biz ayrılmışıq, özü də çox səmimi şəkildə. Telefonla da danışırıq. Amerika sistemi budur.

**- Siz Azərbaycana köçəndə ailəniz sizinlə birgə burada yaşamaq istəmədi?**

- Onlar bir-iki dəfə gəldi, amma qala bilmədilər. Uşaqlar orada anadan olub deyə, bura öyrəşmək çətindi. Mən isə Bakını çox sevirəm.

**- İkinci həyat yoldaşınızla necə tanış olmusuz?**

- İkinci həyat yoldaşım azərbaycanlıdır. Jurnalistdir. İctimai televiziyada işləyib. Onunla elə orada "Körpü" verilişində tanış olduq. Gördüm ki, xasiyyəti mənimkilə uyğun gəlir. Sentyabrda ailə qurduq.

**- Neçə yaş fərqiniz var?**

- 25 yaş. Amma o da məni istəyib də (gülür). İnşallah, bir neçə aydan sonra ilk övladımız dünyaya gələcək. İstədim bir uşağım da Azərbaycanda doğulsun.

**- Deməli, həqiqətən də məhəbbət yaşa baxmır.**

- Bilirsiz, mən onu sevdim. Onun xasiyyəti, mədəniyyəti, səmimiyyəti, müəyyən xüsusiyyətləri mənim çox xoşuma gəldi. Və fikirləşdim ki, ola bilər.

**- Qızın ailəsi tərəfindən bir problem yaşanmadı ki?**

- Yox, heç nə. Sevgi hər şeyi üstələdi.

**- Bəs birinci həyat yoldaşınız bunu necə qarşıladı?**

- Onunla bizim məsələmiz həll olunub. O, heç vaxt bu məsələyə qarışmaz. İcazə də vermərəm. Mən ona heç nə deməmişəm.

**- İkinci dəfə evləndiyinizi bilmir ki?**

- Yox. Onlara deməmişəm. Fikirləşirəm ki, bəlkə də mətbuatdan bilirlər. Amma indiyə kimi heç nə soruşmayıblar. Mən də deməmişəm. Və lazım da bilmirəm ki, mənim şəxsi işimə qarışsınlar. Sadəcə, deməyi lazım bilməmişəm. Onlar soruşsalar, əlbəttə mən həqiqəti deyəcəm, onlara heç vaxt yalan danışmaram. Amma nə onlar soruşub, nə də mən deməmişəm.

**- Birinci həyat yoldaşınızı da, ikincisini də sevib ailə qurmusuz. Hiss olaraq hansı daha böyükdür?**



- (düşünür) Sevgi hər yaş dövründə müxtəlif olur. Amma zaman keçdikcə sevgi yaşadığın ölkə ilə mükəmməl ola bilir. Mən evlənib Amerikaya getdim. O ölkə bizim içimizdəki mənəviyyatı yavaş-yavaş bir-birindən ayırdı. Çünki o ölkədə gərək hamı işləyə. Problemlər yarandıqca, zərbələr də artırdı. Məsələn, ailədə problem olanda valideyn məsləhət verir. Amma o ölkədə valideynimiz yox idi, özbaşınalıqdı, dostlar hamısı düşmən kimidir. Orada ayrılmaq normal hal kimi qəbul olunur. Yəni, xaricdə sevgi zamanla azalır. Azərbaycan, ya da Təbriz sevgini qoruyub saxlaya bilərdi. Getdikcə insan bir-birindən uzaqlaşır. Ona görə də, orada çoxu evli deyil. Amma indiki həyat yoldaşım... Mən oxuyanda onun ürəyi gedir. O görür mən Azərbaycanı necə sevirəm.

**- Yoldaşınız sizi daha çox sənətçi kimi sevib?**

- Hə, məni mədəniyyət xadimi kimi tanıyıb və sevib.

**- Səmimi etiraf edin, nə vaxtsa sevdiyinizə xəyanət etmisiz?**

- (gülür) Yox, bunu etiraf etmirəm.

**- Yaqub Zurufçu onu daha çox məşhurlaşdıran "Ayrılıq" mahnısını sevgi mahnısı kimi oxuyur, yoxsa vətənpərvərlik mahnısı kimi?**

- Əslində, bu, lirik mahnıdır. Amma mən onu ancaq vətənpərvərlik mahnısı kimi oxumuşam. Mən "Ayrılıq"la məşhur oldum, bu mahnı o dövrdə top kimi partladı. Yenə deyirəm, mənim üçün əsl məhəbbət Azərbaycandır. Qalan ömrümü çalışacam ancaq Azərbaycan mədəniyyətinə həsr edəm. Xalqım, ölkəm və onun yüksək səviyyədə təbliğatı mənim üçün ən böyük sevgidir. Qalan sevgilər mənə görə çox kiçikdir. Vətəni sevməyəndən sonra heç nəyi sevmək olmaz.

**Xəyalə Muradlı**
*xeyale@lent.az*

# ÜNSİYYƏT, YOXSA TƏLƏ?





*İnternetin Azərbaycanda geniş yayılması ilə bu xidmətdən istifadə edənlərin sayı sürətlə artır. Hazırda ölkəmizdə 4 milyondan artıq internet istifadəçisinin olduğu güman edilir. Bu, ilk baxışdan sevindirici hal kimi qəbul olunsa da, məsələni bir qədər dərindən araşdırdıqda vəziyyətin heç də göründüyü kimi ürəkaçan olmadığı aydın olar.*

*Belə ki, bu gün insanların böyük əksəriyyəti internetdən məlumat almaq, dost-tanışları ilə əlaqə saxlamaq və digər xeyirli məqsədlər üçün yararlanmaq əvəzinə, daha çox əyləncə vasitəsi kimi istifadə edir ki, tanışlıq saytlarının bu baxımdan xüsusi yeri var. Mövzunu Sosioloji Araşdırmalar Mərkəzinin sədri Əhməd Qəşəmoğlu və psixoloq Dəyanət Rzayev şərh edirlər.*



***Tanışlıq saytları narkomaniyadan daha təhlükəli hesab olunur***

Sosioloji Araşdırmalar Mərkəzinin sədri Əhməd Qəşəmoğlu tanışlıq saytlarının narkomaniyadan daha təhlükəli olması qənaətindədir. Onun sözlərinə görə, internetdən istifadənin getdikcə kütləviləşməsi yaxşı hal olsa da, əhalinin əxlaqının, milli təfəkkürün pozulmasında çox güclü rol oynayır. Bəzi qüvvələr də öz çirkin niyyətlərini həyata keçirmək üçün bundan məharətlə istifadə edirlər. Tanışlıq saytlarından daha çox ziyan çəkənlər isə iradəsi zəif olan insanlardır.

Ə.Qəşəmoğlu insanların internetdən daha çox əyləncə vasitəsi kimi istifadə etməsini bir sıra səbəblərlə bağlayır. Əsas səbəblərdən biri kimi işsizliyi göstərən sosioloq qeyd edir ki, heç bir iş sahibi olmayan insanlar internet klublarına, əsasən, boş vaxtlarını "öldürmək" üçün gedirlər. Digər problem insanların əyləncə saytlarına daha çox meyilli olmasıdır.

***Tanışlıq saytları insanları əxlaqsızlığa yuvarlayır***

Dediklərinə sübut kimi sosioloq Rusiyada aparılmış sorğunun nəticələrinə diqqət çəkir: "Rusiyada internetdən daha çox istifadə edən insanlar arasında aparılmış yoxlamalar göstərib ki, onların bir çoxu özünü kompüterə həddindən artıq aludə olmuş xəstə sayıblar. Buna görə də, onlar bu xəstəlikdən müalicə olunmaq üçün kömək istəyiblər. Sorğuda iştirak edənlərin bir çoxu özləri də hiss etmədən əxlaqsızlığa yuvarlandıqlarını etiraf ediblər. Halbuki, onlar belə olacaqlarını təsəvvür belə etməzdilər".

Ə.Qəşəmoğlunun sözlərinə görə, bu problem qlobal xarakter daşıdığından bəzi ölkələr ciddi tədbirlər görməyə başlayıb. Məsələn, Çində internetdən istifadəyə nəzarət son vaxtlar daha da gücləndirilib. Bir çox başqa ölkələrdə isə arzuolunmaz nəticələrin qarşısını almaq üçün tanışlıq saytlarına nəzarət edilir və lazım gələrsə, müdaxilə etməyə icazə verilir.

Bu kimi tədbirlərin Azərbaycanda da tətbiq edilməsini vacib sayan sosioloqun fikrincə, əks halda ölkəmizdə tanışlıq saytları ilə bağlı yarana biləcək problemlərin qarşısını almaq qeyri-mümkün olacaq.

Ə.Qəşəmoğlunu narahat edən digər məsələ isə tanışlıq saytlarının bir çox hallarda ailələrin dağılmasına səbəb olmasıdır:

"Tanışlıq saytları çox böyük təhlükə olmaqla nəinki gəncləri, hətta orta yaşlı qadınları və kişiləri də əxlaqsızlığa sürükləyir. Hətta ailələrin dağılmasına da gətirib çıxara bilir. Təsəvvür edin ki, evli bir qadın həyat yoldaşını işə yola saldıqdan sonra oturur kompüterin qarşısında və kimlərləsə tanış olmaq istəyir. İki-üç gün söhbət etdikdən sonra həmin tərbiyəli

qadın tədricən əxlaqsız bir insana çevrilir. Tanış olduğu kişilərdən biri onu yoldan çıxara və bu da son nəticədə ailənin dağılması, hətta ölümlə nəticələnir".

### *İnternetin pornoqrafik tərəfləri*

İnternetlə bağlı ən çox narahatlıq doğuran məsələlərdən biri də müxtəlif saytlarda pornoqrafiyanın geniş təbliğ olunmasıdır. Əxlaqsız şəkillərə və video çarxlara, hətta tanışlıq səhifələrində də rast gəlmək mümkündür. Belə saytların sayının gündən-günə artmasından narahatlıqla danışan Ə.Qəşəmoğlu bildirib ki, pornoqrafik materialların internetdə yerləşdirilməsinin qarşısını almaq mümkün olmadığından, insanların mənəviyyatı daha böyük təhlükə qarşısındadır. Belə saytlarda ən iyrənc formada olan materiallara belə rast gəlmək mümkündür. Bu isə birbaşa insanların mənəviyyatının, əxlaqının pozulmasına xidmət edir".

### *Virtual tələ*

Daha bir ciddi problem tanışlıq saytlarının insan alveri ilə məşğul olanlar üçün geniş imkanlar açmasıdır. Bunu Ə.Qəşəmoğlu də təsdiqləyir. Onun sözlərinə görə, insan alverçiləri qızlarla tanış olub onların zəif yerlərini öyrəndikdən sonra onları aldadaraq cinsi istismar məqsədilə satırlar.

Sosioloq internet vasitəsilə tanış olub ailə qurmağın perspektivli olub-olmamasına da münasibətini bildirib. Belə ailələrin sayının çox az olduğunu deyən Ə.Qəşəmoğlunun sözlərinə görə, əksər hallarda virtual sevgi yolu ilə yaradılan ailələr tez bir zamanda dağılır. Bunu statistik məlumatlar da təsdiq edir. Bu səbəbdən də o, insanların öz həyat yoldaşlarını internet vasitəsilə tapmalarını məqbul saymır.

Ə.Qəşəmoğlu tanışlıq saytlarının daha çox mənfi tərəflərindən danışsa da, müsbət tərəflərinin də olduğunu söylədi. Onun sözlərinə görə, internetin ən böyük üstünlüklərindən biri insanların bir-biri ilə ünsiyyət qurmasıdır. Lakin bu əxlaqlı şəkildə olmalıdır:

"Digər müsbət tərəfləri ondan ibarətdir ki, əcnəbilərlə danışmaqla xarici dilləri daha yaxşı öyrənmək imkanı əldə edirsiniz, öz ölkələriniz haqqında biliklərinizi paylaşırsınız, yeni məlumatlar əldə edirsiniz. Buna görə də, əhali arasında maarifləndirmə işi aparılmalıdır ki, insanlar tanışlıq saytlarından daha çox bu məqsədlər üçün istifadə etsinlər".

Ə.Qəşəmoğlu arzuolunmaz hadisələrin baş verməməsi üçün bir sıra təkliflər də irəli sürür. O hesab edir ki, valideynlər öz uşaqlarının tərbiyəsinə ciddi fikir verməli və onların internetdən hansı məqsədlər üçün istifadə etməsinə nəzarət etməlidirlər. Dövlət də bu işdə fəallıq göstərməlidir. Geniş təbliğat işi aparılmalı, məsələnin ciddiliyi hamıya başa salınmalıdır.

### *Tanışlıq saytları insanlar arasında canlı ünsiyyəti azaldır*

Psixoloq Dəyanət Rzayev isə internetdən hansı məqsədlərlə istifadə olunmasını həm də mentalitetlə bağlayır. Dediklərinə misal olaraq nikah agentliklərini göstərən psixoloq xarici ölkələrdən fərqli olaraq ölkəmizdə, xüsusən də yaşlılar arasında bu cür agentliklərin fəaliyyətinə müsbət yanaşılmadığını bildirib:

"İnternet, eləcə də tanışlıq saytları insanlar arasında canlı ünsiyyəti azaldır, onları bir-birindən uzaqlaşdırır. Əvvəllər tez-tez görüşən insanlar indi internetdə yazışmağa üstünlük verirlər. Eyni zamanda insanların özlərinə qapanmasına, cəmiyyətdən təcrid olunmasına gətirib çıxarır. Ən əsası isə bu cür saytlara daxil olan insanlarda yaxınlarına qarşı soyuqluq yaranır, ailələrinə daha az vaxt ayırmağa başlayırlar".

Tanışlıq saytlarının ailələrin dağılmasına, hətta dəhşətli cinayətlərin baş verməsinə də gətirib çıxardığını deyən psixoloq, qeyd edib ki, belə faktlar kifayət qədər çoxdur və sayının getdikcə artması ciddi narahatlıq doğurur. Ən çox narahatlıq doğuran məsələlərdən biri isə tanışlıq saytlarında cinsi azlıqların iştirak etməsidir. Onlar yazışdıqları insanları pis yola təhrik edə bilərlər.

Mənfi tərəflərinin çox olmasına baxmayaraq, D.Rzayev tanışlıq saytlarının müsbət tərəflərinin də olduğunu qeyd edib. Bildirib ki, bu cür saytlara daxil olan insanlar bir-biri ilə ünsiyyət yaradırlar, müxtəlif mövzular ətrafında fikir mübadiləsi aparırlar ki, bu da müsbət haldır.

Problemin həllinə gəlincə, D.Rzayev internetdə zərərli saytlara tam məhdudiyyət qoymağın mümkün olmadığını bildirərək, maarifləndirmə işinin gücləndirilməsini vacib sayıb:

"ABŞ-da uşaqların zərərli saytlara girişinin qarşısını almaq üçün yaşı 18-dən az olan uşaqların və yeniyetmələrin gün ərzində iki saatdan artıq internetə daxil olmasına icazə verilmir. Bizdə də bu sahədə effektli tədbirlər görülməli, xüsusən uşaqlar arasında maarifləndirmə işi aparılmalı, onlara nəzarət gücləndirilməlidir".

**Babək Cahandarov**
*QHTxəbər*

# CƏNUBLU ŞAİR VƏ YAZIÇILARIN AZƏRBAYCAN ƏDƏBİ MÜHİTİNƏ İNTEQRASİYASI

*Xaqan Balayev,*
*AMEA İnsan Hüquqları İnstitutu*



*1941-ci ilin avqust ayında sovet qoşunlarının İrana daxil olması ilə Cənubi Azərbaycanda başlayaraq geniş vüsət almış milli-azadlıq hərəkatı cəmiyyətin bütün həyatında olduğu kimi, mədəniyyət və xüsusən ədəbiyyat sahəsində də yeni intibaha yol açdı və tədricən özünəməxsus bədii-estetik keyfiyyətlərə malik milli-demokratik ədəbiyyat formalaşdı. Sovet Azərbaycanından Cənubi Azərbaycana ezam olunmuş yüzlərlə şair, yazıçı və mədəniyyət işçisinin bu prosesdəki fəaliyyəti də bu intibahı şərtləndirən mühüm amillərdən biri idi. Nizami Cəfərov yazır ki, 40-cı illərdə Azərbaycanın Cənubunda baş verən və miqyası, keyfiyyəti etibarilə möhtəşəm ictimai-siyasi, mənəvi-ideoloji hərəkat lazımi nəticəni verməsə də, millətin tarixində bir sıra hadisələrlə əlamətdar oldu ki, onlardan biri də 20-30-cu illərdə Azərbaycanın Cənubunda söndürülmüş ədəbi-mədəni və ideoloji həyatın yenidən canlanması idi (1, s.501).*

Ana dilində nəşrə başlayan, "Vətən yolunda", "Azərbaycan", "Covdət", "Azad millət", "Qələbə", "Günəş", "Demokrat", "Fədai", "Şəfəq", "Azər" qəzet və jurnallarının ətrafında birləşən ədəbi qüvvələr xalqın azadlıq və istiqlaliyyət qayə və amallarını tərənnüm etməklə öz yaradıcılıqları ilə milli-demokratik hərəkatın tərkib hissəsi olan ədəbiyyatın yaranması və mübarizə aparmasının əsasını qoydular.

Əli Fitrət, İbrahim Zakir, Məhəmməd Biriya, Sədi Yüzbəndi, Cəfər Məmmədzadə (Kaşif), Balaş Azəroğlu, Əli Tudə, Məmmədbağır Niknam, Aşıq Hüseyn (Cavan) və başqa şair və ədiblər əsas etibarilə Təbrizdə nəşr olunan "Vətən yolunda" qəzetinin nəzdində təşkil olunmuş "Şairlər məclisi"ndə və ayrı-ayrı şəhərlərdə isə "Ziddi-faşist" təşkilatları ətrafında toplaşmışdılar. Onların şeirləri müxtəlif qəzetlərdə, "Ziddi-faşist" səhifələrində, həmçinin, "Şairlər məclisi"nin aylıq orqanı olan "Şairlər məclisi" adlı məcmuədə nəşr edilir, demokratik hərəkatın ədəbi iştirakçısına çevrilir, xalqı İran istibdadına qarşı çıxmağa səsləyir, mübarizə əzmini artırırdı. Əli Fitrətin

*Dilim Azər, elim Azər, vətənim Azəristandır,*
*Əgər min canım olsa, hər biri bu namə qurbandır* -

misraları döyüşən poeziyanın manifesti kimi səslənirdi.

Bu şeirlər həmişə azadlığa, yeni həyata doğru can atan, İran şahlarına və yadelli işğalçılara qarşı mübarizə aparan, öz məqsədi və ideyası uğrunda vətən torpağını qanı ilə boyayan, səngərlərdə ölən, yaralanan, lakin geri çəkilməyən, imkan tapdıqca yenidən mübarizə meydanına atılan bir xalqın döyüş mahnıları idi. Balaş Azəroğlu 1954-cü il aprelin 15-18-də keçirilmiş Azərbaycan Yazıçılar İttifaqının (AYİ) II qurultayındakı çıxışında deyirdi: "ADF-nin təşkilindən sonra ədəbiyyatımız daha da canlandı və genişləndi. İndi şairlərimizin şeirləri partiyanın irəli sürdüyü milli istiqlaliyyət məsələlərindən bəhs edir, xalqın istəklərini və haqlı tələblərini tərənnüm edirdi. Ədəbiyyatımız tamamilə xalqa bağlı, xalqın mübarizələrində ilham alan bir ədəbiyyat idi. Onu ictimai hərəkatın dalğaları silkələyərək orta əsr Şərq ədəbiyyatının dar çərçivələrindən azad edib istər forma, istər dil və istərsə məzmun etibarilə tamamilə yeni, ictimai, mübariz bir ədəbiyyat səviyyəsinə yüksəldirdi. Elə buna görə də, o zaman yaranan şeirlər ictimai-siyasi məzmunlu şeirlər olub, xalqı mübarizəyə ruhlandıran nəğmələrə çevrilirdi".

Həm arxiv sənədlərində, həm xatirə kitablarında poeziyanın xalqı mübarizəyə necə səfərbər etməsinə aid maraqlı faktlar vardır. B. Azəroğlu yuxarıdakı çıxışında xatırlayırdı: "1945-ci ilin dekabrı yaxınlaşırdı. İndi şairlərimizin bir çoxu qələmi silahla əvəz edərək, fədai dəstələrinə qoşulurdular. Təbrizi mühasirəyə almış fədailərin gecələr yandırdıqları tonqallar adama ərəb işğalçılarına qarşı mübarizə aparan Babəkin qəhrəmanlarını xatırladırdı. Hər axşam isə bir tonqalın başında sədəfli sazını sinəsinə basıb fədailər üçün Koroğludan, Səttarxandan dastanlar oxuyan aşıq Hüseyn Cavanın səsi ucalırdı (2). Ə. Haşimi yazır: "Məhəmməd Biriya Cənubi Azərbaycanda baş vermiş 1941-1946-cı illər inqilabi hərəkatının alovlu, dönməz şairi idi. Onun coşqun misraları o vaxtkı Təbrizin küçə və xiyabanlarında inqilabçı dəstələrin dilində əzbər idi. 1945-ci ilin mayında Sovet Ordusunun alman faşizmi üzərində qələbəsi münasibətilə Miyana şəhərində mitinqdə oxuduğu şerin yüksək pafosu indi də qulağımızdadır" (3, s.108).

Azərbaycanın muxtariyyəti elan edildikdən sonra ədiblər də təşkilatlanaraq, daha geniş fəaliyyət göstərməyə başladılar. "Şairlər məclisi" müstəqil bir cəmiyyətə - "Şairlər və yazıçılar cəmiyyəti" nə çevrildi. Cəmiyyətin ətrafında az müddət ərzində 60-dan çox yazıçı toplandı. Cəmiyyət "Günəş" adlı bədii-ictimai məcmuə nəşr etməyə başladı. Muxtariyyətin bir ili ərzində yaranmış ədəbiyyatın heç də hamısı sənətkarlıq baxımından

yüksək səviyyədə olmasa da, Milli hökumətin həyata keçirdiyi islahatların ədəbiyyatda inikası (artıq nəsr əsərləri də yaranmağa başlamışdı) nöqteyi-nəzərindən əhəmiyyət kəsb edirdi.

1946-cı ilin dekabrında İran ordusu Cənubi Azərbaycanda kütləvi qırğın törədəndə Əli Fitrət, Sədi Yüzbəndi, Cəfər Məmmədzadə (Kaşif), Məmmədbağır Niknam kimi şairlər də ən vəhşi üsullarla qətlə yetirildilər. Digərləri Azərbaycan SSR-ə mühacirət edib, yaradıcılıqlarını davam etdirdilər.

Əli Tudənin dekabrın 12-də gecə Naxçıvanda yazdığı məşhur "Mən nə gətirdim?" şerində yalnız özünün və qələm, məslək dostlarının mənəvi-psixoloji ovqatı deyil, əksər mühacirlərin əhval-ruhiyyəsi tərənnüm olunurdu:

Mən öz qardaşıma mehman gələndə
Bir qələm, bir dəftər, bir can gətirdim.
Dağların döşünü toplar dələndə
Bir ləkə düşməyən vicdan gətirdim.

Mən onu günəşdən təmiz saxladım,
Canımdan, gözümdən əziz saxladım,
Bu kiçik qəlbimdə dəniz saxladım,
Bir xilqət görmədi, pünhan gətirdim.

Ucuz tutmasınlar bu sovqatımı,
Hissimi, duyğumu, ehsasatımı,
Mən öz varlığımı, öz həyatımı
Doğma qardaşıma qurban gətirdim.

Ürək dağ deyildir, bir parça ətdir,
Bəs onu yaşadan hansı qüdrətdir?
Bir arzu, bir ümid, bir məhəbbətdir,
Mən o məhəbbətdən nişan gətirdim.

Qardaşım, illərlə istədin ki sən
Öz ana yurdunda azad olum mən...
Lakin cəlalımı dağıtdı düşmən,
Tək sənə, tək sənə güman gətirdim.

Yenə Azərbaycan qan ağlayır, qan,
O azad olmasa, yaşamam, inan!
Gərək mən Təbrizə qayıdan zaman
Deyəm ki, təzə bir dövran gətirdim.

Mühacirətin ilk günlərindən digər mühacirlərlə eyni taleni bölüşdürən yaradıcı ziyalılara AYİ rəhbərliyi, ayrı-ayrı şair və yazıçılar (onların bir çoxu Təbrizdən tanış idilər) hər cür qayğı göstərmişdilər. Onların şeir və hekayələri mətbuatda, almanaxlarda çap olunurdu. "İnqilab və mədəniyyət" jurnalında "Cənubi Azərbaycan ədəbiyyatı" guşəsi ayrılmışdı. Yazıçılar İttifaqının təşkilatçılığı ilə "Cənubi Azərbaycan ədəbiyyatı gecələri" keçirilirdi. Sonralar mühacir ədiblər yaradıcılıq ezamiyyətlərinə göndərilir, 1950-ci ildən etibarən Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti dekadalarında iştirak edir, Azərbaycanın görkəmli sənətkarlarının ümumittifaq miqyasında keçirilən yubileyləri zamanı nümayəndə heyətlərinin tərkibində ölkənin müxtəlif şəhərlərində olurdular. Demək olar ki, tədricən onların hamısı ali təhsil almışdı. Gənc şair və yazıçılar, bir qayda olaraq, Azərbaycan Sovet Yazıçılar İttifaqının Azərbaycan LKGİ MK ilə birlikdə vaxtaşırı keçirdiyi respublika müşavirələrində iştirak edir, məruzələrdə onların yaradıcılığı da təhlil olunurdu.

Təbrizdə yaradılmış "Şairlər və yazıçılar cəmiyyəti" də 1947-ci ildən Bakıda "Azərbaycan Yazıçılar Cəmiyyəti" adı ilə fəaliyyətini davam etdirməyə başlamışdı (sonradan müxtəlif mənbələrdə fərqli tərzdə adlanır: ADF MK sənədlərində – "Cənubi Azərbaycan Yazıçılar Cəmiyyəti"; Azərbaycan KP MK sənədlərində – "SSRİ-də İran Azərbaycanı Yazıçıları Cəmiyyəti"; Azərbaycan Sovet Ensiklopediyasında – "İran Azərbaycanı Yazıçıları Cəmiyyəti"). Cəmiyyətə Balaş Azəroğlu sədrlik edirdi. İbrahim Zakir, Abbas Pənahi (Makulu), Əli Tudə, Mədinə Gülgün, Hökumə Billuri, aşıq Hüseyn Cavan və digər təcrübəli ədiblərlə yanaşı, yaradıcılığa Sovet Azərbaycanında başlamış Söhrab Tahir, Fəthi Xoşginabi, İsmayıl Cəfərpur, Əliqulu Heydərzadə, Firuz Sadıqzadə, Sabir Əmirov, Məmməd Dadaşzadə, Məmmədrza Afiyət, Qasım Cahani, Həmid Məmmədzadə, Qulamrza Cəmşidi, Jalə, Hüseynqulu Bəhrami, Qəhrəman Qəhrəmanzadə, Ağaverdi Ələkbərzadə, Cəfər Mücuri kimi gənclər də cəmiyyətin işində fəal iştirak edirdilər. Balaş Azəroğludan sonra Cənubi Azərbaycan Yazıçılar Cəmiyyətinə uzun müddət Söhrab Tahir başçılıq etmişdi. Beş milyonluq bir xalqın öz istiqlaliyyəti uğrunda apardığı mübarizəsini əks etdirmək və bu qəhrəman xalqın adına layiq əsərlər yaratmaq vəzifəsi bu kiçik dəstənin üzərinə düşürdü. Oxucular Cənubi Azərbaycan mövzusunda yazılmış əsərləri, adətən, maraqla qarşılayırdılar. Lakin mühacir ədiblərin yaradıcılığı yalnız cənub mövzusu ilə məhdudlaşmırdı, müxtəlif mövzularda da əsərlər yaradırdılar.

1950-ci ilin ortalarından etibarən Cənubi Azərbaycan Yazıçılar Cəmiyyəti fəaliyyət dairəsini genişləndirərək, digər yaradıcı mühacirlərin öz sahə təşkilatları olmadığına görə alim, rəssam, aktyor və xanəndələri də öz sıralarına cəlb etməyə başlamış və bunun çox böyük səmərəsi olmuşdu. Bir neçə il ərzində cəmiyyət dirçələrək, Təbrizdəki fəaliyyət səviyyəsinə yüksəlmişdi. Cəmiyyət müntəzəm olaraq mədəni-kütləvi tədbirlər, o cümlədən, ədiblərin xatirə müsamirələrini, yubileylərini, poeziya məclisləri, ədəbi görüşlər keçirirdi.

1947-ci ildən 1954-cü ilədək mühacir ədiblərin 29 adda kitabı 60 çap vərəqi həcmində çap olunmuşdu. Bundan əlavə, həmin müddətdə onların əsərlərindən ibarət 5 almanax da nəşr edilmişdi. Həmin almanaxlarda təcrübəli yazıçılarla yanaşı, yaradıcılığa Sovet Azərbaycanına gələndən sonra başlayan gənclərin də əsərləri dərc olunmuşdu.

ADF Komitəsinin Məsələlərinə Baxılması üzrə Komissiya da mühacir ədiblərin yaradıcılığı ilə əlaqədar daxil olan təkliflərə baxır, qərarlar qəbul edirdi. Komissiya 22 may 1954-cü il tarixli iclasında "Demokrat yazıçılar qrupunun Azərbaycan Yazıçılar İttifaqına onun seksiyası kimi təşkilati birləşməsi haqqında" məsələ müzakirə olunmuşdu. Bundan sonra AYİ-də Cənubi Azərbaycan ədəbiyyatı bölməsi yaradılaraq bir müd-

dət fəaliyyət göstərmişdi. Komissiyanın həmin iclasında vaxtaşırı buraxılan almanaxın həcmini 20 çap vərəqinə çatdırmaq haqqında qərar qəbul edilmişdi. 25 iyul 1955-ci il tarixli iclasında komissiya "1956-cı ildə demokrat yazıçı və şairlərin əsərlərinin nəşri haqqında" məsələ müzakirə edərək, onların əsərlərinin nəşriyyatların planlarına daxil edilməsi haqqında qərar qəbul etmiş, Azərbaycan Yazıçılar İttifaqına ADF MK ilə birlikdə demokrat yazıçı və şairlərlə müşavirə keçirməyi tövsiyə etmişdi. Həmin il 12 müəllifin 8 adda şeir, 4 adda nəsr, B. Azəroğlu və Ə. Tudənin "Seçilmiş əsərləri" və 1 almanax (cəmi 76 çap vərəqi həcmində) çap olunmuşdu.

ADF MK da cənublu ədiblərin təşkilati və yaradıcılıq məsələlərinin həllində yaxından iştirak edirdi. 1956-cı ildə hətta MK plenumlarının birində "Mühacirətdəki Cənubi Azərbaycan ədəbiyyatının son illərdəki yaradıcılıq prosesi barədə" məsələ müzakirə olunmuş, Söhrab Tahirin bu mövzudakı məruzəsindən sonra geniş müzakirələr aparılmışdı.

Cənublu şair və yazıçıların AYİ-yə üzv qəbul olunması 1958-ci ildən başlanmışdı. ADF MK sədri Çeşməzər həmin il mayın 8-də Azərbaycan Yazıçılar İttifaqının sədri Mehdi Hüseynə göndərdiyi məktubda ilk dəfə bu məsələni qaldırmışdı. Məktubda yazırdı: "Bildiyiniz kimi, ADF MK-nın təbliğat-təşviqat şöbəsinin nəzdində Cənubi Azərbaycan Yazıçıları Cəmiyyəti vardır ki, onun üzvləri bədii yaradıcılıq ilə məşğul olurlar. Bu yazıçıların bir sırası 1941-ci ildən sonra Cənubi Azərbaycanda milli azadlıq dövründə yazıb yaratmağa başlamış, qalan dəstəsi isə 1947-ci ildən sonra Sovet Azərbaycanında yaranan imkanlardan istifadə edib, ədəbiyyat sahəsinə gəlmiş yoldaşlardır. İndi həmin yoldaşlar arasında yaradıcılıq cəhətdən yetkinləşmiş yazıçılarımızla bir sırada ümid verən gənc şair və nasirlər də vardır.

Umumazərbaycan ədəbiyyatının ayrılmaz bir hissəsini təşkil edən Cənubi Azərbaycan ədəbiyyatının inkişafı üçün Sovet İttifaqında yaranmış imkanlardan daha artıq istifadə etmək məqsədilə yazıçılarımız Azərbaycan Yazıçılar İttifaqı ilə daha sıx əlaqə saxlamaq və təşkilati cəhətdən daha çox yaxın olmaq arzusundadırlar.

ADF-nin Mərkəzi Komitəsi ədəbiyyatımızın inkişafı və yazıçılarımızın yaradıcılığının irəliləməsi üçün onların arzusunu nəzərə alaraq, fərdi surətdə Azərbaycan Yazıçılar ittifaqına üzv olmaları işinə köməklik etmənizi sizdən xahiş edir" (4).

Cənubi Azərbaycan Yazıçılar Cəmiyyətinin İdarə Heyəti İyunun 14-də Azərbaycan Yazıçılar İttifaqına göndərdiyi məktubda B. Azəroğlu, M. Gülgün, aşıq Hüseyn Cavan, S. Tahir, F. Sadıqzadə və H. Məmmədzadənin, iyulun 29-da göndərdiyi məktubda İ. Zakir, Ə. Tudə, H. Billuri, F. Xoşginabi, A. Pənahi (Makulu) və İ. Cəfərpurun yazıçılar ittifaqına üzv seçilməsini təklif etmişdi.

1958-ci il oktyabrın 14-də B. Azəroğlu, F. Xoşginabi, H. Billuri və İ. Zakir AYİ-yə üzv qəbul olunmuş və bu proses davam etmişdi. Həmin il dekabrın 6-da AYİ İdarə Heyətinin iclasında Balaş Azəroğlu AYİ İdarə Heyətinin üzvü seçilmişdi. Sonralar o, AYİ-nin rəyasət heyətinin tərkibində də fəaliyyət göstərmişdi. 1958-ci ildən 1965-ci ilədək mühacir yazıçıların sayı iki dəfə artmışdı. Onlardan bəziləri bədii yaradıcılıqla yanaşı fəal ictimai iş aparır, müəyyən vəzifələr daşıyırdılar. Balaş Azəroğlu Cənubi Azərbaycan Ədəbiyyatı Cəmiyyətinin sədri idi. 1954-1955-ci illərdə ADF MK-nın mərkəzi orqanı "Azərbaycan" qəzetinin redaktoru, 1959-1964-cü illərdə ADF MK sədrinin müavini olmuşdu. Hökumə Billuri 1954-1963-cü illərdə ADF MK üzvü, 1956-1960-cı illərdə "Azərbaycan" qəzetinin redaktoru olmuşdu və s.

Mühacir ədiblərin söylədiklərindən və bir arxiv sənədindən 1960-cı illərdə Cənubi Azərbaycan mövzusunun bir müddət qismən yasaq edildiyi aydınlaşır. 1950-ci illərin sonunda, yaxud altmışıncı illərin əvvəlində Bakıda olan Sov.İKP MK Rəyasət Heyətinin üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Anastas İvanoviç Mikoyan partiya-sovet fəalları yığıncağındakı çıxışında söyləmişdi ki, Cənubi Azərbaycan mövzusunda yazılan bəzi əsərlərdəki iki Azərbaycanın birləşməsi ideyasını İran dövləti öz daxili işlərinə qarışmaq, suverenliyinə qəsd kimi qiymətləndirir. Bundan sonra Azərbaycan KP MK-nın təbliğat və təşviqat şöbəsi tərəfindən Azərbaycan SSR Nazirlər Soveti yanında Mətbuatda Dövlət Sirrini Qoruyan İdarəyə, qəzet-jurnal redaksiyalarına müvafiq şifahi göstəriş verilmişdi. Bu, Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin sənədlərində əksini tapmasa da, digər arxivin – S. Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin bir sənədi ilə dolayısılə təsdiqini tapır.

AYİ Rəyasət Heyətinin 23 may 1962-ci il tarixli iclasında millətçilikdə günahlandırılan Xəlil Rzanın məsələsi müzakirə olunarkən, AYİ İdarə Heyətinin birinci katibi Mehdi Hüseyn Xəlil Rzaya birbaşa belə sualla müraciət edir: "Tez-tez cənubdan, dildən niyə yazırsan? Cavansan, inkişaf edirsən, niyə düz yolla getmirsən?" (5). Deməli, cənubdan yazmaq da "düz yolla getmək deyilmiş". 1965-ci ildə Mikoyan hakimiyyətdən kənarlaşdırıldıqdan sonra yasaq öz-özlüyündə aradan qalxmışdı.

Yuxarıda qeyd etdiyimiz kimi, mühacir ədiblər cənub mövzusu ilə yanaşı, müxtəlf mövzularda əsərlər yaradırdılar. Onların əsərləri oxucular tərəfindən rəğbətlə qarşılanır, maraqla mütaliə olunurdu. Lakin ədəbi prosesin bütün sahələrində eyni dərəcədə fəal deyildilər. Poeziya və proza janrlarında ədəbi ictimaiyyətin diqqətini cəlb edən yüksək bədii səviyyəli əsərlər yaradıldığı halda, dramaturgiya və uşaq ədəbiyyatı, satira və ədəbi tənqidlə peşəkarcasına məşğul olanlar, demək olar ki, yox idi.

Cənublu ədiblərin yaradıcılığı azərbaycanlı həmkarları, ədəbi tənqid tərəfindən yüksək qiymətləndirilirdi. AYİ-nin 1964-cü il martın 23-də keçirilən plenumunda AYİ-nin birinci katibi Mehdi Hüseyn məruzəsində B. Azəroğlu, Ə.Tudə, F. Xoşginabi, S. Tahir və İ. Cəfərpuru "sıralarımızda görkəmli və möhkəm yer tutmuş silahdaşlarımız", M. Gülgünü Nigar Rəfibəyli və M. Dilbazi ilə birlikdə "incə və həssas rübabı olan şair" adlandırmışdı. Süleyman Rüstəm Azərbaycan yazıçılarının IV qurultayındakı (24 dekabr 1965-ci il) çıxışında Osman Sarıvəlli, Məmməd Rahim, Rəsul Rza kimi şairlərlə yanaşı Balaş Azəroğlu və Əli Tudəni də "poeziya-

mızın uzun yollarının yorulmaz yolçuları" kimi səciyyələndirmişdi. Cənublu ədiblərin əsərləri Moskva nəşriyyatlarında çap olunur, SSRİ xalqlarının dillərinə, xarici dillərə tərcümə edilirdi. Azərbaycan KP MK-nın qərarları ilə onların yubileyləri keçirilir, SSRİ-nin orden və medalları ilə təltif olunur, "Xalq şairi" kimi yüksək fəxri ada layiq görülürdülər.

Bu sənətkarlar mühacirətin ilk günlərindən heç bir siyasi iddiaya qapılmadan sovet cəmiyyətini bütün gerçəklikləri və ziddiyyətləri ilə səmimi qəbul edib, yerli ədiblərlə eyni dərəcədə onu böyük pafosla tərənnüm edirdilər. Sosialist inqilabına və onun rəhbərinə həsr etdikləri əsərlər 1988-ci ildə "Cənubi Azərbaycan yazıçıları Lenin və Oktyabr haqqında" adlı ayrıca kitab halında çap olunmuşdu. Həmin kitabın nəşri məsələsi 1987-ci il iyulun 15-də AYİ-nin katibliyində müzakirə olunmuş, çapı haqqında qərar qəbul edilmişdi.

Lakin bu ədəbi inteqrasiyaya qoşulmayan, yaxud sovet cəmiyyətini inkar edərək ona qarşı çıxan tək-tək ədiblər də vardı. Arazın o tayında, B. Azəroğlunun təbirincə desək, "Azərbaycan dilini və onun tarixiliyini inkar edən İran şovinistlərinə, B. Azəroğlunun söylədiyi kimi, "səbt edib səhfeyi-tarixdə dövran dilimi" – deyə dişsındırıcı cavab verən Mir Mehdi Çavuşi" Arazın bu tayında bədii yaradıcılıqla az məşğul olur, yalnız ilk vaxtlarda bir neçə şerini çap etdirmişdi. Məhəmməd Biriya isə sovet cəmiyyətinə, onun ideologiyasına qarşı üsyankar mövqe tutmuşdu. Elmi ədəbiyyatda Biriya haqqında yazılmış olsa da, yeni arxiv sənədlərindən və 2010-cu ildə çap olunmuş xatirə ədəbiyyatından istifadə etdiyimizə görə və tədqiqatımızın bu mövzusunun tam olması məqsədilə onun siyasi bioqrafiyasını biz də elmi işimizə daxil etməyi məqsədəuyğun saydıq.

Biriya 1914-cü ildə Təbrizdə dülgər ailəsində anadan olmuşdu. 1920-ci ildən 1931-ci illədək ailəsi ilə birlikdə Bakıda yaşamış, 1929-cu ildə yeddiillik təhsili başa vurandan sonra ilyarım ərzində Bakı Neft Maşınqayırma Texnikumunda oxumuşdu. İran vətəndaşları olduqlarına görə 1931-ci ildə SSRİ-dən çıxarılaraq, ailəsi ilə İrana qayıtdıqdan sonra Təbrizdə orta təhsilini başa vurmuş, bir neçə ay "Şahin" qəzetinin redaksiyasında korrektor, 1934-1938-ci illərdə Təbriz şəhər idarəsində qeydiyyatçı işləmişdi. 1938-1939-cu illərdə İran ordusunda hərbi xidmətdə olmuşdu. Sonra yenə şəhər idarəsində su şöbəsində katib, 1941-ci ildən dəmir yolunda hesablayıcı işləmişdi.

1941-ci ildən Biriya ciddi siyasi fəaliyyətə başlamış, antifaşist hərəkatının təşkilatçılarından biri olmuşdu. Onun alovlu şeir və məqalələri Qızıl Ordunun "Vətən yolunda" qəzetində dərc edilirdi. Bu zaman artıq Cənubi Azərbaycanda İran Xalq Partiyasının xadimlərindən biri idi.

İran hökuməti tərəfindən təqiblərə məruz qaldığına görə 1942-ci ilin aprel ayında ailəsi ilə birlikdə Sovet İttifaqına mühacirətə gələn Biriya Bakıda yaşayaraq, radio verilişləri idarəsində işləyir. Sovet vətəndaşlığına qəbul olunmaq üçün müraciət etsə də, sonra bu fikrindən vaz keçərək, təkidlə İrana qayıtmaq haqqında məsələ qaldırmış, İranın Bakıdakı konsuluna rəsmi ərizə ilə müraciət etmişdi. 1943-cü ilin yanvar ayında ailəsi ilə birlikdə (arvadı, atası, ögey anası, üç bacısı və bir qardaşı) İrana qayıdan Biriya yenidən siyasi həyata qoşulmuş, İran Azərbaycanının istiqlaliyyəti uğrunda fəal mübarizəyə başlamışdı.

Azərbaycan Demokrat Firqəsinin yaradılmasında fəal iştirak edən Biriya 1944-1945-ci illərdə İran Azərbaycanı Birləşmiş Həmkarlar İttifaqlarının sədri olmuş, Milli Məclisin deputatı seçilərək, Milli hökumətdə maarif naziri vəzifəsini tutmuşdu.

Hərəkatın məğlubiyyətindən sonra ADF-nin müvəqqəti sədri kimi gizli iş aparmaq üçün bir müddət Təbrizdə qalandan sonra təhlükəsizliyinin təmin olunması üçün 1947-ci ilin mart ayında gizli yolla Bakıya gətirilmiş, Azərbaycan K(b)P MK-nın sərəncamı ilə Respublika partiya məktəbinə daxil edilmişdi. Həmin il dekabrın 27-də ailəsinə qovuşmaq məqsədilə İrana qayıtmaq üçün İranın Bakıdakı konsuluna müraciət edəndən sonra Azərbaycan MTN-in rəsmi nəzarəti altında saxlanılaraq, 1948-ci il avqustun 11-də həbs olunmuş, barəsində Azərbaycan SSR CM-nin 68-ci maddəsinin 1-ci bəndi (casusluq) ilə cinayət işi qaldırılmışdı. Həmin il noyabrın 27-də SSRİ Dövlət Təhlükəsizlik Nazirliyi (DTN) yanında Xüsusi Müşavirə tərəfindən 10 il müddətinə azadlıqdan məhrum edilmişdi. Məhbuslar arasında antisovet təbliğatı apardığına görə 1950-ci il dekabrın 31-də düşərgə məhkəməsi tərəfindən ona RSFSR CM-in 58-10 maddəsinin 1-ci bəndi ilə yenidən 10 il iş kəsilmişdi.

1956-cı il sentyabrın 1-də Azərbaycan SSR Ali Məhkəməsinin Cinayət İşləri üzrə Məhkəmə Kollegiyası SSRİ DTN yanında Xüsusi Müşavirənin Biriya haqqındakı qərarını ləğv etmişdi. SSRİ Ali Sovetinin komissiyasının qərarına əsasən həmin il sentyabrın 14-də azadlığa buraxılan Biriyaya SSRİ - nin istənilən yerində yaşamaq təklif olunsa da, o, İrana qayıtmaq istədiyinə görə Mordva Muxtar Respublikasının Potma qəsəbəsində xaricə getmək arzusunda olanlar üçün yaradılmış xüsusi məntəqədə saxlanılmışdı.

Biriyanın azad edildiyindən və İrana getmək istəyindən xəbər tutan ADF MK sentyabrın 29-da Azərbaycan KP MK-ya müraciət edərək, Biriyadan demokratik hərəkatın əleyhinə istifadə olunacağına görə onun İrana buraxılmaması, Bakıda onun üçün iş və yaşayış şəraiti yaradılması haqqında məsələ qaldırmışdı.

1956-cı il noyabrın 1-də Biriya Potmadakı məntəqədən çıxarılaraq, Bakıya gətirilmişdi. Söhrab Tahirin yazdığına görə, "o günlərdə təhlükəsizlik idarəsində kiçik rütbəli zabit olan hündür, xoşsima və işcil Heydər Əliyev rəsmi olaraq gedib onu Mirrəhim Vilayi ilə birlikdə... gətirmişdi" (6). Rəsmi dairələrin Biriyaya burada yaşaması və yaradıcılıqla məşğul olması üçün şərait yaratmaq cəhdlərinə baxmayaraq, o, təkidlə İrana qayıtmaq istəyini bildirir və 1956-cı il noyabrın 12-də Moskvaya gedərək, İran səfirliyinə daxil olmaq istəsə də, bunun qarşısı alınır və o əməliyyat işçisinin müşayiəti ilə Bakıya gətirilir. Lakin o, yenə də İrana getmək inadından dönməyərək, Moskvadakı İran səfirliyinə məktub göndərir və dekabrın 6-da telefonla səfir Məsud Ənsəri ilə bu məsələni müzakirə edir.

1957-ci il yanvarın 18-də Biriya Azərbaycan KP MK-ya, Azərbaycan SSR Nazirlər Sovetinə və Azər-

baycan SSR Ali Sovetinin Rəyasət Heyətinə məktub göndərərək, marksizm-leninizm məktəblərinin bağlanmasını, Marks, Engels, Lenin və Stalinin heykəllərinin götürülməsini, ermənilərin Azərbaycandan qovulmasını, sərhədlərin açılmasını, dini azadlıq üçün bütün şəraitin yaradılmasını, bu məqsədlə xüsusi qəzet və jurnalların nəşr edilməsini xahiş edir. Onun bu məktubu "kəskin antisovet və millətçi sənəd" kimi qiymətləndirilir.

1957-ci il fevralın 21-də Azərbaycan SSR prokuroru Ə. Babayev və Azərbaycan SSR Nazirlər Soveti yanında DTK sədri F. Kopılov Biriya haqqında birgə məktubla Azərbaycan KP MK-ya müraciət edirlər. Məktubda yazırdılar: "Bağırzadə öz əhatəsində olanlara heç bir vəchlə Sovet İttifaqında qalmaq istəmədiyini bəyan edir və digər siyasi mühacirləri də İrana getməyə çağırır. Tanışları ilə antisovet məzmunda söhbətlər edir, onlara antisovet və millətçi məzmunda yazdığı şeirləri oxuyur. Bağırzadə haqqında göstəriş almaq məqsədilə ona aid bütün materiallar bizim tərəfimizdən SSRİ Nazirlər Soveti yanında DTK-nın 2-ci Baş idarəsinə göndərilmişdir. Bizə məlum olduğuna görə, Biriyaya aid materiallar haqqında Sov.İKP MK-nın yoldaş Ponomaryov tərəfindən rəhbərlik edilən şöbəsinə, SSRİ Nazirlər Soveti yanında DTK-nın rəhbərliyinə və SSRİ Prokurorluğuna məruzə edilmişdir.

Bu il fevralın 8-də SSRİ Nazirlər Soveti yanında DTK-nın 2-ci Baş idarəsindən Bağırzadənin antisovet söhbətlərini və antisovet məzmunda şeirlər yazdığını sənədləşdirib, onu həbs etmək haqqında göstəriş almışıq.

Bu göstərişə müvafiq olaraq, fevralın 16-da keçirdiyimiz əməliyyat nəticəsində Bağırzadə şəhərdə ikən milis işçiləri tərəfindən yanında şəxsiyyətini təsdiq edən sənədi olmayan şəxs qismində saxlanılaraq, Voroşilov Rayon Milis Şöbəsinə gətirilmişdir. Axtarış zamanı onda bir neçə antisovet və millətçi məzmunda şeir tapılmışdır.

Misal üçün, həmin şeirlərin birində Bağırzadə marksizm-leninizmə, erməni xalqına, Kommunist Partiyası və SSRİ hökumətinin rəhbərlərindən birinə (*həmin şəxsin Sov.İKP MK Rəyasət Heyətinin üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Anastas Mikoyan olduğu ehtimal edilə bilər* – **X. B.**) kəskin mənfi münasibətini bildirir və İran şahını mədh edərək, bütün ömrü boyu ona xidmət göstərməyə hazır olduğunu bəyan edir.

Digər şerində o, Bakıda yaşayan İran demokratlarını təhqir edir, onların ünvanına millətçilik ruhunda böhtanlar söyləyir.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Bağırzadənin (Biriyanın) bundan sonra azadlıqda qalmasını məqsədəuyğun hesab etmirik" (7).

1957-ci ilin mart ayında Biriya həbs olunaraq, casusluq maddəsi ilə yenidən 10 il müddətinə azadlıqdan məhrum edilir. 1967-ci ildə həbs müddəti başa çatandan sonra Bakıya qayıdan Biriya yenidən İrana getməyə icazə almağa çalışsa da, buna nail ola bilmir və yenidən Moskvada İran səfirliyinə müraciət etmək istərkən təhlükəsizlik orqanlarının əməliyyatı nəticəsində "sovet milisini təhqir etdiyinə görə" 2 il müddətinə azadlıqdan məhrum edilir. 1969-cu ildə Bakıya qayıtsa da, ona burada yaşamağa icazə verilmir, 3 illiyə Şamaxıya sürgün olunur. Sürgün müddəti bitəndən sonra Bakıya dönən Biriya mübarizədən usanmış halda tənha həyat keçirərək, nisgillərini şerə çevirməklə təsəlli tapır:

Başına döndüyüm, qurban olduğum,
Deyirsən evə gəl, mən necə gəlim?
Gözəl camalına heyran olduğum,
Deyirsən evə gəl, mən necə gəlim?

Üzümü bir belə danlama, bəsdi,
Bilirsən, fələyin işləri nəsdi,
Gəlirdim, yolumu MQB kəsdi,
Deyirsən evə gəl, mən necə gəlim?

Lagerin dövrəsi çəpərdi, valla,
Hər yana baxıram xətərdi, valla,
Burdan xilas olmaq hünərdi, valla,
Deyirsən evə gəl, mən necə gəlim?

Çəpərin dalında durub nigəhban,
Qabaqda ölümdü, arxada zindan,
Qadasın aldığım yari-mehriban,
Deyirsən evə gəl, mən necə gəlim?

Üzümü tutanda qadir Allaha,
Dönür seksiyalar ibadətgaha,
Mənə vəslin olub canımdan baha,
Deyirsən evə gəl, mən necə gəlim?

Adım Məhəmməddir, özüm riyasız,
Hələ çıxmamışam sənə vəfasız,
Məni buraxmayır tutan həyasız,
Deyirsən evə gəl, mən necə gəlim?

1979-cu ildə İranda baş verən İslam inqilabından sonra şairin vətənə qayıtmasına imkan yaranır. 1980-ci il sentyabrın 29-da Təbrizə gələn şair burada da adəti üzrə gördüyü haqsızlıqlara qarşı etiraz səsini ucaldır və həbs olunur. 1985-ci ildə həbsxanada vəfat edir.

Biriyanın həyat tarixçəsi cənubdan olan yaradıcı ziyalıların ümumi fəaliyyəti fonunda istisna bir hal idi. Mühacir ədiblər sovet cəmiyyətinin qayda-qanunları ilə yaşayır, ədəbi mühitə və prosesə sıx inteqrasiya şəraitində yazıb yaradırdılar. N. Cəfərov qeyd edir ki, "40-50-ci illərdən fərqli olaraq, 60-70-ci illərdə həmin mühacir şairlər yaradıcılıqlarının tipologiyası etibarilə özlərini daha çox cənublu deyil, şimallı hiss edirdilər" (8).

### ƏDƏBİYYAT

1. Cəfərov N. Q. Azərbaycanşünaslığa giriş. Bakı: AzAtaM, 2002, 600 s.
2. S. Mümtaz ad. ARDƏİA: f. 340, siy. 1, iş 856, v. 87-88
3. Haşimi Ə. Mübarizələrdə keçən ömür. Bakı: Maarif, 2002, 136 s.
4. S. Mümtaz ad. ARDƏİA: f. 340, siy. 1, iş 878, v. 28
5. S. Mümtaz ad. ARDƏİA: f. 340, siy. 1, iş 1012, v. 49
6. Tahir S. A. Əsərləri: 20 cilddə. XIX c., Bakı: Şirvannəşr, 2010, 404 s.
7. ARPİİSSA: f. 1, siy. 89, iş 203, v. 122-124
8. Cəfərov N. Q. Azərbaycanşünaslığa giriş. Bakı: AzAtaM, 2002, 600 s.

# HANSI ÖLKƏDƏ İNSANLAR NEÇƏ İL YAŞAYIR?

***Dünya Bankı 2011-ci ildə ölkələr üzrə orta yaş həddini açıqlayıb***

| | Kişi | Qadın | Orta yaş |
|---|---|---|---|
| İsveçrə | 80 | 85 | 82.5 |
| Yaponiya, Honq Konq | 79 | 86 | 82.5 |
| İtaliya | 79 | 85 | 82 |
| Fransa | 78 | 85 | 81.5 |
| Avstraliya | 79 | 84 | 81.5 |
| Kanada, İsrail, İsveç | 79 | 83 | 81 |
| İspaniya | 78 | 84 | 81 |
| Almaniya, Norveç, Avstriya, Sinqapur | 78 | 83 | 80.5 |
| B.Britaniya, Niderland, Yunanıstan, Y.Zelandiya | 78 | 82 | 80 |
| Koreya Respublikası (Cənubi Koreya) | 77 | 83 | 80 |
| Finlandiya | 76 | 83 | 79.5 |
| Danimarka | 77 | 81 | 79 |
| Çili | 76 | 82 | 79 |
| ABŞ | 76 | 81 | 78.5 |
| Birləşmiş Ərəb Əmirlikləri | 77 | 79 | 78 |
| Malayziya, Liviya | 72 | 77 | 74.5 |
| Ermənistan | 70 | 77 | 73.5 |
| Səudiyyə Ərəbistanı, Çin | 71 | 75 | 73 |
| Türkiyə | 70 | 74 | 72 |
| İran | 70 | 73 | 71.5 |
| Gürcüstan | 68 | 75 | 71.5 |
| Azərbaycan | 68 | 73 | 70.5 |
| Rusiya | 62 | 74 | 68 |
| Qazaxıstan | 61 | 72 | 66.5 |
| Mozambik | 47 | 49 | 48 |
| Nigeriya | 47 | 48 | 47.5 |

***Dünya üzrə orta yaş***

| Kişi | Qadın | Orta yaş |
|---|---|---|
| 67 | 71 | 69 |

*Məlumatda qeyd olunur ki, orta yaş həddinin yuxarı olmasına əsasən iki amil – uşaq ölümü ilə uğurla mübarizə aparılması və yaşlı adamların həyatının yaxşı keçməsi üçün görülən işlər təsir göstərir.*

# FORGET FAME! EUROVISION CROWNS NO NAMES FROM AZERBAIJAN

*Winners of 2011 Eurovision song contest, Ell and Nikki from Azerbaijan*
*Eurovision*

*By William Lee Adams / Düsseldorf*
*Sunday, May 15, 2011*




In the run-up to this year's Eurovision Song Contest, celebrity contestants dominated the headlines and the bookies' odds tables. Britain's boy band Blue — who have sold 13 million records worldwide since 2001 — flew the British flag. And Jedward — the world's most famous set of singing identical twins, who finished sixth on Britain's X-Factor — represented Ireland. But during the grand finale, held Saturday evening in Düsseldorf's Esprit Arena, European voters bypassed all the celebrity hype in favor of Ell & Nikki — two unknowns from Azerbaijan singing a ballad about the madness of love. "I'm just a housewife with two kids," Nikki (real name Nigar Jamal) said at the press conference afterwards. "My only dream was to represent my country."

It's easy to understand why. Although critics dismiss Eurovision as a cultural eyesore for its garish outfits and lyrics seemingly written with Google Translate, it remains the world's most watched non-sporting event, drawing more than 120 million viewers annually. Tens of thousands of fans fill the ranks of the Organisation Générale des Amateurs de l'Eurovision (OGAE), the international network of Eurovision fan clubs, which has chapters in 34 countries. And from Armenia to Greece to Sweden, national selection contests — which are televised in primetime over several weeks — are the most popular programs on TV. For the devoted fans who make pilgrimages to these finals, and for the contestants dreaming of pan-European stardom, Eurovision is practically their religion, its songs their holy scripture.

In fact, for those fans, who travel from as far afield as Hong Kong and Australia, the cheesy, over-the-top aspect of Eurovision performances is part of the appeal. This year's Swedish contestant literally broke through a glass cage on stage while singing "My body wants you girl, my body wants you girl." The Moldovan act included a woman dressed as a fairy on a unicycle and digital gnomes flying across the stage's LED screen (the largest in the world). And the Ukrainian act focused less on singer Mika Newton and her song "Angel," and more on Kseniya Simonova, the sand artist and YouTube hit, who drew clouds, planets and angels all in sand while Newton howled into a wind machine.

But look past the glitter and sequins, and the contest transforms into a barometer of contemporary Europe. Belarus' Anastasiya Vinnikova delivered a patriotic ode to her motherland called "I Love Belarus," an effort to give the nation something to sing about following months of mass demonstrations against embattled Pre-

sident Alexander Lukashenko. "I love Belarus/ Got it deep inside/ I love Belarus/ Feel it in my mind," she sang in a slinky dress as flames shot 100 feet into the air. Despite the rise of far-right, anti-immigrant parties in Norway in recent years, voters there chose to send Kenyan-born Stella Mwangi to Düsseldorf. A pioneer of Norway's hip-hop scene, she penned a song in Swahili and English called "Haba Haba" (Little by Little), partly about the perseverance that helped her family, who are political refugees, adjust to life up north. "There were days when if you were Norwegian you had to look a certain way or talk a certain way," she tells TIME. "Norway proved those days are over."

Most controversial was Portugal's entry H-omens da Luta, who many felt violated Eurovision's rule banning songs with overtly political messages. Written in March as Portugal teetered towards bankruptcy, their song "Luta e Alegria" (The Struggle Is Joy) criticized the government's proposed austerity measures. "Bring on the bread/ bring on the cheese/ bring on the wine," sang the sextet, dressed as working-class Portuguese protesters. "Come celebrate this situation/ and let us sing against reaction!" Sung at protests throughout the country in March, the song became an anthem of rebellion against Prime Minister Jose Socrates, who ultimately resigned.

At Eurovision, though, European voters sent the popular, outspoken group packing in the semi-finals. Perhaps they should have taken a cue from the Azeris, who ignored politics in favor of good old-fashioned schmaltz — the cornerstones of any strong Eurovision ballad. Their song "Running Scared" tells the story of a man and woman frightened by their mutual obsession. Because the moments they share are so perfect and their love so tender, the simple act of breathing could make it all fall apart. "I'm running, I'm scared tonight/ I'm running, I'm scared of life/ I'm running, I'm scared of breathing/ 'Cause I adore you." After the victory, it looks like Europe adores them, too.



# ПОЭТЫ ВОСПЕВАЮТ ТАКУЮ ЛЮБОВЬ...

*30 июня в Азербайджане - День влюблённых*



На свадебной фотографии двое- Он и Она. Они стали символом вечной любви, как и цветы, которыми влюбленные сегодня осыпают их могилу. А пока на свадебной фотографии эти лица сияют счастьем и радостью. Они уже знают, что будут всегда вместе, что их жизнь будет наполнена радостью и счастьем...

После смерти любимого она не захотела жить. Её самоубийство не было сиюминутным порывом, решением, принятым в состоянии аффекта - ведь после первой попытки её спасли. И лишь после второй ей удалось осуществить задуманное. Ей было всего 20 лет. А их нерожденному ребёнку, которого она тогда носила под сердцем, сейчас был бы 21 год.

Ильхам Аждар оглы и Фариза Чобан кызы Аллахвердиевы. Муж и жена. Азербайджанские Ромео и Джульетта. День их свадьбы стал Днём влюблённых в нашей стране. Обычно поэты воспевают такую любовь, рассказывая о ней детям и внукам. Их жизни оборвались, но память об этой паре возродилась и живёт в сердцах влюблённых, тех, кто принял эстафету из их рук. Цветку зародившейся настоящей и нежной любви не суждено было выжить в жестоких условиях, в то смутное время. Молодость, жажда счастья не терпят смирения с судьбой или подмены чувства. Истинная любовь была и остаётся такой во все времена.

Так что же это за чувство такое - Любовь? Оно сложное как алхимия, и простое, как всё земное, одновременно. Сложное-для самих влюблённых и простое - для врачей. Они давно и совершенно буднично охарактеризовали его как болезнь, как совокупность сложных биохимических процессов и превращений. Это не просто циничное заявление. В классификации Всемирной Организации Здравоохранения это волшебное чувство имеет обозначение и свой порядковый номер, как и любая другая болезнь, а именно - F 63.9. И у неё есть причины (этиология), механизм развития (патогенез), многообразная симптоматика, течение (острое, подострое, непрерывно - рецидивирующее, вяло текущее, хроническое) и исход - оптимистичный или наоборот - prognosic pessime, как говорят врачи на латыни. Всё как в истории болезни - сухо и чётко. Симптоматика богата: учащение пульса, одышка и сухость во рту, а порой даже головокружения, коллапс и даже шок. Исход тоже не всегда одинаков: можно и умереть (летальный исход), а можно и сойти с ума, как уверял покойный психиатр Агабек Ашумович Султанов.

Так что же делать? Становиться сумасшедшим не хочется (если получится), умирать тем более. Что же тогда? А вот что-ЛЮБИТЬ - и всё! Просто так, ни за что, без оглядки, самозабвенно, ничего не прося и не требуя взамен, вопреки канонам наступившей рыночной экономики. Любить и возрождаться снова, становиться счастливей, здоровее и моложе, под всепобеждающим влиянием этой до сих пор не разгадан-

ной до конца тайны. Видеть волшебные сны, таить в себе печаль или никем не понятую радость, разгадывать смысл слов и подсознательных взглядов, в сотни раз воспроизводить и прокручивать в себе прошедший день, словно киноленту, засыпать счастливым в объятиях любимого человека или жить с горстями транквилизаторов и снотворных? Всё равно любить - это значит жить полноценной жизнью, в которой есть место и шипам и розам, и мёду и дёгтю, и водной глади и подводным рифам...

Любить, невзирая ни на что: ни на условия и возможности, возраст, семейное и общественное положение, состояние здоровья, должность, молву, ханжество, хамство и другие проблемы бытия. Потому что это чувство одновременно и лечит от всех этих проявлений и проблем, потому что оно помогает в борьбе с ними. Оно всемогуще, и сметает, как ураган, на своём пути всё, что мешает жить.

Оно не проходит, вопреки расхожим обывательским представлениям. Просто оно (простите за каламбур) проходит все этапы своего развития, как и сама жизнь. От влюблённости - к зрелому чувству, прошедшему испытания, выстраданному, и потому ещё более дорогому и ценному. Оно постоянно трансформируется, претерпевает изменения, меняет формы.

Сначала «это бабочки, что порхают в животе»- так охарактеризовал это чувство знакомый студент. Это ощущение вдохновения, это ещё не любовь, это предчувствие любви. А потом сердце сползает куда-то вниз и остаётся там пульсировать. Оно теряет свою топографию, попадая в такт такого же неровного биения, - перефразирую В. Высоцкого. В результате эти двое - счастливы. Потом наступает стадия «плато» - стабильная. Она может пойти на спад, или, что более оптимистично, достичь небывалых высот и совершенствоваться до бесконечности. Но секрет счастья влюблённого в том, что он не задумывается над исходом, он любит, и ему важен сам процесс, который длится всю жизнь и «качество» этой жизни будет зависеть от качества любви и прямо пропорционально ему.

Мы сами родители своего чувства, а значит, и счастья. Но парадокс состоит в том, что опасность этой болезни как раз в избавлении от неё, ведь это похоже на «маленькую» смерть. Ромео и Джульетта, Тристан и Изольда, Варс и Сава, Фархад и Ширин, Лейли и Меджнун, Ильхам и Фариза... Эстафета продолжается и передаётся из поколения в поколение, на всех континентах и во все времена. И не имеет значения, кто из них любил другого больше и меньше, кто



был ведущим, а кто - ведомым, кто был богат, а кто беден, кто стар, а кто молод. Они все познали это чувство, и были счастливы, и потому все эти различия не имели никакого значения и были бессильны что-либо изменить. Чувство само меняет их так, как это ему заблагорассудится. Это талант, данный далеко не всем, это подарок судьбы. Величайший символизм любви заключается в том, что сама жизнь находит в ней свой исток, своё начало. И сколько бы она не длилась - век или миг, и чем бы ни закончилась- она прекрасна, и ей мы обязаны жизнью. Давайте же не будем неблагодарными судьбе, давайте любить и умирать в любви. И ни о чём не жалеть!

*Лейла Джамильзаде,*
*врач Университета Хазар*



# İŞDƏ YAXŞI MÜNASİBƏTLƏRİN FAYDASI

*Təl-Əviv Universitetinin əməkdaşları bu qənaətə gəlmişlər ki, işdə şəraitin yaxşı olması insanın ömrünü uzadır*

Onların apardığı araşdırma nəticəsində məlum olmuşdur ki, iş mühitinin və sosium tərəfindən dəstəklənməyin ölüm riski baxımından ən güclü təsir etdiyi insanlar 38-43 yaş qrupuna aiddir.

Lakin alimlər bu fikri dəqiqləşdirərək bildirirlər ki, bu effekt rəhbər ilə onun tabeliyində olan işçinin münasibətləri ilə bağlı deyil. İşdə müstəqil qərarlar qəbul edən insanların əməkdaşlarla yaxşı münasibətləri onların ömrünü uzadır. Bu nəticələr 20 illik axtarışlar zamanı müəyyən edilmişdir. Ekspertlərin tədqiqat obyekti 820 könüllüdən ibarət idi. Könüllülərin hamısı maliyyə, sığorta, kommunal xidmətlər, səhiyyə və 8 saatlıq rejimlə işləyən istehsalat sahələrində çalışanlar olmuşdur.

Mütəxəssislər işdə münasibətlərin insan ömrünün uzunluğuna təsirini qiymətləndirmək üçün tədqiqatda iştirak edən insanların qanının tərkibində xolesterin, triqliserid və qlükozanın səviyyəsini, onların arterial təzyiqini və bədənin kütlə indeksini müntəzəm ölçmüşlər. Bundan əlavə, onların alkoqollu içkilər qəbul etməsi, siqaret çəkməsi, depressiya və təşviş simptomları, əvvəlki xəstəlikləri barədə informasiya nəzərə alınmışdır. Məlum olmuşdur ki, işdə dəstək alan insanların bu göstəriciləri çox vaxt norma həddində olur.

# ZƏNCƏFİL UNİVERSAL DƏRMANDIR

*Zəncəfilin xeyirli xüsusiyyətləri insanlara çoxdan məlumdur. Bu gözəl bitkinin vətəni Qədim Hindistandır. Məhz orada lap qədimdən zəncəfili universal dərman adlandırıblar. Ədviyyə kimi zəncəfildən çoxdan istifadə edirlər. Onu mürəbbələrə, souslara, ət və tərəvəz yeməklərinə əlavə edirlər. Zəncəfilli çay, pivə, şərab da hamıya məlumdur.*



Zəncəfilin müalicəvi xüsusiyyətləri çox təsirlidir. Zəncəfil kökü ağrıkəsici, spazmatik, yel xəstəlikləri, soyuqdəymə, şişlərin sorulması, gücləndirici, tərlədici, yarasağaldıcı və s. xüsusiyyətlərə malikdir.

Zəncəfilin ətri və dadı yorğunluğu, süstlüyü aradan götürür. Onun müntəzəm qəbulu insanı ruhlandırır və özünəinamı artırır, görmə qabiliyyətini yaxşılaşdırır, üzü təravətləndirir, zehni aydınlaşdırır. Zəncəfil orqanizmdə olan xolesterini aşağı salan ən nadir bitkidir.

Alimlər sübut etmişlər ki, zəncəfilin müntəzəm qəbulu şiş xəstəliklərinin profilaktikasında ən çox gözəl vasitədir.

Təcrübədə zəncəfil kökü immunomodulyator kimi də sübut olunmuşdur. Zəncəfil immuniteti möhkəmlədir və orqanizmi soyuqdəymədən qoruyur. Qış fəslində uşaqlar soyuqdəyməni hiss edən kimi zəncəfil kökünün bir dilimini çeynəməklə xəstəliyin qarşısını almaq olar. Boğaz ağrısı zamanı 2 çay qaşığı zəncəfil kökünün duzla qəbulu ağrıları sakitləşdirir. Məlumdur ki, zəncəfil mədənin selikli qişasını möhkəmlədir və orqanizmi parazitlərdən qoruyur.

Zəncəfilin köməyi ilə "dəniz" xəstəliyinin öhdəsindən gəlmək olar. Ürək bulanmalarında, başgicəllənmə zamanı da ondan istifadə edilir.

Bədəni təmizləmə xüsusiyyətinə görə zəncəfil orqanizmi zəhərlərdən və şlaklardan qoruyur, ümumi səhhəti yaxşılaşdırır. Ona görə də zəncəfildən hamiləlik vaxtı toksikoz simptomlarına qarşı istifadə olunur.

Zəncəfil həzmetməyə kömək edir, iştahanı artırır, mədəni və qanı isidir. Zəncəfil payız və qış aylarında daha xeyirlidir.

Antimikrob fəaliyyətinə görə zəncəfil nəinki nəfəsi təravətləndirir, həm də ağız boşluğunda selikli qişanın problemlərini aradan qaldıraraq stomatit və qinqiviti müalicə edir.

# PÜSTƏ DOYMA HİSSİ YARADIR

*Püstənin xassələri alimləri təəccübləndirmişdir*



ABŞ-ın İllinoys Universitetinin mütəxəssisləri bu qənaətə gəlmişlər ki, aclıq hissini püstənin köməyi ilə dəf etmək olar. Bir ovuc püstə doyma hissi yaradır.

Püstə çox kalorili olduğu üçün onu əsas yeməkdən əvvəl yeyəndə daha tez doydurur, yəni bu zaman daha az kalori qəbul edirsən. Bu üsul qəbul edilən qidanın miqdarına nəzarət edə bilməyən insanlar üçün faydalıdır.

Diyetoloqlar bildirirlər ki, püstə arıqlamaq üçün ən yaxşı və dadlı vasitədir. Amma alimlər, görünür, bir problemi nəzərə alınırlar. İnsanların əksəriyyəti aclıq hissini dəf edənədək deyil, boşqabı "silip-süpürənədək" yeməyə üstünlük verir. Əlalxüsus, yemək dadlı olanda.

# A VİTAMİNİNİN XEYRİ

*Dünya alimləri metobolizm proseslərində mühüm rol oynayan A vitamininin imkanlarını öyrənirlər*



Müasir tədqiqatlar göstərir ki, məhz A vitamininin çatışmazlığı immun sistemini zəiflədir və insan infeksiyalar, iltihablar, digər xəstəliklər qarşısında əlacsız qalır. A vitamini həm də ən mükəmməl antidepressantdır. Bu vitamin insan orqanizmi üçün çox əhəmiyyətlidir.

A vitaminin universallığı getdikcə daha çox təsdiq edilir. Onun mədə-bağırsaqda və ümumiyyətlə bütün orqanizmdə iltihabla mübarizə prosesinə təsir etməsi məlum olmuşdur. A vitamini hətta güclü antigistamindir. Alimlər immunitetin vitamindən asılı olduğunu söyləyirlər. Belə ki, immun sistemi tamamilə A vitamini və onun miqdarından asılı olan metabolik proseslərdən asılıdır.

A vitaminini həm də cavanlıq vitamini adlandırırlar. Belə ki, o, dərinin, saçın, dırnaqların və daxili orqanların hüceyrə strukturuna təsir edir.

A vitamini balıq, balıq yağı, qara ciyər, kərə yağı, pendir, süd və yumurta sarısında olur.

# KATARAKTA ƏTRAF MÜHİTİN ÇİRKLƏNMƏSİ NƏTİCƏSİNDƏ ƏMƏLƏ GƏLİR

Boston xəstəxanası həkimlərinin gəldikləri qənaətə görə, ətraf mühitin çirkləndiyi yerlərdə işləmək, yaxud havasında qurğuşunun konsentrasiyası yüksək olan rayonlarda yaşamaq gec-tez ciddi göz xəstəliklərindən biri sayılan kataraktanın inkişafına gətirib çıxarır.

Həkimlər oftalmologiya bölməsinin xəstəsi olan 650 nəfər üzərində tədqiqatlar apararaq sübuta yetirmişlər ki, orqanizmində külli miqdarda qurğuşun birləşməsi konsentrasiyası olan xəstələrdə kataraktanın inkişafı riski 3 dəfə daha çoxdur. Qurğuşunun miqdarı bud sümüyü toxumasının analizi əsasında müəyyən edilmişdir. Orqanizmi qurğuşunla yüklənən insan siqaret çəkəndə, yaxud diabetdən əziyyət çəkəndə kataraktanın inkişafı riski 3 dəfə artır.

# MOZAİKA




## "FACEBOOK"-UN YARADICISI VARLILARIN SİYAHISINDA YÜKSƏLİB

*"Facebook" sosial şəbəkəsinin yaradıcısı Mark Sukerberqin sərvəti 18 milyard dolları ötüb*

Lent.az-ın Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin rəsmi saytına istinadən verdiyi məlumata görə, Mark Sukerberq bununla dünya informasiya texnologiyaları (İT) sənayesinin ən imkanlı insanları siyahısının üçüncü pilləsinə yüksəlib.

Hazırda reytinqdə Mark Sukerberq "Apple" şirkətinin təsisçisi Stiv Cobs və "Google"-nin təsisçiləri Sergey Brin və Larri Peyci üstələyərək "Microsoft" korporasiyasının yaradıcısı Bil Qeyts və "Oracle" şirkətinin təsisçisi Larri Ellisondan geridədir. "Facebook" rəhbərinin maddi vəziyyətinin hesablanması sosial şəbəkənin qiymətli kağızlarının dəyərləndirilməsinə əsasən müəyyən edilir.

Bəzi analitiklərin fikrincə, Mark Sukerberqin maddi imkanının artması Facebook-un birjada təmsil olunmasından qabaq bu sosial şəbəkə ətrafındakı ajiotajla bağlıdır. Şirkətin artıq gələn ildən birjaya çıxacağı gözlənilir. Bundan sonra "Facebook"-un səhmlərinin dəyəri həm arta, həm xeyli azala bilər.

## DAHİ FİZİKİN BEYNİNİN ŞƏKİLLƏRİ HƏRRACDA

*Dahi fizikin beyninin şəkilləri "Julien's Auctions Gallery" hərracında 38750 dollara satılmışdır*



Dahi fizik Albert Eynşteynin kəlləsinin rentgen şəkilləri ABŞ-ın Kaliforniya ştatında keçirilmiş "Julien's Auctions Gallery" hərracında 38750 dollara satılmışdır. Eynşteynin beyni adi insan beynindən 15 faiz böyük olmuşdur.

AzərTAc "Reuters"ə istinadən xəbər verir ki, onun özü dahiliyinin səbəblərini araşdırmağa çalışmamışdır. Dahi fizik bildirmişdir: "Dünyada ən gözəl hiss sirri duymaqdır. Həyat sirri qarşısında ən güclü hisslər keçirirəm".



## NAPOLEONUN DƏFTƏRİ SATILDI

*Fransa imperatoru I Napoleonun ingilis dili dəftəri və rəsmləri – unikal sənədlər hərracda 93,1 min avroya satılıb*

Auksionda ilkin qiymət 7 mindən 9,5 min avroya qədər olub. Nəticədə bütün lotlar Əlyazma və Məktub Muzeyi yuxarıda göstərilən qiymətə alınıb.

Bundan əlavə, Napoleonun 1796-cı il Arkol yaxınlığındakı döyüş barədə xatirələri də alqı-satqıya çıxarılıb. Bu sənəd 53,8 min avroya alınıb.

Muzey 21 iyun tarixində yeni sənədlərin sərgisini keçirməyə hazırlaşır.

## YENİ "TÜRKİYƏ GÖZƏLİ"

*"Miss Turkey 2011" gözəllik müsabiqəsi başa çatıb*



20 yaşlı Melisa Aslı Pamuk müsabiqənin qalibi olub. O, qələbə üçün iki ayda çəkisini 9 kiloqram azaldıb və məqsədinə çatıb.

Melisa Aslı Pamukun boyu 1,76 metr, bədən ölçüləri 85-62-90-dır. İngilis, alman və fransız dillərini bilir, psixologiya ixtisası üzrə təhsil alıb. O, "Dünya gözəli-2011" müsabiqəsində Türkiyəni təmsil etmək hüququ qazanıb.



## DÜNYADA ƏN QƏDİM ŞAMPAN ŞƏRABI

*Dünyada ən qədim iki şüşə şampan şərabı Finlandiyada 54 min avroya satılmışdır*

Baltik dənizində batmış yelkənli gəmidən 2010-cu ildə götürülmüş dünyada ən qədim iki şüşə şampan şərabı iyunun 3-də Finlandiyada hərracda satılmışdır.

İki lotdan 54 min avro əldə edilmişdir.

İki məşhur Fransa markalı şərab - "Dul qadın Kliko" və hazırda mövcud olmayan "Juqlar" şərab növləri satışa çıxarılmışdır.

Avropa ekspertlərinin rəyinə görə, bu şərab növlərinin 180 ilə yaxın yaşı vardır. XIX əsrə aid bir şüşə "Dul qadın Kliko" şərabı 30 min, "Juqlar" şərabı isə 24 min avroya satılmışdır.

Hər iki lotun alıcısı Asiyadandır. Alıcılar barədə təfərrüatlar açıqlanmır.

Şərabın sahibi, Aland adaları hökumətinin mədəniyyət naziri Britt Lundberq demişdir: "Bu hadisənin nadirliyi ondadır ki, dünyada ilk dəfədir belə qədim şərab satılmışdır. Bu, həm də Finlandiyanın tarixində alkoqollu içkilərin satıldığı ilk hərracdır."

Ölkədə alkoqol üzərində dövlət inhisarı mövcuddur və buna görə də hərracın həmtəşkilatçısı "Alko" dövlət şirkəti olmuşdur.

Aland adaları hökumətinin qərarı ilə bu hərracdan əldə olunmuş gəlir xeyriyyə məqsədlərinə - Baltik dənizində suyun keyfiyyətinin yaxşılaşdırılması üzrə ekoloji tədbirlərin həyata keçirilməsinə yönəldiləcəkdir.

## 13 MİLYON DOLLARA ZÜMRÜD TAC

*Son Fransa imperatoru III Napoleonun xanımı Yevgeniyeyə aid olan zümrüd tac 12.76 milyon dollara satılıb*



Lent.az-ın "haberturk.com" saytına istinadən verdiyi məlumata görə, İsveçdəki Sothebys auksion mərkəzində keçirilən hərrac zamanı 1900-cü illərdə Almaniya şahzadəsi Quido Henkel von Donnersmarksın ikinci xanımı Katerina tərəfindən istifadə edilən zümrüd tacı alan şəxsin adı açıqlanmayıb.

Hərrac zamanı kimyəvi saflığı ilə ən çox axtarılan almazlardan olan çəhrayı almaz da 10,8 milyon dollara satılıb. 30 ildir ki, belə çəhrayı almaz satılmayıb.

# AZƏRBAYCAN ŞAHMATÇILARI DÜNYA KUBOKU YARIŞLARINDA

*FİDE dünya Kuboku yarışlarında iştirak etmək hüququ olan şahmatçıların siyahısını dərc etmişdir*

Beynəlxalq Şahmat Federasiyası (FİDE) Xantı-Mansıda keçiriləcək (27 avqust – 20 sentyabr) dünya Kuboku yarışlarında iştirak etmək hüququ olan şahmatçıların siyahısını dərc etmişdir.

AzərTAc xəbər verir ki, həmin idmançıların siyahısında Azərbaycan şahmatçıları da vardır.

Qrossmeysterlər Vüqar Həşimov (2760), Şəhriyar Məmmədyarov (2772) və Teymur Rəcəbov (2744) reytinq üzrə ən yaxşı şahmatçılar kimi FİDE-nin dəvətini almışlar. Rauf Məmmədov (2679) və Namiq Quliyev (2522) isə 2011-2012-ci illərdə Avropa çempionatlarının nəticələrinə görə seçilmişlər.

Qeyd edək ki, FİDE-nin reytinqində Şəhriyar Məmmədyarov 9-cu, Vüqar Həşimov 10-cu, Teymur Rəcəbov 13-cü, Rauf Məmmədov 62-ci yerdədirlər.



*Vüqar Həşimov*



*Şəhriyar Məmmədyarov*



*Teymur Rəcəbov*



*Rauf Məmmədov*

# AVROPA ÇEMPİONATI ÜÇÜN NƏHƏNG SAAT

*Ukraynanın paytaxtı Kiyevdə futbol üzrə 2012-ci il Avropa çempionatınadək qalan vaxtı hesablayacaq 13 tonluq saat quraşdırılıb*

UEFA EURO2012 POLAND-UKRAINE

Lent.az-ın "Ukrayna-2012" informasiya mərkəzinə istinadən verdiyi məlumata görə, "taymer"in təntənəli işəsalma mərasimi iyunun 8-də - Avropa çempionatının startına düz bir il qalmış keçiriləcək.

Saat Kiyev şəhər administrasiyasının binası ilə üzbəüzdədir. Onun monitoru təqribən 3 metr hündürlükdə dayaq üzərində quraşdırılıb. Siferblatın ölçüsü 8-in 2-yə nisbətindədir. Saat Avropa çempionatına neçə gün, neçə saat və neçə gün qaldığını daim göstərəcək.

Qeyd edək ki, 2012-ci il Avropa çempionatı Polşa və Ukraynada keçiriləcək. İlk oyun Varşavada, final matçı isə Kiyevdə olacaq.

# "AKKORD" AVROPA ÇEMPİONLAR KUBOKUNA SAHİB OLMUŞDUR

Slovakiyanın Bratislava şəhərində otüstü xokkey üzrə kişi və qadınlar arasında Avropa Çempionlar Kubokunun "Çelenc IV" turnirində "Akkord" kuboka sahib olmuşdur.

"Akkord Sənaye Tikinti-İnvestisiya Korporasiyası"nın ictimaiyyətlə əlaqələr və mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, iyunun 13-də finalda Bolqarıstanın "NSA" komandası ilə mübarizədə 6:2 hesablı inamlı qələbə qazanan kişilərdən ibarət "Akkord" otüstü xokkey komandası Avropa Çempionlar Kubokunun "Çelenc IV" turnirinin qalibi olmuşdur.

Qeyd edək ki, "Akkord" turnir çərçivəsində Sloveniyanın "Moravski Toplitse" (10:2), Türkiyənin "Qaziantep Polisgücü" (4:2), Slovakiyanın "Raca" (3:0) komandalarına qalib gələrək yarımfinala vəsiqə qazanmışdı.

# FƏRİDƏ ƏZİZOVA: "BU UĞURU LONDON OLİMPİADASINDA DAVAM ETDİRMƏYƏ ÇALIŞACAĞAM"

*"London Olimpiadasına vəsiqə qazandığıma görə çox sevincliyəm"*

Bu sözləri apasport.az saytına açıqlamasında 2012-ci il London Olimpiadasına vəsiqə qazanan azərbaycanlı taekvondoçu Fəridə Əzizova deyib. Yay Olimpiya Oyunlarına lisenziya verən taekvondo üzrə dünya təsnifat turnirində uğurlu çıxış edən Fəridə bu turnirə çox ciddi hazırlaşdığını bildirib: "Bu turnirə hazırlıq məqsədilə Qusarda 1 aylıq təlim-məşq toplanışında iştirak etdim. Döyüşlərimin hamısı çətin keçdi. Ən əsası, ¼ finalda rəqibim olan kanadalı idmançı Karen Serdjeli ilə görüşümü qeyd edə bilərəm. O, Pekin Olimpiadasının gümüş mükafatçısıdır. Yarımfinaldakı rəqibim Elin Yohanson da asan rəqib deyildi. Hər halda, Avropa çempionudur. Finala çıxmaqla Olimpiadaya lisenziya qazanaraq, xalqımızı sevindirə bildiyimə görə şadam. Bu uğuru həm finalda, həm də London Olimpiadasında davam etdirməyə çalışacağam".




Qeyd edək ki, Fəridə gələn il İngiltərə paytaxtında keçiriləcək məsul turnirdə çıxış etmək hüququ qazanan ikinci idmançımızdır. Buna qədər milliləşdirilən belaruslu atlet Dmitri Marşin Minskdəki beynəlxalq turnirdə 3-cü yeri tutmaqla, London Olimpiadasında çıxış etmək hüququna yiyələnib.

# LONDON OLİMPİADASININ MƏŞƏLİ

*2012-ci il London Yay Olimpiya Oyunlarının açılış mərasimində iştirak edəcək məşəlin prototipinin iyunun 8-də Böyük Britaniyanın paytaxtı Londonda təqdimatı keçirilib*



Məşəl qızıl suyuna salınmış, piramida formalı, 3 küncdü və çoxsaylı deşikli olacaq. Məqsəd Britaniya şəhərlərində olimpiya məşəli estafetini qarşılayacaq hər kəsin onu görməsindən ibarətdir. Məşəlin alüminiumdan hazırlanması onun ən kiçik estafet iştirakçıları üçün yüngül olmasını şərtləndirəcək. Məşəlin çəkisinin azaldılması üçün səthində 8000 deşik açılıb. Bu, həm də estafet iştirakçılarının sayını və məşəlin Britaniya ərazisindən keçəcəyi hissənin uzunluğunu göstərir. Məşəlin 3 küncə malik olması isə Londonun 1908 və 1948-ci illərdən sonra üçüncü dəfə Yay Olimpiya Oyunlarını qəbul edəcəyini göstərir.

İngiltərənin Koventri qraflığında 8 min məşəl hazırlanacaq. Prototipin sınağı yaxın vaxtlarda Almaniyanın Münhen şəhərində "BMW" avtokonserninin mütəxəssisləri tərəfindən aparılacaq. Məşəl aşağı və yüksək temperaturla küləyə duruş gətirə biləcək. O, Yunanıstandan İngiltərəyə 2012-ci il mayın 18-də çatdırılacaq. Ardından məşəl bütün ölkəni dolaşdıqdan sonra iyunun 27-də London olimpiya stadionuna çatacaq. 74 gün ərzində estafet ölkənin 74 yaşayış məntəqəsindən keçəcək.

# QİTƏ BİRİNCİLİYİNDƏN MEDALLARLA

Rusiyanın Medın şəhərində 12-13 yaşlı yeniyetmələr arasında universal döyüş üzrə Avropa birinciliyi keçirilmişdir. Yarışda Azərbaycanı milli komandanın baş məşqçisi Fərhad Ocaqverdiyevin rəhbərliyi altında 6 idmançı təmsil etmişdir.

Azərbaycan Universal Döyüş Federasiyasından AzərTAc-a bildirmişlər ki, qitə birinciliyində 50 kq çəki dərəcəsində çıxış edən Baxtiyar Həsənli finalda rusiyalı idmançını məğlub edərək qızıl medal qazanmışdır. Aytən Babayeva (42 kq) gümüş, Ləman İmanova (42 kq) və Nəzakət Cavadova (47 kq-dan yuxarı) isə bürünc medala sahib olmuşlar.

Qeyd edək ki, qarşıda yeniyetmə döyüşçülərimizi dünya birinciliyi gözləyir. Bu yarış Ukraynada təşkil olunacaqdır. İdmançılarımız dünya birinciliyinə ciddi hazırlıq prosesi keçirlər.

# KİTABXANAMIZIN YENİ KİTABLARI




Elm və sənət məclisi 11-20 (2-ci kitab) // Hamlet İsaxanlı. – Bakı: Xəzər Universiteti Nəşriyyatı, 2011. –308 s. –ISBN 978-9952-20-065-2

Qazıyev Y. Erməni məsələsi (yalanlar gerçəklər). –Bakı : Nurlar, 2009. – 344 s. – ISBN 978-9952-450-30-9



Bünyadzadə K. Gəncliyin fəlsəfəsi. –Bakı : Nurlar, 2009. –256 s. – ISBN 978-9952-450-28-6







Şərq (tərcümə toplusu 7). –Bakı : CBS, 2010. –328 s.



Kompass (register of industry and commerce of Azerbaijan 2011). –16th ed.

Babayev A. Koroğlunun Çənlibelə qayıdışı. –Bakı : MHS – poliqraf, 2010. –96 s. – ISBN 978-9952-450-00-5




Nəriman Nərimanov. –Bakı : Nurlar, 2010. –160 s. – ISBN 978-9952-450-70-5







Teacher supervison & evaluation (theory into practice). – 2nd ed. – Hoboken, NJ: Wiley, 2008. – 301 p. –ISBN 978-0-470-08405-2

"XƏZƏR XƏBƏR"İN

# NDU BÜROSU

## AMERİKA SƏFİRİ İLƏ GÖRÜŞ



Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Metyu Brayza Naxçıvana rəsmi səfəri zamanı Naxçıvan Dövlət Universitetində də olmuşdur. Səfir universitetdə 2003-cü ildən fəaliyyət göstərən Ernest Heminquey mərkəzi ilə tanış olmuş, mərkəzdə amerikalı yazıçı-jurnalistin həyat və fəaliyyətinin, eləcə də Avropa ədəbiyyatının təbliği ilə bağlı məlumat almışdır.Rektor, akademik İsa Həbibbəyli qonağı salamlayaraq Azərbaycanın qədim diyarı, sivilizasiyanın beşiyi Naxçıvan, universitet haqqında ətraflı məlumat vermişdir. Qeyd olunmuşdur ki, Avropa Rektorlar Klubunun, Asiya Universitetləri Assosiasiyasının üzvü olan bu ali məktəb çoxşaxəli beynəlxalq əməkdaşlığa malikdir. Ali təhsil ocağı NATO, BMT, Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilatlarla birgə layihələrin hazırlanması və tətbiqində uğurla iştirak edir. Rektor universitetin Amerikanın Perdu Kalumet Universiteti ilə əlaqələrindən, dünya elm, təhsil sisteminə inteqrasiya istiqamətində perspektiv vəzifələrdən söz açmışdır.

Səfir Metyu Brayza Amerika-Azərbaycan əlaqələrindən danışmış, Azərbaycanın dinamik inkişaf edən, beynəlxalq nüfuza malik bir dövlət olduğunu, təmsil etdiyi ölkənin Azərbaycanla siyasi, iqtisadi tərəfdaşlığa maraqlı olduğunu vurğulamışdır.

# "DÜNYANI 60 DƏQİQƏYƏ GÖR"



Xəzər Universiteti Peşə inkişaf mərkəzinin koordinatoru İsgəndər Ağayev AİESEC təşkilatının iyunun 17-də "Park Bulvar" əyləncə və ticarət mərkəzində təşkil etdiyi "See all the world in 60 minutes" – "Dünyanı 60 dəqiqəyə gör" adlı sərgidə Xəzər Universiteti Karyera Mərkəzinin təşkil etdiyi Karyera Yay Məktəbi, Xəzər Universiteti və "Dünya" məktəbi haqqında məlumat verdi. Tədbirdə 50-yə yaxın səfirlikdən nümayəndələr, nazirliklərin və bir sıra digər təşkilatların təmsilçiləri iştirak edirdilər. AİESEC Azərbaycan nümayəndəliyinin rəhbəri Aleks Apatrey Xəzər Universitetinə əməkdaşlığa görə təşəkkürünü bildirdi və gələcəkdə də bu istiqamətdə tədbirlərin keçiriləcəyini qeyd etdi.

# "DÜNYA" MƏKTƏBİ

## "Xəzər Xəbər" dərgisinin "Dünya" məktəbi üçün əlavəsi

*Materialları "Dünya" məktəbinin müəllimi Mədinə Karahan çapa hazırlamışdır*




Mayın 26-da Xəzər Universitetinin "Dünya" konsert salonunda "Dünya" məktəbi məzunlarının şərəfinə təntənəli konsert oldu. XI sinif şagirdlərinin hazırladıqları "Məktəbə əlvida" kompozisiyası hər kəsdə kövrək hisslər oyatdı. Məzun Yəhyalı Nərminin söylədiyi vida sözləri arxa fonda göstərilən slaydla böyük həyəcan yaratdı. Həmin slayd məzunların sevimli müəllimi Bəhlul Abdullanın əziz xatirəsinə həsr olunmuşdu.

"Dünya" məktəbinin şagirdləri də məzunlara öz təbrik çələnglərini – musiqi nömrələrini təqdim etdilər. Hər bir ifa, rəqs böyük alqışlarla qarşılandı. XI sinfin rəhbəri Pərvin Əliyevanın öz şagirdləri ilə səhnədə "Cəngi" rəqsini ifa etməsi isə əsl ruh yüksəkliyi yaratdı. Tədbirin sonunda məzunlardan Nərgiz Poladova, Laçın Hüseynli, Nailə Cəbrayılova, 9b sinif şagirdi Nərmin Məmmədova və 6a sinif şagirdi Banuçiçək Gərayzadə birlikdə "Əziz müəllimim" mahnısını ifa etdilər.

Məzunları təbrik edən Xəzər Universitetinin və "Dünya" məktəbinin təsisçisi, Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı gənclərə gələcək həyatlarında uğurlar arzuladı.

Sonda məzunlara ödüllər təqdim olundu və xatirə şəkilləri çəkildi.















# SON ZƏNG



Mayın 31-də Azərbaycanın bütün məktəblərində olduğu kimi, "Dünya" məktəbində də XI sinif şagirdləri üçün son zəng səsləndi. Məktəbin direktor müavini Püstəxanım Səfərova məzunları təbrik etdi və onlara gələcək işlərində uğurlar arzuladı. Məzunlar da öz növbəsində onlara dərs deyən müəllimlərinə təşəkkürlərini bildirdilər və məktəb həyatlarını ən əziz xatirə kimi unutmayacaqlarına söz verdilər. Xəzər Universitetinin Humanitar və təşkilati işlər üzrə müşaviri Nailəxanım İsayeva və valideynlərdən bəziləri xoş sözlərlə məzunları təbrik etdilər. Tədbirin sonunda məzunlar "Son zəng" mahnısını ifa edərək, əllərindəki göyərçinləri havaya buraxdılar.



# SON ZƏNG







# "DÜNYA" MƏKTƏBİNDƏ MÜZAKİRƏ



İyunun 22-də "Dünya" məktəbində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının iştirakı ilə məktəbin saytının təkmilləşdirilməsinə aid təkliflər müzakirə olundu. "Dünya" məktəbinin direktoru Mərufə Mədətli, İB koordinatoru Rəna Musayeva, İngilis dili departamentinin rəhbəri Nərgiz Mahmudzadə, Şagird Birliyi və Mədəni - Kütləvi Tədbirlər üzrə bədii rəhbər Mədinə Karahan və ingilis dili müəllimi Günel Bayramova çıxış edərək, təkliflərini bildirdilər, fikir mübadiləsi aparıldı. Nəticədə bir sıra qərarlar qəbul edildi.

## "ÜMİD DOLU GÖZLƏRƏ DOĞRU"

Xəbər verdiyimiz kimi, "Dünya" məktəbi iflic xəstəliyindən əziyyət çəkən Şabran rayon sakini Ağamalıyev Rəsulu himayəyə götürərək, onun cərrahiyyəsi üçün "Ümid dolu gözlərə doğru" adlı xeyriyyə tədbirləri keçirmişdi. Sonuncu tədbirdən yığılan vəsaitlə may ayının 30-da Rəsulun ayaqları üzərində ikinci dəfə cərrahiyyə əməliyyatı keçirildi. İyunun 1-də məktəbin müəllim və şagirdlərindən ibarət bir qrup xəstəxanaya Rəsula baş çəkməyə getdi. Həkimlər onun vəziyyətinin qənaətbəxş olduğunu söyləyirlər. "Dünya" məktəbinin kollektivi Rəsulun sona qədər sağalması üçün əlindən gələni etməyə vəd verib.

## ELMİ - METODİK MƏCLİSİN YEKUN İCLASI

İyunun 20-də "Dünya" məktəbində Elmi - Metodik Məclisin 2010-2011-ci illər üzrə yekun iclası keçirildi. İclası məktəbin direktoru Mərufə Mədətli açdı və gündəlikdə duran məsələlərə toxundu. O, başa çatmış tədris ilində əldə edilən uğurlardan, eyni zamanda, tədrisdə yol verilən nöqsanlardan söz açdı. Toxunulan problemlər ətrafında müzakirələr aparıldı.

İclasda məktəbin direktor muavini Püstəxanım Səfərova, təlim - tərbiyə işləri üzrə direktor müavini Çiçək Qaracayeva, Şagird Birliyi və Mədəni - Kütləvi Tədbirlər üzrə bədii rəhbər Mədinə Karahan qısa hesabatla çıxış etdilər. İclasın sonunda M. Mədətli bütün müəllimlərə xoş yay istirahəti arzuladı.


DÜNYA MƏKTƏBİ
Xəzər Universiteti "Dünya məktəbi"
2011-2012 – ci tədris ili üçün şagird qəbulu elan edir!
Sizin dünyaya açılan pəncərəniz!!!
WORLD SCHOOL
ib
Beynəlxalq statuslu "Dünya Məktəbi"nin şagirdi ol
və bizimlə dünyanı kəşf et!
AZ 1122, Bakı şəhəri, Alatava küç, 2
Telefon: + (994 12) 431 57 81, 431 26 38
Faks: + (99412) 431 57 81




**Universitədə bakalavr pilləsində aşağıdakı ixtisaslar üzrə kadr hazırlığı aparılır:**

**I qrup üzrə:**

- Kompüter elmləri
- Neft-qaz mühəndisliyi
- Kompüter mühəndisliyi
- İnşaat mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi

**II qrup üzrə:**

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Tarix və coğrafiya müəllimliyi
- Regionşünaslıq (regionlar üzrə)
- Beynəlxalq münasibətlər

**III qrup üzrə:**

- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- Xarici dil (ingilis dili) müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Filologiya (İngilis dili və ədəbiyyatı)
- Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
- Tərcümə (ingilis dili)
- Jurnalistika
- Politologiya

**IV qrup üzrə:**

- Kimya və biologiya müəllimliyi
- Psixologiya


**Ünvan: Məhsəti küçəsi, 11.**
**(Neftçilər metrosunun yaxınlığında)**
**Əlaqə telefonları: (012) 417-91-33, 012 421-68-11,**
**(012) 421-79-16**
**Faks: 012 498-93-79**
**İnternet: http://www.khazar.org**


# XƏZƏR UNİVERSİTETİ

Xaricdə ən çox tanınan,
xaricə ən çox tələbə göndərən,
xaricdən oxumağa tələbələrin ən çox gəldiyi,
xarici müəllimlərin ən çox işlədiyi ali məktəbdir.

Xəzər Universiteti Azərbaycanda yeganə universitetdir ki, onun tədris siyasəti və diplomları Avropa və Amerikanın aparıcı universitetləri tərəfindən tanınır.

2011-ci ildə İspaniyanın məşhur Dövlət Elmi Tədqiqat Mərkəzinin Webometrics reytinqində dünyanın 6 min ən yaxşı universitetləri sırasına Azərbaycandan yalnız 1 ali məktəb - Xəzər Universiteti daxil edilmişdir.

***

*Xəzər Universiteti beynəlxalq əlaqələrin qurulması, beynəlxalq la[illegible] və proqramlarda iştirak, dünyanın aparıcı universitetləri ilə müəllim və tələbə mübadiləsi və digər sahələrdə təsirli tədbirlər görməklə kadr hazırlığı sahəsində əsaslı nailiyyətlər əldə etmiş, böyük nüfuz qazanmışdır. Xəzər Universiteti bu gün həm Azərbaycanda, həm də Azərbaycandan kənarda özünəməxsus yeri olan, özünün xüsusi çəkisi olan bir ali təhsil müəssisəsidir.*

**Prof. Misir Mərdanov**
**Azərbaycan Respublikasının Təhsil Naziri**

## Universitetin maddi-texniki bazası

Məhsəti küçəsi, 11 ünvanda (Neftçilər metrosunun yaxınlığında) yerləşən 5 mərtəbəli tədris korpusunda, eləcə də ən müasir avadanlıqlarla təchiz edilmiş 7 mərtəbəli yeni tədris korpusunda, şəhərin mərkəzində Bəşir Səfəroğlu küçəsi, 122 ünvanda 4 mərtəbəli və Alatava 2 (Tbilisi prospekti, Mebel fabrikinin yanı) ünvanda 6 mərtəbəli yeni tədris korpuslarında geniş auditoriyalar, zəngin kitabxana, ən müasir kompüter mərkəzləri və s. ilə birgə yüksək keyfiyyətli təhsil almaq üçün hər cür şərait yaradılmışdır.

## Təhsil və karyera imkanları

Təhsildə fərqlənən tələbələr təhsillərini Amerika, Kanada, İngiltərə, Fransa, Almaniya, Hollandiya, İsveç, İtaliya, Türkiyə, Çin, Yaponiya və s. ölkələrin tanınmış universitetlərində davam etdirmək imkanı qazanırlar.

Xəzər Universitetində əsas təhsil dili ingilis dilidir. Bu, tələbələrin müasir dərsliklərdən istifadə etməsi, təhsillərini xaricdə davam etdirməsi, xaricdən gələn müəllimlərin effektli dərs deməsinə geniş imkan verir. Məzunlar və yuxarı kurs tələbələri xarici şirkətlərdə yüksək maaşlı işlərə dəvət alırlar, eləcə də dövlət təşkilatlarında və ölkəmizin qabaqcıl şirkətlərində işləmək imkanı əldə edirlər.

## Təhsil haqqının ödənilməsində güzəştlər

TQDK-nın keçirdiyi imtahanlarda yüksək bal toplayan tələbələrə aşağıdakı qaydada güzəştlər edilir. Imtahanlarda:
650-700 bal toplayan tələbələr təhsil haqqından tam azad edilir.
600-649 bal toplayan tələbələr təhsil haqqının cəmi 25%-ni ödəyir.
550-599 bal toplayan tələbələr təhsil haqqının 50%-ni ödəyir.
500-549 bal toplayan tələbələr təhsil haqqının 75%-ni ödəyir.

**Tələbələr təhsil aldıqları müddətdə əsgəri xidmətdən azaddırlar.**